# MÜƏLLİF HAQQINDA MƏLUMAT

Hüseynov İsrail Nəsib oğlu 18.09.1959-cu ildə Qərbi Azərbaycanda Göyçə mahalının İnəkdağı kəndində böyük zəhmətkeş bir ailədə anadan olmuşdur. İnəkdağı kəndinin 8 illik məktəbini əlaçı olaraq fərqlənmə ilə bitirmişdir. Təhsilini davam etdirmək üçün Bakı şəhəri, 5№-li kimya-biologiya təmayüllü orta məktəbinə müvəfəqiyyətlə daxil olmuş və 9-cu sinfi əla qiymətlərlə bitirdikdən sonra ailə vəziyyətinə görə 10-cu sinfi Göyçə mahalının Nərimanlı kənd orta məktəbində əla qiymətlərlə tamamlamışdır.

SSRİ-nin əsgəri xidmətindən ən yüksək rütbə ilə vaxtından əvvəl nümunəvi olduğuna görə 09.05.1982-ci ildə demobilizasiya olduqdan sonra Özbəkistan Respublikasında Daşkənd Tibb İnstitutuna konkursdan kənar qəbul olunmuş və həmin İnstitutu rus dilində 1988-ci ildə əla qiymətlərlə bitirərək Kafedrada asistent kafedra müəllimi işləmişdir. Sonra SSRİ-nin Tibb Elmləri Akademiyasının Ümümittifaq Cərrahiyyə Elmi Mərkəzinin Daşkənd Filialının Klinikasına ümumi cərrahiyyə üzrə klinik ordinatura və aspiranturaya daxil olmuşdur, oranı bitirdikdən dərhal uzun müddət Daşkənd, Sankt-Peterburq şəhərlərinin bir çox klinikalarında çalışmışdır və hal-hazırda özəl klinikaların birində işini davam etdirir.

Şairimizin erkən, gənc yaşlarından qısa bir müddətdə sevimli Ata və Anasını itirməsi, həyatın amansız sınaqlarına düşməsi, özündən yaşca böyük qardaş-bacılarının olmasına, qərib ölkədə Özbəkistan Respublikasının Daşkənd Tibb İnstitutunun birinci kurs tələbəsi olmasına baxmayaraq, həssas və məsuliyyətli olduğu üçün, həm də müdrik atasının ağır xəstə olarkən ona verdiyi vəsiyyəti nəzərə alaraq, bütün o böyük külfətin ağırlıqlarını, qayğılarını, ağrılarını, əziyyətini məcbur olub öz boynuna ğötürmüşdür. Şair institutda əyani tələbə olmasına, olduqca gənc və təcrübəsiz olmasına, arxadan heç bir kömək olmamasına məhəl qoymadan, bacılarını və kiçik qardaşlarını bütün iztirablardan, çətinliklərdən qorxub-çəkinmədən öz başına yığmış və çox keçmədən tez bir zamanda ailənin çətinlikdən dirçəlib inkişaf etməsinə, hamısının ali təhsil alıb, ailə qurmalarına olduqca böyük köməkliklər göstərmişdir.

İsrail Nəsiboğlu Göyçə mahalının İnəkdağı kəndində əzəmətli, füsunkar dağların qoynunda əllərində kitab, dəftər məktəbli illərində, tətillərdə öz təsərrüfatlarının qoyun-quzularını otara-otara, şən mahnılar oxuya-oxuya ilhamlanmış və təbii olaraq coşan istedadı ilə poeziya aləminə lap erkən, 12 yaşında daxil olmuşdur.

İsrail Nəsiboğlu savadlı, dəqiq, səliqəli, hərtərəfli, təcrübəli həkim və həkim-cərrah olduğu kimi, həm də Vətənin, həyatın, insanların, cəmiyyətin, təbiətin və məhəbbətin dərindən gözəlliyinə varan şairlərimizdəndir. Eloğlumuz çoxşaxəli inkişaf etdiyinə görə fəlsəfi dəyərlərə önəm fikir verir. Onun poeziyasında sözün qüdrəti, mənası, ecaskarlığı, parlaqlığı, rəngarəngliyi və ən əsası təsirliyi, ötkəmliyi qabarıq, incə şəkildə üzə çıxır.Müraciət etdiyi istənilən janra çox ustalıqla, bir sənətkar kimi onun damarına, ürəyinə, iliyinə, ruhuna daxil olmağı və məharətlə, zərif əks etdirməyi kamilliklə bacarır.

İsrail Nəsiboğlunun bir-birindən tamamilə fərqli, hərəsi 364 səhifədən ibarət eyni zamanda üç cilddə kitablarının cıxması heç də təəccüblü deyildir. Kitabların adları aşağıdakı kimidir:

1. Bu həyatın yollarında
2. Bu fələyin əməlindən
3. Bu dağların ətəyində

Kitabların cildindəki, şeirlərin altındakı surətlər, şəkillər şeirlərdə olduğu dərin mənalar qədər bir-birini olduqca tamamlayır və bütövlükdə silinməz, xoş duyğular yaradır. Fürsətdən istifadə edərək, bu kitabların elektron formatını sizə, bütün geniş oxucu kütləsinə məmnuniyyətlə çatdırmaq istəyirəm.


İsrail Nəsiboğlu
BU HƏYATIN YOLLARINDA

**İsrail Nəsiboğlu**

# Bu həyatın yollarında

*(I cild)*

***"Bu həyatın yollarında" adlı kitabımı bütün həyatım qədər sevmiş olduğum istəkli və əziz Atam, Hüseynov Nəsib Həmid oğlunun əbədi xatirəsinə ithaf edirəm!***

**Bakı - 2013**

**İsrail Nəsiboğlu**

# Bu həyatın yollarında

***(I cild)***

**Bakı - MTR Group - 2013, 364 səh.**

***Redaktor:*** *Ənvər ƏHMƏD*
*Azərbaycan Yazıçılar Birliyinin*
*Qarabağ bölməsinin sədri,*
*Beynəlxalq Kadrlar Akademiyasının Akademiki*

***Bədii redaktor:*** *Ramiz MƏMMƏDZADƏ*
*Azərbaycan Yazıçılar Birliyinin üzvü,*
*Qızıl Qələm mükafatı laureatı*

***Kitabın I cildinə İsrail Nəsiboğlu yaradıcılığından xalqımızın ruhuna, zövqünə uyğun gələn müxtəlif, cürbəcür janrlarda yazılmış şeirlər daxil edilmişdir. Minillərlə tarixi olan poeziya qaynaqlarından qidalanmış, cilalanmış şeirlərdə Vətən, yurd, məskən sevgisi, haqqın, ədalətin tələbi, ataya, anaya olan ehtiram, təbiət və sevgi gözəlliyi nümunələrinin saf duyğuları öz əksini tapmışdır.***

**Bizim qrifimiz**

**İ** **5204000223 - (019) 08-13 (qrifli nəşr)**
**M - 656 - 2013**

**$Az_2$**

**2013 BBKC 63 İ 63**

**© İ.Nəsiboğlu**



*Bir oxun üstündə fırlanır zaman,*
*Dəyirman daşı tək üyüdüb keçir.*
*İlahi hökmündə dayanır hər an,*
*Biz kimik? Bizləri seçir hey seçir.*



*"Bu kitabımın*
*ərsəyə gəlməsinə,*
*işıq üzü görməsinə,*
*oxucu nəzərinə*
*çatdırılmasına görə*
*həyat yoldaşım*
*Sevinc xanıma*
*öz təşəkkürümü*
*bildirirəm"!*

# İSTEDADIN BƏXŞİŞİ

"İnsanın amalı hər bir nailiyyətə qadirdir", deyirlər. Elmdə ən yüksəkliyə ucalmaq, qarşıda məqsəd olandan sonra o qədər də çətin deyildir. Ancaq lap uşaqlıq dövründən tutmuş gənclik illərinə və indiyə qədər davam edən həyatın anlam proseslərini dərindən hiss edib qavramaq, onun ən çətin imtahanlarından böyük şücaətlə çıxmaq hər kəsə nəsib olmur.

Həqiqəti, obyektivliyi qeyd etsən oxucu nəzərinə, bütün bu yüksək keyfiyyətlərin - sadədən tutmuş mürəkkəbə qədər hamısı bütövlükdə İsrail Nəsiboğlunda var və onun qəti, kəskin, dönməz iradə və xüsusiyyətlərində cəmlənmişdir.

İsrail Nəsiboğlu Göyçə mahalının İnəkdağ kəndində əzəmətli, füsunkar dağların qoynunda məktəb illərində, tətillərdə öz təsərrüfatlarının qoyun-quzularını otara-otara, şən mahnılar oxuya-oxuya ilhamlanmış və təbii olaraq coşan istedadı ilə poeziya aləminə lap erkən 12 yaşında daxil olmuşdur. İlk şeirlərindən biri də 02.08.1971-ci ildə yazmış olduğu "Mənim babam" şeiridir:

*Haqqın, sülhün dayağısan,*
*Mənim babam, mənim babam.*
*Azadlığın mayağısan,*
*Mənim babam, mənim babam.*

*Zülmü yerdən götürübsən,*
*Xanı, bəyi itiribsən,*
*Gözəl, ağ gün gətiribsən,*
*Mənim babam, mənim babam.*

***("Mənim babam")***

Şairimiz lap erkən, gənc yaşlarından qısa bir müddətdə həyatı qədər sevdiyi Anasını, Atasını itirmiş və o, böyük külfətin bütün qayğılarını, ağırlıqlarını, məsuliyyətini, ağrılarını olduqca həssas olduğu

üçün, özündən böyük qardaş və bacılarının olmasına baxmayaraq, bütövlükdə məcbur olub öz boynuna götürmüşdür. Onun bu ağır dövrdə olduqca çox gənc, öz yaşına görə həyatda təcrübəsiz olmasına baxmayaraq, qərib ölkədə, Özbəkistan respublikasının paytaxtı olan Daşkənd şəhərində bir arxasız, köməksiz, valideynlərini itirmiş övlad kimi məsuliyyətdən çəkinməyərək, keşməkeşli dünyanın ağır, sərt, amansız, çətin sınaqlarından böyük müvəffəqiyyətlə, əzmkarlıqla, ləyaqətlə çıxmışdır.

İsrail Nəsiboğlu savadlı, dəqiq, səliqəli, hərtərəfli, təcrübəli həkim və həkim-cərrah olduğu kimi, həm də həyatın, insanların, cəmiyyətin, təbiətin, məhəbbətin dərindən gözəlliyinə varan şairlərimizdəndir. Onun poeziyasında sözün qüdrəti, mənası, ecaskarlığı, parlaqlığı, rəngarəngliyi və ən əsası, təsirliyi qabarıq, incə şəkildə üzə çıxır. Müraciət etdiyi istənilən janra çox asan ustalıqla, bir sənətkar kimi onun damarına, ürəyinə, iliyinə daxil olmağı və məharətlə, zərif əks etdirməyi kamilliklə bacarır. İsrail Nəsiboğlunun bu kitabda cəmlənən şeirlərindən ən başlıcasını yurd, vətən, məskən sevgisi təşkil edir və Vətəndən uzaqlarda yaşamasına baxmayaraq öz dərdini, məqsədini, niyyətini olduqca dolğun, sadə, yumşaq 01.02.1989-cu ildə Daşkənd şəhərində "Göyçənin" adlı şeirində göstərmişdir:

*Çıxmaz heç yadımdan boranı, qarı,*
*Təmiz xoş havası, yazı-baharı,*
*Laləsi, yarpızı, sərin suları,*
*Kababı, ayranı, aşı Göyçənin.*

*Həyatın amansız qəzəbinə bax,*
*Kimlərə yem oldu o əziz torpaq,*
*Matəm mahnısını sazda çalaraq,*
*Yas tutdu dağları, daşı Göyçənin.*

***("Göyçənin")***

**Və yaxud:**

*Göyçəmizdə dağlarımın şahısan,*
*Əbədi könlümdə qal, İnəkdağı!*
*Qismət kəmdir, sarsıntımın ahısan,*
*Hüsnünə matəmi sal, İnəkdağı!*

*Əzəmət əyilib boynundan tamam,*
*Çaqqallar ulaşır qoynundan tamam,*
*Bezibsən hayesin oynundan tamam,*
*Dəyişir təzadda val, İnəkdağı!*

**(“Çal, İnəkdağı”!)**

İsrail Nəsiboğlu dünyamızın dərin təzahürlərinə vararaq çox düzgün və peşəkarlıqla əsas məqamları, orada gedən incəlikləri asanlıqla təsvir etməyi bacarır:

*Ən pis, dəhşətlisi, bilirsən, nədir?*
*Alçalıb, yüksəyə ucalmaqdadır.*
*Yaxşılıq etməyən, qanmayan qədir,*
*Mənasız yaşayıb qocalmaqdadır.*

**(“Heç olmaqdadır”)**

**Və yaxud:**

*Varı lap özündən çox istəyənlər,*
*Bilməyir, dünyamız - fani dünyadır.*
*Vəzifə uğrunda başın əyənlər,*
*Düşünmür, lüzumsuz ani dünyadır.*

*Nəsiboğlu, giley-güzar tükənmir,*
*Fələyin xəlbiri bacdan ələnmir,*
*Xırman tufandadır, dibdən kürənmir,*
*Özü-özlüyündə cani dünyadır.*
*Dərslərində həm əyani dünyadır.*

**(“Fani dünyadır”)**

Şair öz istəyindən gələn Ata, Ana adlı müqəddəslərə, qardaş-bacı paklığına, dostluq-qohumluq münasibətlərinə xüsusu yer verir və çox ustalıqla tərənnüm edir:

*Dizimə güc verən, qoluma qüvvət,*
*Yoluma göz qoyan, əmələ qiymət,*
*Yüksək bir aləmdə yenilməz nemət,*
*Həyat timsalımın anı Atadır.*

***("Atadır")***

***Və yaxud:***

*Ana deyib doyammıram,*
*Nəfəsini duyammıram,*
*Darıxmışam, uyammıram,*
*Əziz Anam, səndən ötrü.*

***("Əziz Anam, səndən ötrü")***

***Və yaxud:***

*Cümləmin ilk sözü, könül yoldaşı,*
*Yüksələn zirvəmin qayası, daşı,*
*Sevda üzüyümün parlayan qaşı,*
*Həmişə, hər zaman, qardaşdı - qardaş!*

***("Qardaş")***

İsrail Nəsiboğlu yaradıcılığında geniş, çoxşaxəli, olduqca dərin və bəzən də olduqca qəliz üslublara tez-tez rast gəlinir. Hər bir oxucu o şeirləri diqqətlə, həzin oxuduqca düşünür, saflaşır:

*O, nədir ki, iki kiçik zərrədən*
*Yaranmışdan kainatım dolanır?*
*Biri mənfi, biri müsbət tənbətən*
*Yerlə, göylə amanatım dolanır.*

***("Dolanır")***

***Və yaxud:***

*Sevgi dünyasında çox tələsimə,*
*Yanılıb düşərsən tor, tələ, simə,*
*Qəlbini verəndə bil, təl, əsimə,*
*Qoyanda əhvalı sər, güləb atım.*

***("Güləbatım")***

***Və yaxud:***

*Həyatda ən gözəl bir dünya quran,*
*Qüdrətli, zəkalı əllər istərəm.*
*Bütün, sal qayanı yıxıb, uçuran,*
*Böyük, ən coşqunlu sellər istərəm.*

***("İstərəm")***

Şairin yaradıcılığında insanlığa, dəyanətə, ləyaqətə böyük yer verilir. Həyatda necə sanballı yaşamaq təzahürü xüsusi qeyd olunur və yığıncaqlarda, cəmiyyətdə, yoldaşlıqda özünə rəğbət və ehtiram hissləri qazandırmaq anlamı həmişə öndə durur. Bununla da şərəfli yaşamağı, həmişə mənəviyyatı zirvələrdə saxlamağı və oxucu kütləsinin ürəyinə çox asanlıqla yol tapan qafiyələri seçməyi, onlardan vaxtında istifadə etməyi ustalıqla bacarır:

*Mənasız ömürün qiyməti olmaz,*
*Dolanma gərəksiz hər kişi kimi.*
*Tülkü tək gəzənin hörməti olmaz,*
*Mərdi-mərdanə ol, şir kişi kimi.*

***(“Bir kişi kimi”)***

***Və yaxud:***

*Yersiz davranışı yığışdır başdan,*
*Ağıl çox yaranmır mənasız yaşdan,*
*Zirvələr ucalmır qiymətsiz daşdan,*
*Elə et, mənliyin talan olmasın.*

***(“Palan olmasın”)***

İsrail Nəsiboğlu misilsiz gözəlliyin, əvəzedilməz sevginin, saf eşqin və əsrarəngiz dağların, təbiətin əsla vurğunudur. Onun olduqca təravətli, şirin gəraylıları, qoşmaları, təmsilləri, bağlamaları və qəzəlləri özünün ədəbiyyatşünas olmamasına baxmayaraq, ürəyə yağ təki yayılır:

*Nə enişi bilər, nə də yoxuşu,*
*Həmişə yolunda düzdür məhəbbət!*
*Nə boranı bilər, nə də yağışı,*
*Həyatda silinməz izdir məhəbbət!*

***(“Məhəbbət!”)***

***Və yaxud:***

*Asimanım qaralıbdır, daş yağır,*
*Həyan eylə, bu eşqimi bir çağır,*
*Boran qopar, tufan eylə, sən bağır,*
*Qığılcımın düz ilqara toxundu.*

***(“Toxundu”)***

***Və yaxud:***

*Uçurdu xəyalım, hey sevinirdi,*
*Gah cığırla qalxıb, gah da enirdi,*
*Könül coşa gəlib bərkdən dinirdi,*
*Seyrimdə zərgərəm, zər guşəsində.*

***("Guşəsində")***

Şairimizin yaradıcılıq aləmi olduqca zəngin, maraqlı, mənalı və rəngarəngdir. "Bu həyatın yollarında" adlanan kitabda, yəni **I clddə** olan şeirlər həqiqətən bir-birindən fərqli, zərif və təravətlidir. Əlbəttə, biz bütün bunlarla onun qabiliyyət və istedadını təhlil etmək niyyətində deyilik. Lakin söz-sənət yollarında inamla addımlayan sənətkarın özündən yaşlı, böyük insanlara və ustadlara hörmətlə verdiyi qiymət valehedicidir, eyni zamanda cəlbedici, uğurlu nümunələrdən biri sayılır:

*Dərin zəkasıyla elə bənd olub,*
*Rəssam fırçası tək gülə bənd olub,*
*Hərbə-zorbasıyla dilə bənd olub,*
*Şeir zirvəsində durdu Ələsgər.*

*Haqqı-ədaləti düzgün seçərək,*
*Dərgah çeşməsindən sular içərək,*
*Çətin qafiyədən asan keçərək,*
*Söz-saza xoş kəlam burdu Ələsgər.*

***("Ələsgər")***



Beləliklə tam inamla qeyd edirəm ki, İsrail Nəsiboğlu yaradıcılığının oxucular üçün açılmamış boğçaları çoxdur. Fürsətdən istifadə edərək onların bir hissəsini **I cildə**, "Bu həyatın yollarında" adlı kitaba sala bilmişik və tez bir zamanda cəmiyyətdə böyük sevinclə qarşılanıb, əks-səda doğuracağına inanırıq.

***Ənvər Əhməd***
***AYB-nin Qarabağ bölməsinin sədri,***
***Beynəlxalq Kadrlar Akademiyasının Akademiki.***

# GÖYÇƏNİN

Gör necə dövrandı, necə zamandı,
Əyildi köksünə başı Göyçənin.
Özünü kimsəsiz bir yetim sandı,
Dartıldı, çatıldı qaşı Göyçənin.

Çıxmaz heç yadımdan boranı, qarı,
Təmiz xoş havası, yazı-baharı,
Laləsi, yarpızı, sərin suları,
Kababı, ayranı, aşı Göyçənin.

Həyatın amansız qəzəbinə bax,
Kimlərə yem oldu o əziz torpaq,
Matəm mahnısını sazda çalaraq,
Yas tutdu dağları, daşı Göyçənin.

Vicdansız, insafsız, ahsız-amansız,
İnamsız, idraksız, ürəksiz-qansız,
Allahsız, duasız, andsız-Quransız,
Soxulub qoynuna naşı Göyçənin.

İsrailəm, oldum ağır xəstə mən,
Loğmanımdır bu el-oba, bu Vətən,
Qoy bilsinlər o yollardan hər keçən,
Qurumaz gözünün yaşı Göyçənin.
Soxulub qoynuna naşı Göyçənin.

***Daşkənd şəhəri***
***01.02.1989-cu il.***



# SƏNİ GÖRƏNDƏ

Təbəssümlər oyandı,
Ay qız, səni görəndə.
Çiçəklər al boyandı,
Ay qız, səni görəndə.

Səadət gəlir önə,
Mərhəmət çatır dinə,
Xoş əhval düşür ünə,
Ay qız, səni görəndə.

Qığılcım şölə saçır,
Ətrafda qönçə açır,
İntizar durub qaçır,
Ay qız, səni görəndə.

Ürəyindən xəbər ver,
Eşqi edim yerbəyer,
Vəsfinə yazdım şeir,
Ay qız, səni görəndə.

Dəli könül şadlanar,
Uçub, hey qanadlanar,
Dildə Məcnun adlanar,
Ay qız, səni görəndə.

Mərifət köz eylədi,
Nəğmələr söz eylədi,
İsrail göz eylədi,
Ay qız, səni görəndə.
Ay qız, səni görəndə.

***Bakı şəhəri***
***18.11.2011-ci il.***



# QƏRİBSƏYİR

Ağır obam ayrı düşüb Vətəndən,
Didərgin olmaqdan el qəribsəyir.
Arzular kəm gəlir dönüb itəndən,
Titrəyən dodaqda dil qəribsəyir.

Göyçənin dağları nalə qoparır,
Təsviri kövrəldir, sinəmi yarır,
Mahalı, istəyi düzdə axtarır,
Xarlara qərq olmuş çöl qəribsəyir.

Zirvələr dumana bürünür tamam,
Çəmənzar laləsiz görünür tamam,
Bağçalar ah çəkir, kürünür tamam,
Qüssədən saralan gül qəribsəyir.

Ocaqlar qalanmır, tarı-mar olub,
Quzeylər darıxıb, həsrətdən solub,
Mehmansız bulaqlar çağlayıb, dolub,
Kükrəyən çaylarda sel qəribsəyir.

Sazın pərdələri danışmır, dinmir,
Keçmişin nəzəri gözdən silinmir,
Qayalar üstünə kəklik də enmir,
Gədiklər boynunda yel qəribsəyir.

Düşmən tapdağında inləyir torpaq,
Hayeslər xalqıma olubdur yamaq,
Gözəllik yoxdadır, intizara bax,
Sonası dağılmış göl qəribsəyir.

İsrail dözəmmir bu nahaq işə
Qismətmi tuşlanıb saxta gərdişə?
Qədim ulu diyar yalan vərdişə
Uyammır, səsləyir: - Gəl, qəribsəyir.
Didərgin olmaqdan el qəribsəyir.

***Bakı şəhəri***
***19.12.2007-ci il.***

# NECƏ DÖZÜM?

Bir könüldə iki həsrət,
Dana-dana necə dözüm?
Nəyə lazım belə minnət?..
Qana-qana necə dözüm?

Ürəyini verdin mənə,
Yekə yükdür dərdin mənə,
İztirabı sərdin mənə,
Ana-ana necə dözüm?

Qəm-qüssəni doldurubsan,
Al çəməni yoldurubsan,
Xəzan çəkib soldurubsan,
Sana-sana necə dözüm?

İstəyimi anlamadın,
Yaxın gəlib yanlamadın,
Heç özünü danlamadın,
Xana-xana necə dözüm?

Tükənibdir səbr-qərar,
Kinayələr qəlbi yorar,
Xəncər təki kəsər, yarar,
Şana-şana necə dözüm?

İsrailəm, çox kədərim,
Yoxalmayır heç hədərim,
Sezilməyir bir qədərim,
Yana-yana necə dözüm?
Dana-dana necə dözüm?

***Bakı şəhəri***
***13.09.2011-ci il.***



# ŞANIM KÜKRƏYİR

Düşmən xəncərini sıyırıb bizə,
Günahsız tökülən qanım kükrəyir.
Top-tüfəng tuşlayıb hər birimizə,
Hiddətdən gərilən canım kükrəyir.

Tarix öz sözünü deyir müxtəsər,
Misrimi fırlatsam yüz yağı kəsər,
Vazgenlər qarşımda diz çöküb əsər,
İntiqam hissindən anım kükrəyir.

Basılmaz qoç igid durub önümdə,
Haqqım, ədalətim dönməz dönümdə,
Qurani-Kərimim iman-dinimdə,
Vətən sevgisində sanım kükrəyir.

Hayes xülyalarda qurur Hayastan,
Serji millətinə yapır zimistan,
Söyləyir dünyaya uydurma dastan,
Qarabağ elində xanım kükrəyir.

Nəsiboğlu güman verməz qatilə,
Xaçek əməliylə düşüb batilə,
Yox et naxələfi, qoyma itilə!
Zəfərə az qalan şanım kükrəyir.
Vətən sevgisində sanım kükrəyir.

***Bakı şəhəri***
***17.10.2012-ci il.***



# QOCALIRIQ

Payız gəldi, xəzan oldu.
Keçir zaman - qocalırıq.
Gül-çiçəklər tamam soldu,
Dinir yaman - qocalırıq.

Həyat ötür bilinmədən,
Gənclik itir silinmədən,
Xəyal uçur ilinmədən,
Dartır kaman - qocalırıq.

Fələk yorub, bərk sürüyür,
Sıxıntılar hey kürüyür,
Dağ başını qar bürüyür,
Enir duman - qocalırıq.

Azar tutur, coşur birdən,
Ağrı qalxır gahdan, hərdən,
Fırtınalar çıxır tərdən,
Coşur ümman - qocalırıq.

Dünya gözdən bizi danır,
Günlər qəliz, tez fırlanır,
Gələn illər həm yubanır,
Küsür güman - qocalırıq.

Nəsiboğlu, asta yeri,
Ömür gedir yavaş geri,
Qələminlə yaz bu şeri!
Aman-aman, qocalırıq!
Keçir zaman - qocalırıq.

***Bakı şəhəri***
***17.06.2007-ci il.***



# KƏRAMƏTİ YANDIRIR

Bir gözəlin ləblərinin qönçəsi,
Danışanda təravəti yandırır.
Al yanaqda qara xalın incisi,
Göz atanda məlahəti yandırır.

Başın salıb, özün ağır aparır,
Müjkan atır, sinəm dərhal qabarır,
Ürəyimi lap dibindən qoparır,
Yerişində səxavəti yandırır.

Zalım qızı quşu vurur gözündən,
Bal cicəsi axır söhbət-sözündən,
Bir xəbəri varmı belə özündən?
Gözəllikdə nəzakəti yandırır.

Davranışı bu canıma can verir,
Məhəbbətə yaxın gəlir, yan verir,
Ümidimə inam verir, an verir,
Etdiyində zəmanəti yandırır.

Nəsiboğlu Məcnun olub əlindən,
Bir kəmənd at,ləngər vurum telindən,
Razılığı kaş alaydım dilindən,
Gedişində kəraməti yandırır.
Yerişində səxavəti yandırır.

***Sankt-Peterburq***
***21.08.2005-ci il.***





# ÇAL, İNƏKDAĞI!



Göyçəmizdə dağlarımın şahısan,
Əbədi könlümdə qal, İnəkdağı!
Qismət kəmdir, sarsıntımın ahısan,
Hüsnünə matəmi sal, İnəkdağı!

Qaşından qəhərin tökülür elsiz,
Vay-şüyən qoparır gədiklər dilsiz,
Keçmiş fəğandadır, əsirsiz-ilsiz,
Sükuta boylanma, lal İnəkdağı!

Dığalar sinəni talayır dəhşət,
Viranı qəsdinə calayır dəhşət,
Soyqırım alovu qalayır dəhşət,
Həsrət kəlamımı al, İnəkdağı!

Tufanlar, boranlar başından enmir,
Üstündə təmtəraq gəzinmir, dinmir,
Mən burda, sən orda, qüssə silinmir,
Bədbin xəyallara dal, İnəkdağı!

Ətəyin obasız qalıbdır üryan,
Fəryadlar içində qovrulur hər yan,
Didərgin sızlayır, didəsi giryan,
Düşübdür ürəyə xal, İnəkdağı!

Cığırdan kəhərin səsi yoxdadır,
Kiknəşən hayqırı, kəsi yoxdadır,
Ozanlar yurdunun bəsi yoxdadır,
Örtübdür başını çal, İnəkdağı!

Soyuq bulaq hiddətindən çağlayır,
Çınqıllı, Yumrudağ hönkür ağlayır,
Vazgen qoymur, yollarımı bağlayır,
Petya qurub öndə fal, İnəkdağı!

Ata, Ana, ruhunu tut özünə,
Ərənlərin əksini yap gözünə,
Qara libaslardan qapıb üzünə,
Örtübsən vəsfinə şal, İnəkdağı!

Nər igidlər dayanıbdır yaraqsız,
Tarix vərəqlənir, soxulur haqsız,
Məqsədlər fırlanır, yersiz-soraqsız,
Yetəmmir dadına Zal, İnəkdağı!

Alma ağacının sınıb qaməti,
Xaçek qanmır kəraməti, möhnəti,
Keçmir səmtə Qaçaq Qurban cürəti,
Büzüşür yamaclar, yal, İnəkdağı!

Qəriblik çəkibdir bizi çarmıxa,
Kövrək qəlbimizi tam yıxa-yıxa,
Bimürvət fələyim bəlkə karıxa,
Yetişə ibrətdə kal, İnəkdağı!

Ötən izdihamlar darıxıb yaman,
Coşur idraklarda hikkələr, aman,
Diksinir inilti, həvəsdə güman,
Zəhərdir ağızda bal, İnəkdağı!

Bütün varidatım vüqarındadır,
Çiskin dumanında, qış-qarındadır,
Əzablar, iztirab ilqarındadır,
Yaraşmır culaşan hal, İnəkdağı!

Əzəmət əyilib boynundan tamam,
Çaqqallar ulaşır qoynundan tamam,
Bezibsən hayesin oynundan tamam,
Dəyişir təzadda val, İnəkdağı!

İsrail gecələr yatammır sənsiz,
Özünü hey sanır ruhsuz, bədənsiz,
Ələsgər əhlisi qalıb Vətənsiz.
Çəngi havasını çal, İnəkdağı!
Həsrət kəlamımı al, İnəkdağı!

***Bakı şəhəri***
***30.10.2011-ci il.***



# BU HƏYATIN YOLLARINDA

Kədərim çox, qəmim də çox,
Bu həyatın yollarında.
Kürəyimdən dəyibdir ox
Bu həyatın yollarında.

Tamarzıyam xoş əhvala,
Cöyranlayır indi tula,
Namus, qeyrət gedir pula
Bu həyatın yollarında.

Nahaqq haqqı itələyir,
Həqiqətə kül ələyir,
Çaqqal cumur, şir mələyir
Bu həyatın yollarında.

Namərd mərddən önə gedir,
İblis, şeytan dinə gedir,
Yazıq kasıb gönə gedir
Bu həyatın yollarında.

Riyakarın artıb sözü,
Civildəşir parlaq gözü,
Doxsan doqquz olub üzü
Bu həyatın yollarında.

Saxtakarlıq dəbə minib,
Abır-həya taxtdan enib,
Gədə-güdə yaman dinib
Bu həyatın yollarında.

İsrailəm, artıb qəmim,
Fırtınadan batıb gəmim,
İnildəyir sazda bəmim
Bu həyatın yollarında.
Bu həyatın yollarında.

***Bakı şəhəri***
***07.07.2000-ci il.***

# BOYLANIR

Qara gözlər pəncərədən
Gülüb tez mənə boylanır.
Sökür qəlbi, bilməm nədən?
Döyüküb yenə boylanır.

İti baxış xəncər olub,
Gah sevinib, gah da dolub,
Könlümün başını yolub,
Az qalır, dinə, boylanır.

Gizlənəndə pərdə düşüb,
Məhəbbətdən dərdə düşüb,
Həyatə səhər də düşüb,
Vurğun eşqinə boylanır.

Oynat beli, göstər nazdan,
Sevgi yarat xoş avazdan,
Uzaq olaq selistbazdan,
Hey sinə-sinə boylanır.

Qaş qələmdir, nəzər almaz,
Görməyəndə yuxum olmaz,
İsrail cavabsız qalmaz,
Həmişə sənə boylanır.
Hey sinə-sinə boylanır.

***Bakı şəhəri***
***04.04.1998-ci il.***



# QORXUR DÜŞMƏN

Hünər, meydan davasıdır,
Cürətimdən qorxur düşmən.
Oyun-vuruş havasıdır,
Nifrətimdən qorxur düşmən.

Qatil Vətən nədir, bilmir.
Vicdanı yox, imdad dilmir,
Axan qanı qanıb silmir,
Hiddətimdən qorxur düşmən.

Uca dağlar - dayağımdır,
Qoç igidlər - sayağımdır,
Polad - dizim, ayağımdır,
Taqətimdən qorxur düşmən.

Nərə çəkir, əroğlu - ər,
Dərd gəmirir, nəroğlu - nər,
Baş sındırır, səroğlu - sər,
Qüvvətimdən qorxur düşmən.

Oğullarım yaraqlıdır,
Silahlarım daraqlıdır,
Tarixlərim varaqlıdır,
Möhnətimdən qorxur düşmən.

Göyçəm gəl-gəl edir, dayan!
Zəngəzurum, durma, oyan!
Yoxdur, hayes, səni sayan,
İbrətimdən qorxur düşmən.

Vətən eşqi ürəyimdə,
Xəyanətlər kürəyimdə,
Vuran qollar sürəyimdə,
Vəhdətimdən qorxur düşmən.

BMT, ATƏT doğru bilir,
Hayastanı heçdən silir,
Bütün dünya baxıb gülür,
Hörmətimdən qorxur düşmən.

Torpağımda hər nemətim,
Fəxri adım, var ismətim,
Qonaqpərvər səxavətim,
Şöhrətimdən qorxur düşmən.

Büsatlarım göz önündə,
Qarabağım söz önündə,
Həqiqətlər düz önündə,
Qüdrətimdən qorxur düşmən.

Bəsdir, millət, cəm olaq, cəm!
Ayağa qalx, yetər bu qəm!
İsrailəm, Azəriyəm!
Qeyrətimdən qorxur düşmən.
Hiddətimdən qorxur düşmən.

***Bakı şəhəri***
***05.05.2010-cu il.***



# ATADIR

***"Bu şeirimi sevimli Atamın***
***əbədi xatirəsinə ithaf edirəm"!***

Həyatım, varlığım, ahım, amalım,
Ruhumun imanı, canı Atadır.
Təzahür-xəyalım, ağıl-kamalım,
Bu xoşbəxt günümün sanı Atadır.

Ən əziz nəğməmin kamanı, tarı,
Ömür vüsalımın tükənməz varı,
Düşüncə deyilən əhdin ilqarı,
O ulu hikmətin xanı Atadır.

Dizimə güc verən, qoluma qüvvət,
Yoluma göz qoyan, əmələ qiymət,
Yüksək bir aləmdə yenilməz nemət,
Həyat timsalımın anı Atadır.

İşimin tarazı, dünyamın gözü,
Dilimin məsləki, mətini, sözü,
Qövr edən yaramın alovu, közü,
Coşan ürəyimin qanı Atadır.

Nəsiboğlu tamarzıdır adına,
Sızıldayar, tez-tez salar yadına,
Kaş gələydin, baxaydın övladına,
Ömür tariximin şanı Atadır.
Həyat timsalımın anı Atadır.

***Daşkənd şəhəri***
***05.05.1984-cü il.***



# YARIMI İSTƏRƏM

Ürəyi mənimlə qalan
Yalnız yarımı istərəm.
Dərdi-qəmi tamam alan
Düz ilqarımı istərəm.

Dar günümdə dada yetən,
Çətinlikdə bada yetən,
Xatirəmdə yada yetən
Tər-gülzarımı istərəm.

Qismətimdə haya çatan,
Kədəri sevincə qatan,
Uğurumda oda atan
Haraylarımı istərəm.

Bu qəlbimi qanıb bilən,
İntizarı qovub silən,
Mənsiz məni anıb dilən
Həyat-varımı istərəm.

Birgəlikdə səadəti,
Allahıma ibadəti,
Bucağımda xoş adəti,
Vəfadarımı istərəm.

Darıxanda könlü soran,
İztirabı vurub yoran,
Əlin verib yardım duran
Etibarımı istərəm.

İsrail bağlıdır ona,
Canın qoyar bu insana,
Getmərəm tək heç bir yana,
Bəxtiyarımı istərəm.
Düz ilqarımı istərəm.

***Bakı şəhəri***
***13.02.2010-cu il.***

# NƏ ÜÇÜNDÜR?

Əhli-səlib çirmələnib qarşımda,
Durubsan, bilirəm, ar nə üçündür?
Yaxına gəl, kənar qalma arşımda,
Nə olar sevəndə, yar nə üçündür?

Siftəsini duyum tamam eşqində,
Sorum əhvalını salıb kəməndə,
Hələ görməmişəm sən təki bəndə,
Sinəndəki qoşa nar nə üçündür?

Bülbüləm, enmişəm çiçəyə sarı,
Yaratma ortada bu intizarı,
Döşərəm önünə əlvan gülzarı,
Tanrının verdiyi var nə üçündür?

Yerişin, gülüşün qəlbimi açır,
Günəş tək görünüş gözümə saçır,
Bütün yorğunluğum özümdən qaçır,
Belə xoş əhvalda zar nə üçündür?

İsrailəm, qulluğunda duraram,
Məhəbbətdə çox gəzdirib yoraram,
Sənə görə min büsatlar quraram,
Eyləmə başıma xar, nə üçündür?
Nə olar sevəndə, yar nə üçündür?

***Sankt-Peterburq***
***30.03.1998-ci il.***



# GÖZÜMƏ DƏYDİ

Təbəssüm üzündə, ağızda-dildə,
Mehriban gözləri gözümə dəydi.
Sarı parlaq kəmər asılıb beldə,
Yerişdə qadası özümə dəydi.

Məmnunluq yarandı əqli-halımda,
Şənləndi idrakım xoş əhvalımda,
Eşqim tüğyan etdi sər-kamalımda,
İti baxışları üzümə dəydi.

Kəlmələr atmışdım gözəlliyinə,
Sevgi aləmimdə əzəlliyinə,
Qoşması üstündə, qəzəlliyinə,
Tənəli, təkidi sözümə dəydi.

Bədəni bəm atır boya-buxuna,
Salaydı məhəbbət kaman-oxuna,
Nə olar, cəhd edəm - əlim toxuna!
Gedişdə addımı dizimə dəydi.

Nəsiboğlu yığdı xəyal dastanı,
İtirib qərarı, itirib anı,
Külə dönüb onsuz ömrün bostanı.
Surətdə cizgisi közümə dəydi.
Mehriban gözləri gözümə dəydi.

***Daşkənd şəhəri***
***31.03.2001-ci il.***



# ƏZİZ ANAM, SƏNDƏN ÖTRÜ

***"Bu şeirimi sevimli, nakam Anamın ruhuna ithaf edirəm! On bir il ölümündən sonra. Allah rəhmət eləsin! Ruhu qoy həmişə nurla dolu olsun"!***

Göz dikəlib düz boylanır,
Əziz Anam, səndən ötrü.
Xatirələr didib-yanır,
Əziz Anam, səndən ötrü.

İçim-içim ağlayıram,
Ürəyimi dağlayıram,
Coşan sel tək çağlayıram,
Əziz Anam, səndən ötrü.

Qapılmışam aman-aha,
Vurnuxuram hər cinaha,
Göynəyirəm hədsiz daha,
Əziz Anam, səndən ötrü.

Nəvazişə ehtiyac var,
Laylay çalıb, sevinc qopar,
Baş qaldırır hey intizar,
Əziz Anam, səndən ötrü.

Dünya mənə daralıbdır,
Ruhum, rəngim saralıbdır,
İstək, həvəs qaralıbdır,
Əziz Anam, səndən ötrü.

Ana deyib doyammıram,
Nəfəsini duyammıram,
Darıxmışam, uyammıram,
Əziz Anam, səndən ötrü.

Döyünürəm, ciyər-param,
Küskün ömrüm olub haram,
İsrailəm, sızlar yaram,
Əziz Anam, səndən ötrü.
Əziz Anam, səndən ötrü.

***Daşkənd şəhəri***
***19.03.1989-cu il.***



# TOXUNDU

Ay bimürvət, niyə baxdın belə sən?
Kirpiyin sinəmdə yara toxundu.
Nalələr qoparan, inilti edən,
Sazıma toxundu, tara toxundu.

Həsrətindən başım çəkir, bil, nələr,
Bir deyib-gülsənə atıb kəlmələr,
Çəməndə titrədi o al lalələr,
Qönçəsi, ləçəyi xara toxundu.

Bilmirəm nə edim? Özüm bilmirəm,
Danışıb-dinmirəm, deyib-gülmürəm,
Kədəri özümdən atıb-silmirəm,
Kefim yoxa çıxdı, zara toxundu.

Asimanım qaralıbdır, daş yağır,
Həyan eylə, bu eşqimi bir çağır,
Boran qopar, tufan eylə, sən bağır,
Qığılcımın düz ilqara toxundu.

Nəsiboğlu yaman yanır dərindən,
Huşu itib, ağlı gedib sərindən,
Güman eylə, məlhəm alım dilindən,
Sənsiz ömrüm zəhrimara toxundu.
Qığılcımın düz ilqara toxundu.

***Sankt-Peterburq***
***27.01.2006-cı il.***



# BAXMAYIN

Ey insanlar, insanlar,
Bir sel təki axmayın.
Eh yalanlar, yalanlar,
Şimşək olub çaxmayın.

Riyakarlı üzləri,
Məntiqsiz boş sözləri,
Hey dalayan bizləri,
Ortalığa soxmayın.

Fitnə-feli qoparıb,
Dedi-qodu aparıb,
Günahları qabarıb,
Başqasına yaxmayın.

Paxıllıqdan çox dolub,
Mərdin saçını yolub,
Kaman olub, ox olub,
Kürəyinə taxmayın.

İsrailə söz qoyun,
Bu dünyaya iz qoyun,
İşinizə göz qoyun,
Elə-belə baxmayın.
Ortalığa soxmayın.

***Sankt-Peterburq***
***30.01.1996-cı il.***



# QARDAŞ

***"Bu şeirimi istəkli, mehriban, düşüncəli, qeyrətli və qayğıkeş qardaşlara həsr edirəm. Təəssüflər olsun ki..."!***

Nəfəsim, imdadım, canım, ciyərim,
Bağrımda coşan  qan, qardaşdı - qardaş!
Sinəmdə döyünən bu pak ürəyim,
Canıma can qatan, qardaşdı - qardaş!

Ümidsiz anımda köməyə gələn,
Qopan iztirabı anlayan, bilən,
Axar göz yaşımı əliylə silən,
Hədsiz böyük imkan, qardaşdı - qardaş!

Səsimə səs verən, dizimə taqət,
Xəyal aləmində yüksələn adət,
Ömür yolundakı xoşbəxt, səadət,
Görünən o insan, qardaşdı - qardaş!

Cümləmin ilk sözü, könül yoldaşı,
Yüksələn zirvəmin qayası, daşı,
Sevda üzüyümün parlayan qaşı,
Həmişə, hər zaman, qardaşdı - qardaş!

İsrailəm, düşmüşəm çox fərağa,
Güman etməz bir kimsəyə, qırağa,
Dəyişmərəm min məşələ, çırağa,
Yolumda hey yanan, qardaşdı - qardaş!
Canıma can qatan, qardaşdı - qardaş!

***Daşkənd şəhəri***
***23.05.1984-cü il.***



# ONDAN ÖTƏRİ

Xəbər verin o gözələ: -
Gəlirəm ondan ötəri.
Gizli axan göz yaşımı
Silirəm ondan ötəri.

Duyuram qəm-kədərləri,
Puça enən hədərləri,
Dərdə düşən qədərləri,
Bilirəm ondan ötəri.

Yığmasın boğazı cana,
Tənhalıqda yoxdur məna,
Surətini yana-yana
Dilirəm ondan ötəri.

İntizarı cilovlayan,
Şikəst qəlbi hey ovlayan,
Mən, İsraili, tovlayan,
Ölürəm ondan ötəri.
Ölürəm ondan ötəri.

***Bakı şəhəri***
***09.04.2007-ci il.***



# DAĞLAR

Bütöv ağ örpəyi salıbdır başa,
Nə gözəl yaraşır buxağın, dağlar.
Edirəm həvəslə baxıb tamaşa,
Əfsanə yaradır sorağın, dağlar.

Əzəmət, dəyanət zirvəndə durur,
İgidlər qıy salır, min büsat qurur,
Duyuram, gözümdə canlanır qürur,
Sevdirir aləmi xoş çağın, dağlar.

Gülzara dönübdür yanda dərələr,
Görünür döşündə elat, bərələr,
Mələşir qoynunda qoyun-kərələr,
Gecələr alışır çırağın, dağlar.

Çığırlar damar tək keçir sinəndən,
Yayda qar yığıram qaşından dən-dən,
Doyammır ciyərim belə nəfəsdən,
Əksilmir nəzərdən marağın, dağlar.

Çiçəklər bəzəyir güllü şalını,
Lalələr, nərgizlər salıb xalını,
Gülümsər görürəm tər-camalını,
Qızarıb üzündə yanağın, dağlar.

Yoxalır əhvalda ömrün əbəsi,
Artır qəlbimdəki istək-həvəsi,
Ətəkdən hey gəlir zümzümə səsi,
Göynədir dişimi bulağın, dağlar.

Çobanın nərəsi sədalar salır,
Qartal qanad açıb, göyə ucalır,
Cavanlar yığışıb divani çalır,
Kəsilmir heç zaman yığnağın, dağlar.

O əmlik quzunu dikdən endirin!
Kababı tez çəkin, sazı dindirin!
Süfrənin üstündə balın, pendirin,
Ləzzətdən yayınmır qaymağın, dağlar.

Təsbehi əlində babalar gördüm,
Ağbirçək nənələr, obalar gördüm,
Alovu kükrəyən sobalar gördüm,
Coşub, tam şənlənir oymağın, dağlar.

Hər kəsə hörmətlə qulluq edirsən,
Danmırsan, varınla bolluq edirsən,
Yolçuya yol verib, yolluq edirsən,
Dastandan tükənmir varağın, dağlar.

İsrailəm, sənə mehman gəlmişəm,
Kədəri, qəmləri burda silmişəm,
Özümü - özünə sirdaş dilmişəm,
Qurtarmaq bilməyir qonağın, dağlar.
Əfsanə yaradır sorağın, dağlar.

***Daşkəsən rayonu***
***29.07.1991-ci il.***



# PALAN OLMASIN

Ay eloğlu, bir məclisə varanda,
Çalış ki, sözlərin yalan olmasın.
Tay-tuşunla oturanda, duranda,
Avam hərəkətin kalan olmasın.

Qəh-qəh vurmasınlar dediyin tona,
Kəlməndə fırladıb biçdiyin dona,
Saf eylə cümləni, qoy xana-xana,
Sonra çətin hala salan olmasın.

Yersiz davranışı yığışdır başdan,
Ağıl çox yaranmır mənasız yaşdan,
Zirvələr ucalmır qiymətsiz daşdan,
Elə et, mənliyin talan olmasın.

Ömür yollarını seç özün, qardaş,
Zilləti, zülümü keç özün, qardaş,
Tikanlı kol-kosu biç özün, qardaş,
Əqlini əlindən alan olmasın.

Nəsiboğlu bir kimsəyə inanmaz,
Daha imkan verib alovda yanmaz,
Ata cilovu ver, eşşəkdir qanmaz,
Yəhərin yerinə palan olmasın.
Avam hərəkətin kalan olmasın.

***Bakı şəhəri***
***09.09.2001-ci il.***



# TALEYİMƏ

Hüsnü kəlam qəm içində,
Tufan qopur taleyimə.
Haqlamayan, kəm içində,
Lərzə hopur taleyimə.

Kinayələr hücum çəkir,
Biganələr tikan əkir,
Yoxdur qismət, yoxdur bəkir,
Düşüb çopur taleyimə.

Hey yarıram yoxuşları,
Həşir salan çıxışları,
Qibtə edən baxışları,
Hədyan yapır taleyimə.

Həssaslıqdan təngdə qalan,
Ziddiyyətdən çəngdə qalan,
Dərddən solmuş rəngdə qalan,
Kədər qapır taleyimə.

Uğur yolum heçə enib,
Qəm üstümə yaman dinib,
Səadətmi qəsdən sinib?
Hicran tapır taleyimə.

İsrailə var-gəl edən,
Əhval ağır dar-gəl edən,
Yollarımda zar-gəl edən,
Köhlən çapır taleyimə.
Tufan qopur taleyimə.

***Daşkənd şəhəri***
***27.02.1999-cu il.***



# BU NADAN

Əqidəsi yoxdur, ağılı da kəm,
Görmür qarşısında tiri bu nadan.
Meymun tək oynayır, qarışır aləm,
Yolunda görməyir şiri bu nadan.

Əməli saxtadır, töhfəsi cırıq,
Kölgəsi görünmür, sütunu qırıq,
Axirətə çatsa - işləri fırıq,
Yaşamır həyatda diri bu nadan.

Varı çox olsa da, qiyməti yoxdur,
Kiminsə yanında hörməti yoxdur,
Dostluğa etibar, izzəti yoxdur,
Qanmayır ikidən-biri bu nadan.

Bilmir ki, ömürdən keçir bu günlər,
Fələk işin görür, seçir bu günlər,
Qibleyi aləmdən köçür bu günlər,
Müqəddəs sanmayır piri bu nadan.

İsrail çox görüb belə naşını,
Gətirmək istəmir dilə naşını,
Verərdim xırmanda yelə naşını,
Xəlbirdən tökülür iri bu nadan.
Yaşamır həyatda diri bu nadan.

***Sankt-Peterburq***
***30.12.2005-ci il.***



# ÇOX GÖZLƏDİM

Söz verdin and-əhdimizə,
Nə gizlədim? Heç gəlmədin.
Getdim tanış küçəmizə,
Hey izlədim, heç gəlmədin.

Hədiyyəni qamarladım,
Çiçəkləri tumarladım,
O əksini xumarladım,
Əzizlədim, heç gəlmədin.

İsrailəm, yox gümanım,
Sənsiz qopur ah-amanım,
Sızıldayır hər zamanım,
Çox gözlədim, heç gəlmədin.
Nə gizlədim? Heç gəlmədin.

***Daşkənd şəhəri***
***30.06.1988-ci il.***





# BİR VƏFASIZ

Şux - tərifli işvəkarı yoxladım,
Umduğum o sözlər mənə boş gəldi.
İncə, al qönçəli lalə yerinə,
Bəxtsiz yığvalıma quru daş gəldi.

Çox sarsıldı, yanıq könül usandı,
İnildədi, alovlandı, tam yandı,
Gözlərimə qara bulud calandı,
Qurumayan damla-damla yaş gəldi.

Çırpındı vüsalım, sızladı anım,
Zülmətli dünyaya düşdü zamanım,
Dilləndi qəflətən ahım, amanım,
Qismətimə qar - çovğunlu qış gəldi.

Bircə həftə ən dəhşətli il oldu,
Küskün eşqim coşub-daşan sel oldu,
Sinə dəftər viran qalmış çöl oldu,
Bəlalı başıma dən-dən saç gəldi.

İsrailəm, asimanım qaraldı,
Bəslədiyim gül-çiçəyim saraldı,
Qürbət yollar hey qarşımda daraldı,
Taleyimə bir vəfasız tuş gəldi.
Bəlalı başıma dən-dən saç gəldi.

***Daşkənd şəhəri***
***14.06.1989-cu il.***



# ALLANAN GÖZƏL

Danışıb-dinməsən, korlanar cismim,
Gəl, mənim könlümdə hallanan gözəl.
Titrətmə kölgədə, çaşıbdır ismim,
Vüsətli imkanda sallanan gözəl.

Gərginlik keçirir damarda qanım,
Üzülür, dartınır canımda canım,
Daralır, sıxılır fəzanda anım,
Eşqin xülyasından tullanan gözəl.

Bülbül fəğan edir, bahar olmasa,
Taqət qiyam səpər, nahar olmasa,
Rişxənd tufan təpər, ah-ar olmasa,
Gülzar ətrafında xallanan gözəl.

Qəribsə, bir darıx, kənarına bax,
Davranış tərzindən atəşləri yax,
Od təki şölə saç, şimşək təki çax,
İntizar dalınca yollanan gözəl.

Nəsiboğlu haraydadır, vay salır,
Asimanı dərd əlindən qaralır,
Rəngi solur, zaya düşür, saralır,
Sevgi nüsxəsində allanan gözəl.
Gəl, mənim könlümdə hallanan gözəl.

***Daşkənd şəhəri***
***08.05.1986-cı il.***



# TUFAN QOPUR

Tutqunlaşıb asimanım,
Yollarımda tufan qopur.
Qeyzə gəlir bədbin anım,
Öz fəzamdan aman qopur.

Düz səmtinə enəmmirəm,
Bir kimsə yox, dinəmmirəm,
Daldeyidə sinəmmirəm,
Həndəvərdən yaman qopur.

Təlaşdadır baxan gözüm,
Göz yaşları axan gözüm,
Hiddətləri yaxan gözüm,
Vücudumdan duman qopur.

Lərzə gəlir uca zirvəm,
Gədiklərdən gileyliyəm,
Arzu ötkəm, qismətim kəm,
Tamarzıdan həyan qopur.

Nalə çəkib, ürək yanır,
Tökülən qan hey yubanır,
Damarları tamam danır,
Bədənimdən tüğyan qopur.

Sızıldayır istək birdən,
Ağrı artır idrak, sərdən,
Yersiz, küt, boş kəlmələrdən,
İmtiyazdan hədyan qopur.

Təntiyərək dayanmışam,
Acı hisdən oyanmışam,
Qaranlıqdan boyanmışam,
İnadımdan güman qopur.

İsrailəm, sükandayam,
Həm o tayda, bu taydayam,
Burulğanlı coşqun çayam,
Axarımdanümman qopur.
Yollarımda tufan qopur.

***Bakı şəhəri***
***24.10.2010-cu il.***



# A DOSTLAR

***"Bu şeirimlə Bakıda 8-ci kilometrdə yerləşən, 5№-li kimya-biologiya təmayüllü məktəbində 9-cu sinfi bitirərkən və bizdən yuxarı 10-cu sinfin buraxılışı münasibəti ilə, məktəb direktoru rəhmətlik Qədir müəllimin müraciəti əsasında çıxış etmişəm. Allah Qədir müəllimə rəhmət eləsin, ruhu qoy nurla dolu olsun"!***

Artıq yekun vuraq biz də bu ilə,
İmtahanı verək əla, a dostlar!
Ruhən ilhamlanaq birgə sizinlə,
Qalmayaq cərgədən dala, a dostlar!

Mehriban dolanaq dost, qardaş kimi,
Kamil adam olaq bir sirdaş kimi,
Bu gündən sayıldıq vətəndaş kimi,
Gərək olaq el-mahala, a dostlar!

Qoy tərəqqi etsin Vətən, Kosmos, biz,
Hər vaxt təmiz olsun idrak-qəlbimiz,
Sevinsin anamız, məmləkətimiz,
Qurduğumuz cah-cəlala, a dostlar!

Ərşə qalxsın elin alqışlı səsi,
Sizə qüvvət versin xalqın nəfəsi,
İsrail, alqışla bütün hər kəsi,
Şənlik edək xoş minvalla, a dostlar.
İmtahanı verək əla, a dostlar!

***Bakı şəhəri***
***25.05.1975-ci il.***



# FİDAN

Baxışınla süzüb yaman,
Saldın bədbin hala, Fidan.
Dərd bürüyüb, oldun aman,
Qoydun qeyli-qala, Fidan.

Önündəyəm, gülüş əylə,
Bu qəlbimi tutub teylə,
Azca belə danış - söylə,
Atma eşqdə dala, Fidan.

Qamətin şux, ceyran sayaq,
Huşum itib, gəl, dur dayaq,
Burun nazik, incə ayaq,
Doladın zavala, Fidan.

Gözündən atəş tökülür,
Ürəyim başdan sökülür,
Yox desən, qəlbim bükülür,
Yaranan əhvala, Fidan.

Çox da uyma fitnə-felə,
Mürvət varmı, ələ gələ?
Qonaq eylə İsrailə
Dodağında bala, Fidan.
Saldın bədbin hala, Fidan.

***Gəncə şəhəri***
***27.05.1994-cü il***



# MƏNİM HƏYATIM

Eh mənim həyatım, mənim zamanım,
Niyə gözlərini silmiş göründün?
Büsbütün ömrümdən keçən amanım,
Ən acı qəmləri bilmiş göründün.

Bəxtim hey apardı tufana sarı,
Qəliz bir əhvala, dumana sarı,
Zəlzələ qoparan yamana sarı,
Nemətsiz payıma gəlmiş göründün.

Çiynimə tez atdın ağır yükləri,
Yaşarmış gözləri, boş ətəkləri,
Taleyə şeşi yox, verdin yekləri,
Yığvalın gözünü dəlmiş göründün.

Özümü vaxtında danlamadım heç,
Saxta-yalanları anlamadım heç,
Paxıllıq sözünü yanlamadım heç,
Allahdan qisməti bölmüş göründün.

Aldandım, mərd olub, dediyim sözə,
Namərdə ilişdim, riyakar üzə,
Bir adam tapılmır bu dərdə dözə,
Tutduğum əmələ gülmüş göründün.

Çətindir anlasın hər naşı məni,
Düşüncəsi zəif, küt başı məni,
Tutubdur əfəllə yanaşı məni,
Fikirdən ah edib dilmiş göründün.

İsrail əbəslə deyir dərdini,
Duymadım o xoşbəxt ömür ilini,
Yönüm qiblədədir, unutma dini,
Ay könül, həvəsdə ölmüş göründün.
Niyə gözlərini silmiş göründün?

***Sankt-Peterburq***
***03.01.2006-cı il.***

# PAYIZ GƏLİB

Payız gəlib, yağış yağır,
Xəzanların özü çöldə.
Ürəklərin dərdi ağır,
Bütün söhbət-sözü çöldə.

Qaralıbdır, boşdur torpaq,
Tökülübdür yaşıl yarpaq,
Ağacların özü çılpaq,
Budaqları, dizi çöldə.

Durna qatar düzüb gedir,
Göyərçinlər dövran edir,
Quşlar uçur göydə bir-bir,
Yem axtarır gözü çöldə.

Hər bir fəslin öz yeri var,
Hücum edir çovğunlar, qar,
Şimaldan gəlib şaxtalar,
Fırlanırlar, düzü, çöldə.

İsrailəm, qocalıram,
Payızdan qışa qalıram,
Xəyallara hey dalıram,
Həsrətimin izi çöldə.
Xəzanların özü çöldə.

***Sankt-Peterburq***
***29.10.2005-ci il.***



# YETİŞMİR

Zaman öz işini görür sərasər,
Kasıb zillət çəkir, varı yetişmir.
Çaqqal cumur tülkü ilə bərabər,
Şirin hənirtisi, karı yetişmir.

Ömür təngə gəlir cavan yaşında,
Dəhşətlər dolanır dərgah qaşında,
Tufanlar fırlanır zirvə başında,
Quzeydə yığılan qarı yetişmir.

Yaltaqlar ədəbdən önə qaçırlar,
Kafirlər aldadıb dinə qaçırlar,
Keçilər sürüsüz dənə qaçırlar,
Zəmilər korlanır, darı yetişmir.

Görünmür millətin dərddə əlacı,
Kədərdən qıcqırıb tarixin bacı,
Bağbansız qalıbdır bağın ağacı,
Budaqda meyvəsi, barı yetişmir.

Bahar öz yazına uyğun gəlməyir,
Dərdin cəsarəti üzə gülməyir,
Milyonçu ibrəti qanıb-bilməyir,
Ağlayan gözlərin zarı yetişmir.

Fəlsəfə calaşmır qərinələrdə,
Ağız tamı duymur qabar dillərdə,
Tullanır məqamlar vaxtsız əllərdə,
Ürəklər kif atır, xarı yetişmir.

Nəsiboğlu qəm odunda qalanır,
Vicdan kəraməti dibdən talanır,
Vəzifələr rüşvətlərlə yalanır,
Ədalət qeyrəti, arı yetişmir.
Ağlayan gözlərin zarı yetişmir.

***Bakı şəhəri***
***09.01.2007-ci il.***

# AH DƏRBƏNDDƏ

Dədə Qorqud gileylidir,
Üzülübdür, ah Dərbənddə.
Azərbaycan müleylidir,
Büzülübdür, ah Dərbənddə.

Nər igidlər çəkir dərdi,
Hey çözürlər fikir-dərdi,
Bir-birinə tökür dərdi,
Süzülübdür, ah Dərbənddə.

Hər gərdişə göz yumuruq,
Ağzımızla söz yumuruq,
Əlimizlə üz yumuruq,
Nazilibdir, ah Dərbənddə.

Qədim millət, qədim qala
Necə dözsün belə hala?
Ümid qalıb Rüstəm-Zala,
Əzilibdir, ah Dərbənddə.

İsrailəm, amandayıq,
Yurd paylanıb, yamandayıq,
Cəm olmaqçün zamandayıq,
Düzülübdür, ah Dərbənddə.
Üzülübdür, ah Dərbənddə.

***Dərbənd şəhəri***
***22.09.2012-ci il.***



# AY HAKİM

***"Bu şeirimi vicdansız, rüşvətxor, səriştəsiz və məsuliyyətsiz hakimlərə həvalə edirəm! Tanrı bizi onlardan qorusun"!***

Ədalətsiz işlər görüb nahaqdan,
Qanunları taptalama, ay hakim!
Rüşvət alıb, baxma mənə uzaqdan,
Vətəndaşı çox talama, ay hakim!

Məhkəməni çeviribsən şahmata,
Əməlinlə vəkil qalıbdır mata,
Piyadanı çox da vurma xam ata,
Ortalıqda çabalama, ay hakim!

Mən cərraham, savadım var, adım var,
Ağılım var, düşüncəm var, yadım var,
Bir Allahdan, bir səndən imdadım var,
Böhtan atıb çox dolama, ay hakim!

Dövlət sənə arxa tutub, bilirsən,
Qətnaməni pula satıb, silirsən,
İmkansıza damğa vurub, gülürsən,
Üzün tutub, baş bulama, ay hakim!

İsrailin tənqidinə qalma sən,
İlan kimi hey qıvrılıb çalma sən,
İşlərimi əngəllərə salma sən,
Ürəyimdə od qalama, ay hakim!
Qanunları taptalama, ay hakim!

***Bakı şəhəri***
***25.08.2002-ci il.***



# AY GƏLƏN QIZ!

Al yamacı gəzə-gəzə,
Bəhərləndin, ay gələn qız!
Çiçəkləri üzə-üzə,
Təhərləndin, ay gələn qız!

Bu könlümün avazısan,
Soruşsam kimin qızısan?
Hürü-pəri naznazısan,
Qəhərləndin, ay gələn qız!

Baxışların ceyran sayaq,
Yavaş yeri, saxla ayaq,
Əqil-səri aldın bayaq,
Sehirləndin, ay gələn qız!

Ədavətə lap qənimsən,
Həm xoş anım, həm şənimsən,
İsrailəm, sən mənimsən,
Möhürləndin, ay gələn qız.
Sehirləndin, ay gələn qız!

***Bakı şəhəri***
***29.06.2010-cu il.***



# CÜMHURİYYƏT MƏMMƏD ƏMİNDƏ

Türkiyə, Ankara, Əsri məzarlıq,
Küsdü məcburiyyət Məmməd Əmində.
İyirmi səkkiz may çaşdı bir anlıq,
Dirəndi əziyyət Məmməd Əmində.

İlk demokrat ölkə şərqdə quruldu,
Qələbə şövq verib dibdən duruldu,
Üç rəngli bayrağım uca vuruldu,
Qalxdı qalibiyyət Məmməd Əmində.

Yox oldu duyğudan ah-zəlalətim,
Öz inam yolunu seçdi millətim,
Qurtardı nəhayət acı-zillətim,
Artdı məmnuniyyət Məmməd Əmində.

Təpidi gərginlik, oldu müstəqil,
Açıldı məşvərət, işləndi əqil,
Çarpışdı təsəvvür, keçmişlərdən il,
Əsl müvəffəqiyyət Məmməd Əmində.

Parladı səmadan parlaq ulduz, ay,
Xoşbəxtlik baş verdi, zamanından say,
Hədsiz bulunmadı bunun qədər tay,
Yüksək bir keyfiyyət Məmməd Əmində.

Polad tək möhkəmdir, haqq əyilmədi,
Cəsarət, ləyaqət yanıb-dilmədi,
İftixar hissini kənar bilmədi,
Bütün mərkəziyyət Məmməd Əmində.

Azəri xalqımın ölməz öndəri,
Sarsılmaz dövlətin nər sərkərdəri,
Sınmaz dəyanəti, yenilməz səri,
Var istiqlaliyyət Məmməd Əmində.

Min doqquz yüz on səkkizinci ildə,
Azadlıq kəlməsi ağızda, dildə,
İyirmi üç aydan, bolşevik - əldə,
Boğulan hürriyyət Məmməd Əmində.

Əzimlə yaranan dağıldı dərhal,
Məyusluq bürüdü, qalmadı xoş hal,
Dözümsüz göründü dəhşətli əhval,
Enməz bəşəriyyət Məmməd Əmində.

Günəş şəfəqini gizlətdi öndən,
Xəyanət güc aldı inamsız dindən,
Qalandı, talandı uğur yerindən,
Düşdü zəruriyyət Məmməd Əmində.

Yumruqlar ilişdi sərt ovurdlara,
Diləklər atıldı kənar yurdlara,
Vətən qismət oldu yağı qurdlara,
Qovulan müdiriyyət Məmməd Əmində.

Yüzillik təlatüm həsrətlə baxdı,
Alışan arzular qürbətdə çaxdı,
İstəklər kövrəldi, bəbəkdən axdı,
Susdu mənəviyyət Məmməd Əmində.

Əqidə təntidi təşvişlərində,
Dünyanın dəhşətli gərdişlərində,
Bağlanan düyünün bəd işlərində,
Durdu məsuliyyət Məmməd Əmində.

Təkliflər inamı çapıb-yorubdu,
İnciklik sıçradı, qəflətən qopdu,
Acizlik usanıb üstümə hopdu,
Dindi əksəriyyət Məmməd Əmində.

İnilti qısqanıb əzələ getdi,
Sorğular, suallar nitqimdən itdi,
İntizar süzülüb tamaşa etdi,
Yarandı ünsiyyət Məmməd Əmində.

Hayqıran naləsi tarixdən çıxıb,
Kəramət azaldı qəsdən karıxıb,
Təqsiri yığcamla özünə yıxıb,
Doldu məşğuliyyət Məmməd Əmində.

Görüşün qəhəri boğazda qaldı,
Töhfələr qapanıb xəyala daldı,
Titrəyən kəlamı pıçıltı saldı,
Bizlərə nəsiyyət Məmməd Əmində.

Basılmaz sədləri durmadan keçən,
Qəmləri, kədəri qəlbindən içən,
Azərbaycan deyib dünyadan köçən,
Qorxmaz mənsubiyyət Məmməd Əmində.

Martın altısında önündə durdum,
Xiffətlər içində niyyətlər qurdum,
Danladım vücudu, hikkələr yordum,
Coşdu hakimiyyət Məmməd Əmində.

Qətiyyət enmədi onun gözündən,
Nurlar nur saçırdı qəmgin gözündən,
Çəkilmədi zəfər söhbət-sözündən,
Dürüst qabiliyyət Məmməd Əmində.

Düşmən ürəyinə lərzə salacaq,
Püskürüb qəflətən canın alacaq,
Silinməz izləri daim qalacaq,
Dönməz mütləqiyyət Məmməd Əmində.

Təzahür fikirdə yüksək ucaldı,
Şərəfin qisminə yetən macaldı,
Amal, idrakıyla yalnız qocaldı
Tarixi şəxsiyyət Məmməd Əmində.

Qərinə yubatdı andı, amanı,
Xain hayeslərdən qopan yamanı,
Tovladı, fırlatdı ötən zamanı,
Söylənən vəsiyyət Məmməd Əmində.

Təşəbbüs yöndəmsiz girdi ortaya,
Təşəkkür qısqanıb yetmədi haya,
Təəccüb duruxub çatdı haraya,
Şanlı əbədiyyət Məmməd Əmində.

Nəsiboğlu səcd eylədi büstünə,
Alovlandı odlar çatan tüstünə,
Səkkiz lalə qoydu qəbrin üstünə,
Ölməz cümhuriyyət Məmməd Əmində.
Şanlı əbədiyyət Məmməd Əmində.



***Türkiyə, Ankara şəhəri***
***06.03.2013-cü il.***



# OVLAMA

Ay ovçu, ovlama ana kəkliyi,
Onun balasının gözü yoldadır.
O, çıxmış səmalar seyrinə ancaq
Ömür karvanında özü yoldadır.

Görmürsən, səmalar balasıdır o,
Həyat timsalında qalasıdır o,
Silinməz bir izlər salasıdır o,
Onsuz da hardasa izi yoldadır.

Balası daimi giryan olacaq,
Eşqisi, əməli tezcə solacaq,
Səmalar kəkliksiz yetim qalacaq,
Bəlkə də səmaya sözü yoldadır.

Əlləri xınalı toya gedirmiş,
Qayalar hayına-haya gedirmiş,
Vurma, gözəl bir xülyaya gedirmiş,
Ömür zolağında yazı yoldadır.

İsrailəm, qəmli hala qəm dedim,
Bəlkə bu naşıya nahaqq kəm dedim,
Vurma dedim, biz olaq həmdəm dedim,
Hardasa yanıqlı sazı, yoldadır.
Onun balasının gözü yoldadır.

***Daşkənd şəhəri***
***05.07.1979-cu il.***



# ÜRƏYİMİN DÜZ BAŞINDA

Şahmar qaşın göz oynadır,
Ürəyimin düz başında.
Könül alıb söz oynadır,
Ürəyimin düz başında.

Hürü, pəri, mələk cismin,
Ətirli gül-çiçək qismin,
Hey hallanır yoran ismin,
Ürəyimin düz başında.

Ay camalın şölə saçır,
Mətanəti öndən açır,
Kinayələr durub qaçır,
Ürəyimin düz başında.

Saçlarında qara həna,
İşvələrdə durub təna,
Baxışlardan gəzir məna,
Ürəyimin düz başında.

İsrail dilbər düşkünü,
Bəxş eyləmə qara günü,
Qurubsan ah-vay, küyünü,
Ürəyimin düz başında.
Ürəyimin düz başında.

***Bakı şəhəri***
***16.02.2011-ci il.***



# ALLAH MƏNİ NİYƏ BELƏ YARADIB?

Hər zillətə, hər zülümə qalıram,
Allah məni niyə belə yaradıb?
Hər fikirə, hər xəyala dalıram,
Allah məni niyə belə yaradıb?

Hər kədərdə, hər bir qəmdə payım var,
Göz yaşımdan bulağım var, çayım var,
Qaşqabaqlı ulduzum var, ayım var,
Allah məni niyə belə yaradıb?

Sübhüm tutqun, dağlarımsa viranlı,
Həyat yolum dar, çiskinli, boranlı,
Günəşim var ön qabağı toranlı,
Allah məni niyə belə yaradıb?

Tar-kamanım iniltili səs salar,
Məhəbbətim hicranlıqda hey solar,
Hər vəfasız bu qəlbimdə od qalar,
Allah məni niyə belə yaradıb?

Yanıq Kərəm laylasında yataram,
Bütün gecə yuxuları qataram,
Hər bir dəmi öz qarşımdan ataram,
Allah məni niyə belə yaradıb?

Qismətimdən, taleyimdən narazı,
Ömür zolağında görmədim yazı,
Sızlayır qəlbimin yanıqlı sazı,
Allah məni niyə belə yaradıb?

İsrail düşünür əlində qələm,
Sıxıntı içində çırpınır aləm,
Tarix vərəqlənir, hey görürəm qəm,
Allah məni niyə belə yaradıb?
Allah məni niyə belə yaradıb?

***Daşkənd şəhəri***
***05.02.1987-ci il.***

# İNANMA!

Hər deyilən sözlərə
Məhəl qoyub, inanma!
Cazibədar gözlərə
Dərhal uyub, inanma!

And-amanı içənə,
Əzizindən keçənə,
Yalan mətləb seçənə
Qəti duyub, inanma!

Yaxın getmə iblisə,
Naxələfə, nakəsə,
Doğruda kənar kəsə,
Düzü əyib, inanma!

Ehtimadı yoxla sən,
Kişi çıxmaz gədədən,
Dəyəri ölç tənbətən,
Etmə eyib, inanma!

İsrailəm, bədləri,
Sığal çəkən hədləri,
Aldanıb boş vədləri
Gec arayıb, inanma!
Məhəl qoyub, inanma!

***Bakı şəhəri***
***11.01.2012-ci il.***



# QONŞU QIZ

Boy-buxunun çox yaraşır üzünə,
Nə incədir bu əllərin, qonşu qız?
Sürmə yaxıb qaşlarına, gözünə,
Burulubdur tər tellərin, qonşu qız.

Göz çəkmirəm ətirli məhlənizdən,
Şad xəbər umuram bir yalnız sizdən,
Bağçanızda seçilmirsən nərgizdən,
Sirdaşısan al güllərin, qonşu qız.

Ürəyimi hey qoparıb əzirsən,
Sevgililər anında çox gəzirsən,
Səadətin içində tam üzürsən,
Uğur versin ay-illərin, qonşu qız.

İsraili bir yada sal gecələr,
Qizlicə gəl, yanımda qal gecələr,
Könülümü yaxşıca al gecələr,
Qoy danışsın xoş dillərin, qonşu qız.
Uğur versin ay-illərin, qonşu qız.

***Daşkənd şəhəri***
***30.11.1999-cu il.***



# GÜLÜR VƏTƏN

Yaşıllaşıb bütün hər yan,
Gülür Vətən, gülür Vətən.
Şadlanır el-oba, cahan,
Gülür Vətən, gülür Vətən.

Al-əlvandır hər təpə, dağ,
Şən görünür mahal, oymaq,
Çirvələnib tamam budaq,
Gülür Vətən, gülür Vətən.

Bulaqların sağı, solu,
Yapyanı yarpızla dolu,
Çiçək açıb moruq kolu,
Gülür Vətən, gülür Vətən.

Quşlar uçur qatar-qatar,
Hey səslənir saz, kaman, tar,
Civildəşir qaranquşlar,
Gülür Vətən, gülür Vətən.

Çöl, biyaban daha xoşdur,
Qardan ətraf, tərəf boşdur,
İsrail, sən qəlbi coşdur,
Gülür Vətən, gülür Vətən.
Gülür Vətən, gülür Vətən.

***Göyçə mahalı***
***20.06.1974-cü il.***



# BADALAQ VURUR

Müxənnət zamanın gərdişindəyik,
Qardaş qardaşına badalaq vurur.
Yalançı vədlərin vərdişindəyik,
Bağban öz bağına cır calaq vurur.

Şeytan sığal çəkir bütün hər yana,
Əməli düz gəlmir bu dar məkana,
Eyni hal yığıbdır boğazı cana,
Utanmır, üstəgəl şapalaq vurur.

Rüşvət bütövlükdə korlayır işi,
Dediyi kəlamda dayanmır kişi,
Geyimdə seçilmir: erkəkdir, dişi?
İblis lovğalıqdan yapalaq vurur.

Xoflar fitnələrdən endirir çomaq,
Cümlə olub saqqız, yorulub damaq,
Bitibdir sarmaşıq, ortada yamaq,
Bütün ətrafına sapalaq vurur.

Talanır ormanın varı-dövləti,
Pozulur qədimdən gələn adəti,
İnanma "düzələr" sözünə qəti!
Dələduz arxadan daşqalaq vurur.

İsrail, natəmiz çoxalıb tamam,
Kəramət puçdadır, susuzdur hamam,
Elə bil, nəzərdən çaşmışam, xamam,
Saxta, boş təriflər mayallaq vurur.
Utanmır, üstəgəl şapalaq vurur.

***Bakı şəhəri***
***23.09.2010-cu il.***



# İNTİZARDA QALAN BÜLBÜL

İntizarda qalan bülbül,
Dar otaqda sən ağlama!
Gül-çiçəyi solan bülbül,
Tək budaqda sən ağlama!

Bağ-bağçanı hey gəzmisən,
Məhəbbətin ilk əzmisən,
Qanadını lap büzmüsən,
Gül yataqda sən ağlama!

Ürəyinə qəm veriblər,
Gözlərinə nəm veriblər,
Xoş səsinə bəm veriblər,
Bu nahaqda sən ağlama!

Uça bilmirsən qəfəsdə,
Könül dağlı, özün xəstə.
İsrail, burax ahəstə,
Ol uzaqda, sən ağlama!
Bu nahaqda sən ağlama!

***Sankt-Peterburq***
***12.06.1998-ci il.***



# ATATÜRK

Türk xalqının həm fəxridir, həm sanı,
Qatilləri qovdu, yordu Atatürk!
Təntimədi, itirmədi imkanı,
Düşmənlərin boynun burdu Atatürk!

Qəhrəmanlıq rəmzisində dolanır,
Qəlbimizdə alovlanır, qalanır,
Tarixlərə şücaətlə calanır,
Yağıları başdan vurdu Atatürk!

Əzəmətdə Ağrıdağım qədərdir,
İgidlikdə basılmayan qoç-nərdir,
İdraklarda qurtarmayan əsərdir,
Döyüşlərdə möhkəm durdu Atatürk!

Ulu Öndər, həqiqəti önündə,
İslamı var unudulmaz dinində,
Ölməzliyi rütbəsində, çinində
Böyük Vətən yurdda qurdu Atatürk!

İsrailəm, mətinliyin şan verir,
Yaşamağa həyat verir, can verir,
Vücudlara ilham verir, an verir,
Gözümüzdə sönməz nurdu Atatürk!
Böyük Vətən yurdda qurdu Atatürk!

***Türkiyə, Ankara şəhəri***
***30.07.2012-ci il.***



# QUCAĞINDA

Vuruldum bir işvəkara,
Əlvan bağlar qucağında.
Gözüm düşdü hinduxala,
Şən oymaqlar qucağında.

Ləbi lalə kimi aldır,
Bütün tamı şəkər, baldır,
Ancaq qəlbi tamam laldır,
Buz bulaqlar qucağında.

Sonaya bax, yaman üzür,
Şahinə bax, ox tək süzür,
Yar döşünə güllər düzür,
Al yaylaqlar qucağında.



Şeydasıyam, ay qız, sənin,
Gözəlisən çöl-çəmənin,
Ziyasısan el-ölkənin,
Bu xoş çağlar qucağında.

Nəsiboğlu, gəz diyarı,
Unutma sən gözəl yarı,
Buxağıdır quzey qarı,
Uca dağlar qucağında.
Şən oymaqlar qucağında.

***Göyçə mahalı***
***23.06.1976-cı il.***



# GÖZÜNƏ QAŞLAR

Afərin söylərəm səni görəndə,
Nə gözəl görünür gözünə qaşlar!
Gülgün yanağından güllər dərəndə,
Utanıb əyilir üzünə qaşlar.

Dartınır yerindən kəskin baxışda,
Kamana çevrilir küskün çıxışda,
Altından zər bükür əlvan naxışda,
Qismində düzəlir düzünə qaşlar.

Parlayan bəbəklər çaşdırır hərdən,
Qığılcım səpilir üstümə birdən,
Ağlımı itirib gedirəm sərdən,
Salladır suallar sözünə qaşlar.

Sığallar çəkəydim əlimlə asta,
Söküb yoğuraydım təlimlə asta,
Tumar verib endən telimlə asta,
Əksinə deyərdim, əzinə qaşlar.

Elə bil dayanıb yadlar qəsdinə,
Rişxəndlər yapışır tamam vəsfinə,
Bəlkə işarəmdə danışıb-dinə,
Gizlicə qoşulur həzinə qaşlar.

Əhvalın təbəssüm yaradır onda,
İşvələr sıçrayır sevinən anda,
Təzadlar dəyişir hər an bir donda,
Dərhal ifadəyə bəzənə qaşlar.

Məhəbbət yolunda mənalar anıb,
Sirri saxlamaqda rəmzini danıb,
Təriflər qalxanda təbdən usanıb,
Sevgi aləmində gəzinə qaşlar.

Gərilib usanır söhbətdən, səsdən,
Həlqələr yönünü dəyişir qəsdən,
Xəncər tək kəsərdə atılıb bəsdən,
Könlümün başında düzənə qaşlar.

Qeyibdən oyanıb çəkilən surət,
Rəssam qələmində dayanıb mürvət,
Pərilər boylanır görüşdə xəlvət,
Söykənir nüsxədən izinə qaşlar.

Eşqin ovsunladı, lap kefim sazdır.
Etdiyin əməldə oynayan nazdır.
İsrail! Ürəkdən vurulsan azdır.
Yaraşır nəzərdə özünə qaşlar.
Nə gözəl görünür gözünə qaşlar.

***Bakı şəhəri***
***17.07.2011-ci il.***





# CANAN DƏYDİ

Nəhayət ki, bu günümdə
Gözlərimə canan dəydi.
Sığallanıb düz önümdə,
Qiyaməti anan dəydi.

Baxışından oxlar atdı,
Hədəfləyib qəlbə yatdı,
Əhvalıma sevinc qatdı,
Eşq-naməni sanan dəydi.

Cüyür təki yerişləri,
Mirvaridən saf dişləri,
Könül açan vərdişləri,
İntizarı danan dəydi.

Səsləyəndə eyləyir naz,
Duruşunda qaməti saz,
Qələm götür, təsviri yaz,
Ürəyimə, inan, dəydi.

Toxunanda bərk döyünür,
Sevgisindən həm öyünür,
Hissiyyatdan tam söyünür,
Məni bilib qanan dəydi.

Dəyərində çox qiyməti,
Xoşa gələn səltənəti,
İsrailəm, var minnəti,
Atəş olub yanan dəydi.
Ürəyimə, inan, dəydi.

***Daşkənd şəhəri***
***16.08.1989-cu il.***



# MƏNİM BABAM

***"Bu şeirim, mənim ilk şeirimdir".***

Haqqın, sülhün dayağısan,
Mənim babam, mənim babam.
Azadlığın mayağısan,
Mənim babam, mənim babam.

Zülmü yerdən götürübsən,
Xanı, şahı itiribsən,
Gözəl ağ gün gətiribsən,
Mənim babam, mənim babam.

Yaşa səni, böyük ustad,
Oldun dahi, qazandın ad,
Yol göstərdin, qurduq büsat,
Mənim babam, mənim babam.

İsrailəm, mən nəvənəm,
Fərəhimdən hər an şənəm,
Qayğındadır atam, nənəm,
Mənim babam, mənim babam.
Mənim babam, mənim babam.

***Göyçə mahalı***
***02.08.1971-ci il.***



# İSTƏRƏM

Həyatda ən gözəl bir dünya quran,
Qüdrətli, zəkalı əllər istərəm.
Bütün, sal qayanı yıxıb, uçuran,
Böyük, ən coşqunlu sellər istərəm.

Həyatın mənalı sirrini duyan,
Dünya gözəlinə vurulan, uyan,
Aləmə ən gözəl nemətlər qoyan,
Təmtəraqlı, xoş əməllər istərəm.

Ləl-gövhərdən, simuzərdən qiymətli,
Müdrikli, hikmətli, ulu-ismətli,
Məzmunca, mövzuca çox-çox qüvvətli,
Ünsiyyətdə zor təməllər istərəm.

Varlığa füsunkar gözəllik verən,
Bütün səltənətdə sevib-sevdirən,
Özüylə təbəssüm, sevinc gəzdirən
Tam zərif gönçəli güllər istərəm.

Şən, həzin mahnılar, sözlər oxuyan,
Baldan təravətli, hey söyləyən can!
Özünə həm yaxın dost, tanış tutan,
Gözəl, məlahətli dillər istərəm.

Al-əlvan naxışlı, əlvan çəmənli,
Büllur tək saf şehli, dumanlı, çənli,
Daim xoş ətirli, rövnəqli, şənli,
Səfalı görünən çöllər istərəm.

Bərbəzək sahilli, mavi camallı,
Şirin, şux nəğməli, sərvəti bollu,
Saf sərin havalı, saf sərin sulu,
Yaşılbaş sonalı göllər istərəm.

Dünya aləmində sevib, seçilən,
Dar gündə əl atıb köməyə gələn,
Həmişə şadlanıb oynayan, gülən,
Böyük mətanətli ellər istərəm.

Yığılın, İsrail, bir məclis quraq,
Badəni gənclər - sağlığına vuraq,
Günləri sevinclə biz yolda yoraq,
Bir-birindən şadlı illər istərəm.
Böyük mətanətli ellər istərəm.

***Daşkənd şəhəri***
***07.06.1985-ci il.***



# ÇOX PEŞMAN OLMA!

Bir dəfə yaşarsan həyatda, qardaş,
Qocalıb yetmişdə çox peşman olma!
Özünə hər kəsi eyləmə sirdaş,
Yoxuşda-enişdə çox peşman olma!

Yetənin sözüylə oturub-durub,
Ömrünü mənasız tək başa vurub,
Sütuna, dayağa, badalaq qurub,
Tutduğun sərt işdə çox peşman olma!

İstək, qayğı İlahidən gəlibdir,
Aqil olmaq, bil, dahidən gəlibdir,
Səcdə qılmaq Vəlahidən gəlibdir,
Gedişdə-gəlişdə çox peşman olma!

Qiymət qoy nakəsə, nankor-nadana,
Mənliyini atıb çöldə satana,
Büdrəmə, fikir ver kənara, yana,
Atdığın yerişdə çox peşman olma.

Dünya malı bu dünyada qalandır,
Fani dünya, cani dünya yalandır,
Əvvəl-axır Axirətə salandır,
Çıxışda-girişdə çox peşman olma!

Nəsiboğlu nəsihəti söyləyir,
Uğurunda pak ürəyi teyləyir,
Çox da qaçma, gör Fələyim neyləyir?
Tez ötən gərdişdə çox peşman olma!
Qocalıb yetmişdə çox peşman olma!

***Sankt-Peterburq***
***25.10.2006-cı il.***



# DİLİ TƏRPƏT

Dişin incə, ləbin baldır,
Dəhanı ver, dili tərpət.
Sevgi qoyan qara xaldır,
Havalandır, beli tərpət.

Qaşın məftun edib məni,
Bəzəyibdir xoş bədəni,
Salıb dərdə hər yetəni,
Başı oynat, teli tərpət.

Qadanı at bu canıma,
Təmas yarat, gəl yanıma,
İşvələr ver, qat anıma,
Sinəndəki ləli tərpət.

Eşqi qoyub uzaq getmə,
Birdəfəlik gözdən itmə,
İsraili giryan etmə,
Közü qoyub külü tərpət.
Dəhanı ver, dili tərpət.

***Daşkənd şəhəri***
***11.03.1987-ci il.***



# KARYERİST

Düşüncəsi dardır, savadı saxta,
Düşübdür aləmə yaman karyerist.
Əqidəsi yoxdur, kəlləsi taxta,
Yalanlar yağdırır, aman karyerist.

Oturub utanmır, özünü öyür,
Həqiqət içində gözünü döyür,
Xəlvətə düşəndə doğrunu söyür,
Püfləyir üzlərə saman karyerist.

Dəyişir həmişə söhbətində val,
İşi dolaşanda dili olur bal,
Daşqın dəryalarda çirmələnib lal,
Sonradan titrədir ümman karyerist.

İstedad sözündən heç xəbəri yox,
Zəhmətə, əməyə bircə təri yox,
Məntiqli sözləri, kəlmələri yox,
Amma ki, ağladır zaman karyerist.

Vəzifə uğrunda yüz üz dəyişir,
Ağzını açanda hey söz dəyişir,
Dostu - sirdaşını tez-tez dəyişir,
Beynində fırladır duman karyerist.

Yaltaqlıq eyləyir lap yuxarılara,
Qapılır rüşvətə, havayı vara,
Şeir dünyası da gəlibdir zara,
Sındırır nəğmədə kaman karyerist.

İsrail, təpədən dağ olmaz, qardaş!
Nadana sirr vermə, eyləmə sirdaş,
Dar gündə səs çıxmır, olubdur bir daş,
Qoymayır əməldə güman karyerist.
Düşübdür aləmə yaman karyerist.

***Bakı şəhəri***
***19.05.2003-cü il.***

# BU EŞQİMƏ

Bir gözəlin naz-qəmzəsi
Qılınc çəkdi bu eşqimə.
Tənə edən ifadəsi
Tikan əkdi bu eşqimə.

Hey göynədim ağrılardan,
Təngə gəldim ahı-zardan,
Təntimişəm amanlardan,
Zillət keçdi bu eşqimə.

Qan axıtdı hey toxunub,
Ovsunladı tam oxunub,
Məlhəmimi alıb, donub,
İnad seçdi bu eşqimə.

İsrailəm, ələnmişəm,
Sevgisində dilənmişəm,
Közə düşüb bələnmişəm,
Alov biçdi bu eşqimə.
Qılınc çəkdi bu eşqimə.

***Daşkənd şəhəri***
***09.02.1984-cü il.***



# QALDI YAVAŞCA

Meşənin nə gözəl mənzərəsi var,
Təsviri əqlimi aldı yavaşca.
Qəflətən ruhlanır hər bir arzular,
Gözlərim xəyala daldı yavaşca.

Ağacın qaməti qəşəng dayanıb,
Torpaq elə bil ki, təzə oyanıb,
Bütün rəngarəngdir, boya boyanıb,
Sanki, bütün aləm laldı yavaşca.

Havası təmizdir, əsəbim azdır,
Günəş tam gur saçır, fəsili yazdır,
Könlümdə səslənən kamandır, sazdır,
Yanıq Kərəmini çaldı yavaşca.

Quşların səsləri oyadır məni,
Al-əlvan bürüyüb bütün çəməni,
Tamam yox eyləyir başımdan çəni,
Ahəstə xoş izlər saldı yavaşca.

İsrail vurğundur Ana yurduna,
Təbiət dəyişib, geyir min dona,
Sakitcə gəzirəm, gördüm göl, sona,
Hamısı əbədi qaldı yavaşca.
Təsviri əqlimi aldı yavaşca.

***Göygöl rayonu***
***30.05.1999-cu il.***



# YARALANMIŞAM

Kövrək bir kamanın iniltisindən
Sağalmaz dərd tutub yaralanmışam.
Amansız, infarktlı söz kəsərindən,
Ürəkdən-ürəyə paralanmışam.

Yaşarmı həyatda eşqisiz ürək,
Arzudan, əməldən doğur hər istək,
Qəlbimdə qalsa da ümidlər tək-tək,
Eşqili xəyaldan aralanmışam.

Alışdım hər çətin xülyaya şanssız,
Ümidsiz könlümü sanmayın cansız,
Qəmlər bəhrəsindən bilin amansız,
Poladdan büst tutub malalanmışam.

İsrail qapılmaz dünya varına,
Məruz heç qalmamış yadlar xarına,
Deməyin, acizdir eşq əğyarına.
Qızıldan, gövhərdən cilalanmışam.
Poladdan büst tutub malalanmışam.

***Daşkənd şəhəri***
***27.08.1986-cı il.***





# BAKILI QIZ

Görüşəndə qoxlayıram,
Əlvan çiçək - Bakılı qız.
Əhvalını yoxlayıram,
Arzu, dilək - Bakılı qız.

Dəhanın bir al qönçədi,
Dodaqların lap incədi,
Qaşların kamandı, nədi?
Ahu, mələk - Bakılı qız.

Yanağında vardı lala,
Çeşmin az qalır can ala,
Məcnunu çöllərə sala,
Bir Leyli tək, Bakılı qız.

Müjgan oxu atma, ay qız!
Küdurətə batma, ay qız!
Aralığı qatma, ay qız!
Etmə kələk, Bakılı qız.

Bəyaz buxağın gözəldi,
Zərli qolbağın gözəldi,
Çəkdiyin dağın gözəldi,
Üzü göyçək, Bakılı qız.

Hər yana yay gözəl ətir,
Sənə deyilsin söz, sətir,
Peymanəni tez ol, gətir,
Doldur içək, Bakılı qız.

Qoyma məni intizarda,
Gah o darda, gah bu darda,
Eşqi soldurma azarda,
Yumşaq ürək, Bakılı qız.

Könülümdə fədası var,
Bu aləmdə sədası var,
Gör, nə qəşəng ədası var!
Əyni üşmək, Bakılı qız.

Səhər-səhər səni Xəzər
Daim tumarlayar, bəzər,
Şux adın dillərdə gəzər,
Axıradək, Bakılı qız.

Sözü yaman məzəlidi,
Eşqimin ilk əzəlidi,
Söz verdi, etmədi vədi,
Şən gülərək Bakılı qız.

Belə canan sevmək yaxşı,
Belə qanan sevmək yaxşı,
Belə yanan sevmək yaxşı,
Xoş bir istək, Bakılı qız.

İsrailəm, vurulmuşam,
Bulaq kimi durulmuşam,
Uğrunda çox yorulmuşam,
Sözüm gerçək, Bakılı qız.
Yumşaq ürək, Bakılı qız.

***Bakı şəhəri***
***17.05.1975-ci il.***



# SALIRSAN

Çətin bir zamanda, bimürvət fələk,
Dartıb qəlbi zimistana salırsan.
Bəxtimi bağlayıb qurursan kələk,
Xarabalı xiyabana salırsan.

Qərəzliyin varsa, bilindir başdan,
Qismətim tapılmır, hey çıxır daşdan,
Əhvalım düzəlmir qeyli-savaşdan,
Bilə-bilə çətin ana salırsan.

Qarğa-quzğunlarla çox dolan yerə,
Gülzarı ürpəşən, tez solan yerə,
Cırlaşmış bağçaya, xar olan yerə,
Dağılmış çöl-biyabana salırsan.

Çəkinmək bilmirsən tutduğun yoldan,
Həm öndən vurursan, həm sağdan-soldan,
Vurursan dizimdən, vurursan qoldan,
Qəddarlaşıb şər-böhtana salırsan.

Qiyamət qoparır günlər, həftələr,
Şeytan əməlindən qurdun tələlər,
Görürəm qarşımda bax nələr-nələr,
Qəsd eyləyib tam ziyana salırsan.

Könlümü talayıb dibdən oyursan,
Bütün oyunlarda mata qoyursan,
Dərimi dabandan kəsib-soyursan,
Xoşallanıb dar cahana salırsan.

Nəsiboğlu gileylidir əlindən,
Göz açammır fitnələrdən-felindən,
Kütləşib nəzəri bəd əməlindən,
Yorulmadan imtahana salırsan.
Dartıb qəlbi zimistana salırsan.

***Bakı şəhəri***
***27.02.2007-ci il.***

# AY ELLİ QIZ!

Çox dartınıb öndə qaçma,
Bir mənə bax, ay elli qız!
Tellərini yana atma,
Taxma daraq, ay elli qız!

Ayaq saxla, dərdi bilim,
Qəhərini tezcə silim,
Yoxa çıxma ilim-ilim,
Etmə iraq, ay elli qız!

Qaş-gözünü süzdür bir an,
Dodaqları büzdür bir an,
Məhəbbəti üzdür bir an,
Eşqi yoraq, ay elli qız!

Boy-buxunun dil oxşayır,
Sinə parlaq ləl oxşayır,
Ətirlərin gül oxşayır,
Ətrafa yax, ay elli qız!

İşvələri artır bir az,
Surətini didəmdə yaz,
Təbi dəyiş, ucalt avaz,
Həmdəm olaq, ay elli qız!

İsrailəm, yorma axır,
İşarəmə hamı baxır,
Göz yaşlarım yaman axır,
Soyləmə ax, ay elli qız!
Bir mənə bax, ay elli qız!

***Daşkənd şəhəri***
***27.08.1985-ci il.***



# GEDƏN QIZIN

Tamah saldım yerişinə gələrkən,
Nə gözəl qaməti var gedən qızın?
Köynəyi bədənə qəşəng yaraşır,
Əyninə şalvarı dar gedən qızın.

Kəməri sıxılıb incə belində,
Şərbəti süzülür dodaq-dilində,
Asılaydım qıvrım sarı telində,
Əndamı ağappaq qar gedən qızın.

Qara qaşlar gərilir kaman kimi,
Ovlayır könlümü yapyaman kimi,
Durdu qənşərimdə ah-aman kimi,
Varmı ismətində ar gedən qızın?

Nazik, uzun boynu zərə bələnib,
Üzünə, qoluna xallar ələnib,
Nələr sinəsində, gör, kündələnib,
Sallanır cüt qoşa nar gedən qızın.

Nəsiboğlu peşkaş olub anbaan,
Eylədi qəlbimə tam qəsdi talan,
Versəydi dinimə bir iman, güman,
Eşqinə deyərdim yar gedən qızın.
Nə gözəl qaməti var gedən qızın?

*Sankt-Peterburq*
*25.06.1999-cu il.*



# TAPDIM SEVGİMİ

Sənin şıltaq görüşündə
Tapdım sevgimi mən, tapdım.
Asta, nazlı yerişində
Tapdım sevgimi mən, tapdım.

Çovğun-boranlar içindən,
Çətin zamanlar içindən,
Dəhşətli anlar içindən
Tapdım sevgimi mən, tapdım.

Qəmli, yaşarmış gözündə,
Şən ahəngli, gül sözündə,
Bir də özündə-özündə
Tapdım sevgimi mən, tapdım.

Bəyaz, gözəl otağında,
İsti, yumşaq yatağında,
Şirin püstə dodağında
Tapdım sevgimi mən, tapdım.

İsrailəm, şadlanıram,
Arayıb, sorub-anıram,
Sevincimdən tullanıram,
Tapdım sevgimi mən, tapdım.
Tapdım sevgimi mən, tapdım.

***Bakı şəhəri***
***27.06.2003-cü il.***



# AX, YAMAN OLDU

Kirpiklərin sancılıbdı sinəmə,
Baxanda atdığın ox yaman oldu.
İnsaf eylə bu sarsılan könlümə,
Onsuz da şokdayam, tax, yaman oldu.

Qara gözlər od-alovlar kürüyür,
Ürək qiyam edir, eşqi sürüyür,
Havam çatmır, çılğınlıqlar bürüyür,
Bil ki, divanəyəm, bax, yaman oldu.

Başqa kainatdan yəqin gəlibsən,
Fəzanı dağıdıb tamam dəlibsən,
İldırımı, şimşəkləri silibsən,
Bir özün atəşsən, çax, yaman oldu.

Belə etmə mən yetimə nahaqdan,
Məleykəsən, endin, Yarəbbi, taxtdan,
Közə döndüm, yandırırsan bayaqdan,
Etdiyin əməllər çox yaman oldu.

Sənsiz döndü zəhrimara həyatım,
Zimistana, ahı-zara həyatım,
Gülüstandan bədnam-xara həyatım,
Tanrı da yol verməz, yox, yaman oldu.

Nəsiboğlu görməmişdi beləsin,
Qamətində tayı yoxdur heç kəsin,
Əndamında vay qoparır əbəsin,
Əlim başımdadı, ax, yaman oldu.
Baxanda atdığın ox yaman oldu.

***Daşkənd şəhəri***
***30.08.1992-ci il.***



# QADASI VAR

Bir gözəllə dost olmuşam,
Saf dostluğun mənası var!
Gülüşləri çox əbəsdir,
Duruşunun sədası var!

Sadəliyi xoşa gəlir,
Bu sinəmi yarır, dəlir,
Dərdlərimi tamam silir,
Gör, nə qəşəng ədası var!

Mehribandır canı yanmış,
Hicranlığı erkən anmış,
Eşq sözünü tamam qanmış,
Baxışının bahası var!

İsrailəm, yar vurğunu,
Oldum gözəllər yorğunu,
Hey yığıram söz-sorğunu,
Ürəyimdə qadası var!
Gör, nə qəşəng ədası var!

***Bakı şəhəri***
***08.07.2002-ci il.***



# YALAN ÖLDÜRÜR

Dərdimə dərman tapılmır, Yaradan!
Ruhumu canımdan alan öldürür.
Bütün gözəlliyi gəlib sonadan,
Leyli kimi çölə salan öldürür.

Qamət incə, gülüş incə, dil incə,
Gözlər incə, qaşlar incə, tel incə,
Əllər incə, baldır incə, bel incə,
Bu sinəmdə çöküb qalan öldürür.

Ləblər şirin, bal-pətəkdən seçilmir,
Dağlardakı gül-çiçəkdən seçilmir,
Yanaqları al ləçəkdən seçilmir,
Ətir qoyub, edib talan, öldürür.

Hara getsəm, orda tezcə canlanır,
Düşüncə aləmim anır, tam anır,
Onsuz halım bədənimdə usanır,
Xəyal verib eşqə dalan öldürür.

İsrailəm, ağır yaram var mənim,
Qənşərimdə hey fırlanır zar mənim,
İndən belə sevgim yoxdur, xar mənim,
Məhəbbətdə qəsdi-yalan öldürür.
Leyli kimi çölə salan öldürür.

***Bakı şəhəri***
***09.07.2008-ci il.***



# QONUR GÖZLƏRİNİN ÖNÜNDƏ

Qonur gözlərinin önündə gülüm,
Gör neçə sevinclər, kinlər dayanıb.
Taleyin qəzəbi, Allahın rəhmi,
Dumanlar, çiskinlər, çənlər dayanıb.

Dolğun o əksində nazənin qızlar,
Leyli tək gözəllər, sübhü-namazlar,
Mələklər, hürülər, parlaq ulduzlar,
Neçə-neçə qəlb sevənlər dayanıb.

Qoymaram gül üzün sola bir daha,
Uğrunda özümü ataram aha,
Sevin bu həyata, gülgün sabaha,
Ön qarşında al çəmənlər dayanıb.

Eşqə sadiq olub, aha-hay verən,
Ürəyini peşkaş verən, pay verən,
Könlündəki yaralardan say verən,
İsrail tək həmvətənlər dayanıb.
Ön qarşında al çəmənlər dayanıb.

***Bakı şəhəri***
***05.06.2003-cü il.***



# İNTİZARDIR

Könüllərə həsrət verən
Məhəbbətdə intizardır.
Yollaşmayan, yol getməyən
Səadətdə intizardır.

Ayrılığa yoldaş olan,
Hicranlığa sirdaş olan,
Qüssələrə nimdaş olan
Əlamətdə intizardır.

Sevənlərə qəm yetirən,
İstəkləri hey itirən,
Kədər-qəmi tez gətirən
Həqiqətdə intizardır.

Ürəklərdə çox dolaşan,
Dağ-dərəni keçib aşan,
Bulaq olub birdən coşan
Şücaətdə intizardır.

Ceyranı çöldən ayıran,
Sonanı göldən ayıran,
Bülbülü güldən ayıran
Zəmanətdə intizardır.

Gözlərdə göz yaşı tökən,
Hey dağıdıb dünya sökən,
Gül yerində tikan əkən,
Qiyamətdə intizardır.

Fələyin sağ əli olan,
Aşiqlərin saçın yolan,
Hey boşalıb, hey də dolan
Kəramətdə intizardır.

Tarix boyu tüğyan edən,
İgidləri hədyan edən,
Gözəlləri giryan edən
Ədavətdə intizardır.

İsrailəm, çox görsəm də,
Kürəyimdə ox görsəm də,
Hə yerinə, yox görsəm də,
Xəyanətdə intizardır.
Məhəbbətdə intizardır.

***Sankt-Peterburq***
***30.11.2005-ci il.***



# ELƏ BAĞLIDIR

Gözəldir təbiət onu sevənə
Yaradan o, quran ələ bağlıdır.
Həzin nəğmələrin xoş ifadəsi,
Mənalı o, şirin dilə bağlıdır.

Şeriyyat aləmim, hər istedadım,
Çılğın arzularım, kəskin imdadım,
Həyatım, varlığım, uçan qanadım,
Yanıqlı sazımda telə bağlıdır.

Bütün məhəbbətim, bütün xəyalım,
Sevincim, gülüşüm, o xoş əhvalım,
Məqsədim, könlümdən qalxan iqbalım,
Qarşıdan o, gələn ilə bağlıdır.

Maralın duruşu, o şax baxışı,
Səfalı çəmənin min bir naxışı,
Ceyranın ayağı, ox tək çıxışı,
Həmişə, hər zaman çölə bağlıdır.

Qışın ötkünlüyü, yazın nəfəsi,
Zirvəli dağların nərilti səsi,
Karvanın hesabı, gəlib keçməsi,
Gurlayan o, coşan selə bağlıdır.

Gözümdə canlanan o mavi camal,
Əqlimdə baş verən təəssüf, o hal,
O çoxdan umduğum nəşəli əhval,
Ən zərif qönçəli gülə bağlıdır.

Yayın sərinliyi, onun qiyməti,
Dalğanın oyunu, hüsnü, izzəti,
Kəpəzin nəğməsi, hər bir ləzzəti,
Ürək sərinlədən yelə bağlıdır.

Gözəl bir mənzərə, onun havası,
Təzadlı gülüşü, dərin mənası,
Neçə aşiqlərin ən ilk sevdası,
Sonası çığrışan gölə bağlıdır.

İsrailəm, hər bir kəlməm, söhbətim,
Fəxrim, adım, o dolğunlu ismətim,
Çox zülümlə qazandığım hörmətim,
Bu qoca ormana, elə bağlıdır.
Yaradan o, quran ələ bağlıdır.

***Daşkənd şəhəri***
***17.06.1984-cü il.***



# GÖYƏRÇİN

Sən özün mələykə, hürü-pərisən,
Allahın verdiyi bir pay, göyərçin.
Quşların xeyirxah elçilərisən,
Olmaz görüşündə tən tay, göyərçin.

Fələyi qoymursan ahlardan enə,
Qarğa hücum çəkə, çox bərkdən dinə,
Sərçələr fırlanır ətrafda yenə,
Qoymursan cənnətə ah-vay, göyərçin.

Ruhlar qanadını açır göylərə,
Xoş əhval yaradıb uçur göylərə,
Boynunun rəngləri saçır göylərə,
Edirsən aləmə xoş hay, göyərçin.

Sevgi dastanında nəvazişin çox,
Hicranlı gözlərə şux gəlişin çox,
Müjdəçi əməlin, fayda işin çox,
Bilmirsən qiyamət, nə zay, göyərçin.

İsrail vurulub sənin vəsfinə,
Qoymaram bir kəsi girə qəsdinə,
Poçtalyon olubsan hey sinə-sinə,
Gətirdiyin poçtu tez say, göyərçin.
Allahın verdiyi bir pay, göyərçin.

***Sankt-Peterburq***
***22.10.2006-cı il.***



# AY ZÜLFÜNAZ!

Çay qırağı, çinar altı,
Zümzümə çal, ay Zülfünaz!
Artıq saat olub altı,
Könlümü al, ay Zülfünaz!

Zəngülə vur bu dağlara,
Nəğmələr qoş xoş çağlara,
Eşqi doldur al bağlara,
Vəsfini sal, ay Zülfünaz!

Sevgimizi yubandırma,
Alovumu gəl yandırma,
İntizarı hey andırma,
Xəyala dal, ay Zülfünaz!

Ortalığa at sözünü,
Oynat belə qaş-gözünü,
Toxtat hissi, həm özünü,
Dodaqda bal, ay Zülfünaz!

Yerişində ceyran kimi,
Tərpədirsən qəlbdə simi,
Başımdan aldın əqlimi,
Yanaqda xal, ay Zülfünaz!

İsrailəm, yarım sənsən,
Bütün dünya varım sənsən,
Üzdə ismət, arım sənsən,
Yanımda qal, ay Zülfünaz!
Zümzümə çal, ay Zülfünaz!

***Gəncə şəhəri***
***05.03.1994-cü il.***



# NAKAM QƏLBİMDƏ

Bu nakam qəlbimdə mahnı bəslədim,
Dedim, qoy kamanı, tarı bol olsun.
Hərdən həzin bir avazla səslədim.
Dedim, qoy sevgisi, yarı bol olsun.

Bağban oldum sevgi bağça-bağında,
Hey yaratdım gəncliyimin çağında,
Həm önündə, həm solunda-sağında,
Dedim, zəhmətimin karı bol olsun.

İntizarlı keçdi ilk məhəbbətim,
Gözəllər içində sözüm-söhbətim,
Amma ki, düşmədi istək, adətim,
Dedim, qoy eşqimin varı bol olsun.

Xəyal aləmində uca zirvələr,
Keçilməz qayalar, ümmanlar, sellər,
Mən nələr yaratdım, bəs nələr-nələr.
Dedim, qoy zirvəmin qarı bol olsun.

Həyatımda sarsılmadım zülümdən,
Çətinlikdən, ikiliyə bölümdən.
İsrailəm, heç qorxmadım ölümdən,
Dedim ki, ömrümün barı bol olsun.
Dedim, qoy zirvəmin qarı bol olsun.

***Sankt-Peterburq***
***19.05.2002-ci il.***



# ANLAMAQ OLMUR

Keçən günlərimin xəyalındayam,
Çətinmiş, sorğunu anlamaq olmur.
Sevincimdə hayam, şərimdə vayam,
Özünü heç qanıb danlamaq olmur.

İnciyib ürəyim, susur arabir,
Elə təsvir var ki, tutub gizlədir,
Ömrün sonunadək saxlayır həm sirr,
Tumarlayıb belə yanlamaq olmur.

İntizar, iztirab dartır məqamı,
Kövrəldir, titrədir qəlbimdə kamı,
Könül dəftərindən itən məramı,
Ərsəyə çatdırıb yonlamaq olmur.

İsrailəm, yoruluram ahlardan,
Sinəmi doğrayan sərt cinahlardan,
Ümid gəlmir, desəm, sübh-sabahlardan,
Seçimdə məhdudam sonlamaq, olmur.
Özünü heç qanıb danlamaq olmur.

***Bakı şəhəri***
***19.08.2009-cu il.***





# AXIRINA BAXARIQ

Görüşək al çəməndə,
Axırına baxarıq.
Günəş gütbə enəndə,
Axırına baxarıq.

Ay işığı görünsün,
Ulduzumuz öyünsün,
Ürəyimiz döyünsün,
Axırına baxarıq.

Gözün-gözümə baxsın,
Göylərdə şimşək çaxsın,
Sərin yağışlar yağsın,
Axırına baxarıq.

Qaçaq daldey bir yerə,
Qucaqlaşaq min kərə,
Coşaq, bulanaq tərə,
Axırına baxarıq.

Sonra ötürüm səni,
Söylə nazlı kəlməni,
Tanış eylə nənəni,
Axırına baxarıq.

Tellərini sanıyım,
Ayrılığı yanıyım,
Evinizi tanıyım,
Axırına baxarıq.

Yuxum getsin gözümdən,
Xoşallanım özümdən,
Getmə söhbət-sözümdən,
Axırına baxarıq.

Görüşümüz çoxalsın,
Qəlbim səninlə qalsın,
Həmişə yada salsın,
Axırına baxarıq.

Eşqimizi anlayım,
Səni sevib, yanlayım,
İntizarı danlayım,
Axırına baxarıq.

Bu minvalla ötüşək,
Dərdimizi bölüşək,
Deyib tez-tez gülüşək,
Axırına baxarıq.

Gəlin paltarı geyin,
Toyda sevin, gül, deyin,
İsraillə bir öyün,
Axırına baxarıq.
Axırına baxarıq.



***Daşkənd şəhəri***
***25.05.1990-cı il.***



# BƏNÖVŞƏ

Yazın əvvəlində, bahar çağında
Tez çıxıb boynunu əymə, bənövşə.
Özünü quzeydə, İnəkdağında
Çiçəklər içində öymə, bənövşə.

Yağışlar yağanda yalqız görünüb,
Otlara söykənib, bərkdən bürünüb,
Küləklər əsəndə qorxub, ürkünüb,
Başını ətrafa döymə, bənövşə.

İntizar içində hərdən döyükmə,
Həsrətlə vurnuxub hüsnünü dikmə,
Axşam düşən kimi, qaməti bükmə,
Ayrılıq sözünə uyma, bənövşə.

Məhəbbət özünə yaxın bilibdir,
Həmişə adını çəkib, dilibdir,
Hicranda gözünün yaşın silibdir,
Sən onun xətrinə dəymə, bənövşə!

Zərifdən zərifsən, incədən incə,
Gözəllər gülüsən, ətirdə öncə,
Tezcə sən solursan həftə gəlincə,
İsraili giryan qoyma, bənövşə.
Ayrılıq sözünə uyma, bənövşə.

***Göyçə mahalı***
***17.05.1988-ci il.***



# KÜLÜ AZDIR

Kədər-qəmlər boldur məndə,
Odu çoxdur, külü azdır.
Yonca bitib tər çəməndə,
Xarı çoxdur, gülü azdır.

Gileylidir cavan yaşım,
Düyünlənib alnım, qaşım,
Ömürümdə sərtdir qışım,
Qarı çoxdur, seli azdır.

Qismət sözü yuvarlanır,
Bəxt gizlənir, özün danır,
Bədənimdə ruh usanır,
Yoxlar çoxdur, bəli azdır.

Fələk məni hey qınayır,
Fürsətində tam yanayır,
Həyat qəsdində sınayır,
Sarı bol, bülbülü azdır.

İstəyimdə həvəsim az,
Arzularım qalıb nasaz,
Yaradanım eyləyir naz,
Vaxtı dardır, ili azdır.

İsrailəm, təlaşdayam,
Dərdmi kəmdir, durub sayam?
Yollarımda çınqıl, qayam.
Çovğunu çox, yeli azdır.
Odu çoxdur, külü azdır.

***Bakı şəhəri***
***17.11.2008-ci il.***



# FANİ DÜNYADIR

Varı lap özündən çox istəyənlər,
Bilməyir, dünyamız fani dünyadır?
Vəzifə uğrunda başın əyənlər,
Düşünmür, lüzumsuz ani dünyadır?

Gəlib, elə-belə baxıb getmirik,
Doğrunu, düzgünü qanıb etmirik,
Bütün arzulara tamam yetmirik,
Dərslərində həm əyani dünyadır.

Nəsiboğlu, giley-güzar tükənmir,
Fələyin xəlbiri bacdan ələnmir,
Xırman tufandadır, dibdən kürənmir,
Özü-özlüyündə cani dünyadır.
Dərslərində həm əyani dünyadır.

***RF, Smolensk şəhəri***
***12.09.2010-cu il***





# GÜMAN QILSIN

Salam yetir o gözələ,
Bu dərdimə dərman qılsın.
Hakim olub könülümə,
Kəramətdə fərman qılsın.

Aləm edir hey tamaşa,
Az qalır girəm savaşa,
Oxu qoyub kaman-qaşa,
Mərhəməti bir an qılsın.

Nəzərində çox qətidir,
Eşqi yormaq - sənətidir,
İşvə atmaq - adətidir,
Barı baxıb, aman qılsın.

Odur, gəlir bizə sarı,
Bədəni var - quzey qarı.
Kaş olaydı qəlbin yarı,
İstəyimə imkan qılsın.

Kəmər sıxıb incə beli,
Gün oxşayır sarı teli,
Eyləməsin fitnə-feli,
Əqilində səhman qılsın.

Yerişində olub sona,
Tam yaraşır əlvan dona,
Tək qalmışam yana-yana.
İsrailə güman qılsın.
Bu dərdimə dərman qılsın.

***Daşkənd şəhəri***
***23.04.1986-cı il.***



# KEÇMİR TƏKLİFƏ

Büsbütün imtiyaz keçmir təklifə,
Şikayət məktubu yeşikdə qalır.
Hayqıran nalələr, çırpınan imdad
Məmurda yetişmir, eşikdə qalır.

Kasıb biçarədir, düşüb ortaya,
Əl açır Tanrıya, falçı xalaya,
Aciz hey fırlanır, düşür ah-vaya,
Qışqırıq kəlməsi beşikdə qalır.

Günahsız olmağın sübuta yetmir,
Rüşvətsiz işlərin heç yana getmir,
Acısı, kədəri ömürdən itmir,
Həqiqət gizlənir, deşikdə qalır.

Fırıldaqdan baş açmıram, doğrusu,
Talana qurşanıb millət oğrusu,
Bəyənmir kafiri, bəyənmir rusu,
Azadlıq kəlamı keşikdə qalır.

İsrailəm, yarımadıq heç nədən,
Əsəbdən titrəyir canımda bədən,
Qurdlar qapaz çəkir, çaqqaldır güdən,
Varın ən yağlısı pişikdə qalır.
Həqiqət gizlənir, deşikdə qalır.

***Gəncə şəhəri***
***16.02.1993-cü il.***



# AMAN GÜNDÜ

*"Bu şeirimi bir yakut qızına yazmışdım"!*

Dərd əlindən gileyliyəm,
Çat dadıma, aman gündü.
Zamanımda müleyliyəm,
Ömür keçir, yaman gündü.

Tənha qoyma qəhərlərdə,
Acı tamlı təhərlərdə,
Kövrəlmişəm bəhərlərdə,
İztirablar daman gündü.

Mərhəməti əsirgəmə,
Dəyanəti əsirgəmə,
Nəzakəti əsirgəmə,
Orucdayam, iman gündü.

Bir yada sal keçənləri,
Qəlbimizdən köçənləri,
Əhdi-peyman içənləri,
Xatırlasan, haman gündü.

Nəsiboğlu hicrandadır,
Xəyal uçur, o yandadır,
Könül yalqız gümandadır,
Bağışla, gəl, Şaman gündü.
Ömür keçir, yaman gündü.

***Daşkənd şəhəri***
***06.05.1988-ci il.***





# MƏHƏBBƏT!

Nə enişi bilər, nə də yoxuşu,
Həmişə yolunda düzdür məhəbbət!
Nə boranı bilər, nə də yağışı,
Həyatda silinməz izdir məhəbbət!

Gəncliyin ən böyük rüzusudur o,
Allahın yazısı - pozusudur o,
Ürəyin ən əziz quzusudur o,
Ağızda ən şirin sözdür məhəbbət!

İsrail, qəlbini talayan odur,
Tarixi tarixə calayan odur,
Sönməz alovları qalayan odur!
Alovsuz şölədə közdür məhəbbət!
Həyatda silinməz izdir məhəbbət!

***Daşkənd şəhəri***
***21.05.1992-ci il.***





# BİR KİŞİ KİMİ

Mənasız ömürün qiyməti olmaz,
Dolanma gərəksiz hər kişi kimi.
Tülkü tək gəzənin hörməti olmaz,
Mərdi-mərdanə ol, şir kişi kimi.

Qeyrəti əlindən buraxma, atma,
Mənliyini qoru, tez taptalatma,
Vicdanı qızıla, gövhərə satma,
Ucal zirvələrə nər kişi kimi.

Bir dəfə yaşarsan həyatda barı,
Unutma insafı, unutma yarı,
Firavan dolandır ömür-gülzarı,
Tanınsın nüfuzun ər kişi kimi.

Naxələf kəslərin dalınca qaçma,
Özünü bəy bilib, kölgədə saçma,
Sirrini gədəyə-güdəyə açma,
Xırdala sözünü zər kişi kimi.

Saxta tərifləri yığışdır öndən,
Ayrılma Allahdan, imandan, dindən,
Çəkinmə çiskindən, borandan, çəndən,
İşlət əqidəni, sər kişi kimi.

Öz fəzanda yaxşı günlər sürginən,
Sevgi aləminə fikir verginən,
Zərif çiçəkləri önə sərginən,
Əkdiyin bostanı dər kişi kimi.

Dilini möhkəm tut dişin dalında,
Ciddi yanaşma qoy işin dalında,
Yoldaşlığı hər gərdişin dalında,
Saxlamağı bacar sirr, kişi kimi.

Həyat çox qısadır, gəlib-gedərdir,
Hər kəs başlanandır, hər kəs yetərdir,
İnsanın ömürü bir an qədərdir,
Yaşa, həyatını sür kişi kimi.

Hərraca qoydurma inadlarını,
Bildirmə əbəsə imdadlarını,
Yox etmə nəslini, soyadlarını,
Qoru, tam dəyərli dürr kişi kimi.

İstəkləri əsirgəmə canından,
Məhəbbəti azaltdırma qanından,
Həvəsləri yubandırma anından,
Sevincləri yarat, ver kişi kimi.

Bu gün qurtarırsa, gələn sabahdı,
Axıtma göz yaşı, axırı ahdı,
Yalandan qəlblərə dəymə, günahdı,
Fırlatma nahaqqı şər, kişi kimi.

Etmə goppazlığı, etmə yalanı,
Yəhərin yerinə soxma palanı,
Yığışdır ortadan fitnə salanı,
Pasları, lazımsız kir, kişi kimi.

Utanma, kasıblıq xəcalət deyil,
Yalvarmaq-yaxarmaq bir alət deyil,
Bilməyib öyrənmək, yox, qələt deyil,
Yıxılma məqamda tir kişi kimi.

Düşündür əqlini söhbət edəndə,
Ehtiyatı atma bəsə gedəndə,
Sevinmə, çatmamış sona yetəndə,
Ələndir cövhəri tər kişi kimi.

Çəkilsin saflıqda adın hər zaman,
Etmə kimsələrə nankorluq, yaman,
Düşün axirəti, eyləmə aman,
İsmin qoy hallansın pir kişi kimi.

Fərəhlə saxlasın üstündə səni,
Yandırıb-yaxmasın tüstündə səni,
Ucaltsın, qorusun büstündə səni,
İzini saxlasın yer kişi kimi.

İsrailəm, çəkinmərəm zülümdən,
Böhtan çıxmaz əməlimdən, dilimdən,
Heç qorxmaram, əcəl çatsa, ölümdən,
Gedərəm dünyadan bir kişi kimi.
İsmin qoy hallansın pir kişi kimi.

***Bakı şəhəri***
***07.06.2006-cı il.***





# QALDI SƏADƏT

Nə çox bəla çəkdi, nə çox qəm yedi,
Yoxuşda yorulub qaldı səadət.
"Yetər, çatammıram", - dayanıb dedi.
Xəyala süstləşib, daldı səadət.

Mərhəmət, mürvəti anıb qanmadı,
Bircə belə heç düşünüb sanmadı,
Mən, yazığa, qəhərlənib yanmadı,
Hicran mahnısını çaldı səadət.

Neyləsin, Tanrıdan qismət deyilmiş!
Xilafət əlindən tamam yeyilmiş,
Xəzan yarpağı tək boynu əyilmiş,
Dəhşətlərdən tam saraldı səadət.

Sevinc nədir olduğunu bilmədi,
Bu ömrümdə təmas qurub gülmədi,
Göz yaşımı yaxın gəlib silmədi,
Bədbinlikdən hey qaraldı səadət.

İsrailəm, qapanmışam ahlara,
Baş vururam ötən hər cinahlara,
Boylanıram gələn sübh-sabahlara,
Nə fayda, bəxtimi aldı səadət.
Yoxuşda yorulub qaldı səadət.

***Bakı şəhəri***
***19.07.2002-ci il.***



# BAXASAN ASTA-ASTA

Yaxşı bilib bu cahana,
Tər yaxasan asta-asta.
Dərin, böyük o ümmana,
Lal axasan asta-asta.

Tarın, sazın zil səsinə,
Bülbüllərin nəğməsinə,
Gözəllərin sinəsinə
Gül taxasan asta-asta.

İldırım tək çöllərinə,
Dağdan axan sellərinə,
Çəməndəki güllərinə
Nur çaxasan asta-asta.

Keçmişinə, bu gününə,
Uzununa, gen eninə,
İsrailəm, həm önünə
Hey baxasan asta-asta.
Nur çaxasan asta-asta.

***Bakı şəhəri***
***17.06.2004-cü il.***



# BEZƏRƏM MƏN

Sən yox olsan, inan gözəl,
Bu ömrümdən bezərəm mən!
Səadəti örtər xəzəl,
Ürəyimi üzərəm mən.

Bəxt-yığvalda talan olar,
Həyat bütöv yalan olar,
İztirablar kalan olar,
Divanə tək gəzərəm mən.

Arzu-dilək dərhal sönər,
İqbal sərdən qaçıb dönər,
Giley-güzar tamam dinər,
Əzabları düzərəm mən.

Biləmmərəm öz halımı,
Bədbinlikdən əhvalımı,
İtirərəm amalımı,
Biyabanda azaram mən.

Dünya dəhşət görünər dar,
Bağ-bağçamı tez basar xar,
Dağ-daşımı bürüyər qar,
Əhd-ilqarı pozaram mən.

Küsərəm kəm qismətimdən,
Saçlarıma hey düşər dən,
Sızlayaram dərd əlindən,
Könül-qəlbi əzərəm mən.

Sarsıntılar yorub tutar,
Kinayələr böhtan atar,
Qüssələrlə qatar-qatar,
İstəyimi büzərəm mən.

İsrailəm, şikayəti,
Sevgimdəki qiyaməti,
Yana-yana hekayəti
İnildəyib yazaram mən.
Bu ömrümdən bezərəm mən.

***Bakı şəhəri***
***07.09.2010-cu il.***



# BALASIYAM - BALASI!

Sənə gələn hər qüssəni, hər qəmi,
Özün bildin, alasıyam - alası!
Olubsan könlümün sirdaş-həmdəmi,
Səninlə bir olasıyam - olası!

Etmə məni bu yollarda avara,
Atəşli qəlbimi atma hər dara,
Onsuz da bilirsən, salma azara!
Hicranlıqda qalasıyam - qalası!

Öyünüb gəzərəm sonsuz hər zaman,
Qaçma, gözlərimdən ay aman-aman,
Boş vaxtımda sənsiz bir yaxşı-yaman,
Xəyallara dalasıyam - dalası!

İlk eşqimsən həyatımda əzəldən,
Vəfa umma hər nazənin gözəldən!
Bekar çıxdı aramızı düzəldən,
Bulaq kimi dolasıyam - dolası!

Saxta təklif etməyirəm barı mən,
Könlümə yatmayır sən qədər yetən,
Acılama mən yazığı beytindən,
Bənövşə tək solasıyam - solası!

Unutma, gözəlim, cümlə-kəlməmi,
Özümdən atmışam bütün hər dəmi,
Xan Əsli, Sarıtel, Yanıq Kərəmi,
Bu sazımda çalasıyam - çalası!

İsrailəm, çox aldandım vəsfinə,
Yamanca giribsən eşqin qəsdinə,
Bu işləri nahaqq etmə tərsinə,
Mən ki, Göyçə balasıyam - balası!
Səninlə bir olasıyam - olası!

*Daşkənd şəhəri*
*12.11.1988-ci il.*

# BU DAĞLARDAN O DAĞLARA

Bir qartal tək uçur könül,
Bu dağlardan o dağlara.
İncə ürək titrəyir, bil,
Bu tağlardan o tağlara.

Nəşəmi al aləmə ver,
Bu dərdimi qələmə ver,
Sevinci tut, sələmə ver
Bu sağlardan o sağlara.

Sınsa ürək sağalmaz heç,
Hər yetənə dost olmaz heç,
Çətinlikdən yorulmaz heç
Bu çağlardan o çağlara.

İsrailəm, uçsa könül,
Bənövşə tək açsa könül,
Günahkaram qaçsa könül,
Bu bağlardan o bağlara.
Bu dağlardan o dağlara.

***Daşkənd şəhəri***
***09.04.1979-cu il.***



# DOLANIR

***(bağlama)***

O, nədir ki, iki kiçik zərrədən
Yaranmışdan kainatım dolanır?
Biri mənfi, biri müsbət tənbətən
Yerlə, göylə amanatım dolanır.

Birləşibdir bir-birinə səxavət,
Tanrı hökmü üstlərində kəramət,
Ətrafında düzülübdür nəhayət,
Tam fırlanan varidatım dolanır.

Canlı-cansız onsuz olmaz yəqin ki,
Həyat keçib, həyat dolmaz yəqin ki,
İnkişafda yanıb-solmaz yəqin ki,
Təkan duran zamanatım dolanır.

Ayrı-ayrılıqda özü müstəqil,
Tərkibi hissədən işlənir əqil,
Yığılıb köçürür özündən nəqil,
Xəbər verən xaridatım dolanır.

Nəsiboğlu, fəlsəfəni dərin bil,
Elmi tərəqqini yoxla, tərin bil,
Bütün ölçülərdə ortaq zərin bil,
Anlamağa bəyanatım dolanır.
Yaranmışdan kainatım dolanır.

***Bakı şəhəri***
***09.01.2007-ci il.***



# GƏTİR GÖRÜM

Çıx sinəmə, qoy başını,
Ver busəni, gətir görüm.
Oynat gözü, çat qaşını,
Tez imdada yetir, görüm.

Dadım dadlı ləzzətini,
Duyum eşqin izzətini,
Məleykə tək həzrətini,
Amalımda bitir, görüm.

İntizarı qırağa at,
Xoş günləri sorağa at,
Nəzakəti marağa at,
Fitnə-feli itir, görüm.

Sevgimizə səxavət ver,
Könlümüzə məlahət ver,
Bağçamıza təravət ver,
Çilə qəlbə ətir, görüm.

İsrailəm, yaxın gələk,
Birgə deyək, birgə gülək,
Bir-birmizin qədrin bilək,
Eylə eşqə çətir, görüm.
Ver busəni, gətir görüm.

***Daşkənd şəhəri***
***15.10.1986-cı il.***



# AY GÖZƏL QIZ!

Bəzəyibsən sığal teli,
Düz - çiçək, gül, ay gözəl qız!
Oynat qaşı, nazik beli,
Gəzdirim əl, ay gözəl qız!

Üzün bəyaz  dağ qarıdır,
Yanağın bağça barıdır,
Zərif köynək sapsarıdır,
Oyat bülbül, ay gözəl qız!

Səndə elin tamaşası,
Leyli, Şirin xoş ədası,
Məlahətin boldur xası,
Bunları bil, ay gözəl qız!

Yerişinin heyranıyam,
Əhdimizin peymanıyam,
Bəxtəvərin bəy, xanıyam,
Hicranı sil, ay gözəl qız!

Dodağında şəkər-balım,
Rüsxəti qıl, qeydə qalım,
Qadaları dərhal alım,
Dillənsin dil, ay gözəl qız!

İşvə-nazı dala atma,
Vədəni ver, çox yubatma,
Sevincimə kədər qatma,
Bulama təl, ay gözəl qız!

Mahnılardan zili qaldır,
Görüşlərdən ili qaldır,
Sinən geniş tülü qaldır,
Parlasın ləl, ay gözəl qız!

Vətənindir ulu Gəncə,
Boyun bəstə, qamət incə,
Hörüyündən durub öncə,
Toxu sünbül, ay gözəl qız!

Sevgimizdən xəbər eylə,
Söhbətini şirin söylə,
İsraili teylə-teylə,
Yaxına gəl, ay gözəl qız!
Hicranı sil, ay gözəl qız!

***Bakı şəhəri***
***30.11.1994-cü il.***



# GÜLƏBATIM

*(təcnis)*

Şəbbu yanaq çox yaraşır camala,
Qönçə dodağa gülə-gülə batım.
Sükutdan az qalır üzün cam ala,
Əlləndir buxağa tər gül, əb atım.

Sevgi dünyasında çox tələsimə,
Yanılıb düşərsən tor, tələ, simə,
Qəlbini verəndə bil, təl, əsimə,
Qoyanda əhvalı sər, güləb atım.

Sallanır xoş al gilələr yaxanda,
İnsaf eylə könlü oda yaxanda,
Məqamı seç, tam dürrüstü ya xanda,
Sevin istəyində, qoy gülə batım.

İsrail bəstində süzür ayağı,
Qəsdimə giribsən, vermə ay ağı,
Öldürmə, amandır, atma a yağı,
Yazığam qoynunda, mən Güləbatım.
Sevin istəyində, qoy gülə batım.

***Bakı şəhəri***
***17.04.2007-ci il.***



# ATMARAM

Sənin maral baxışını
Gəlsə aləm, heç atmaram.
Nur saçan ay çıxışını
Öndən keçsə, keç, atmaram.

Bağçalarda bitən gülə,
Min çəmənə, min cür çölə,
Sevgimizi bilsən hələ,
Nə seçirsən-seç, atmaram.

Dağ ətəyi, biçənəyi,
Ətrafında al ləçəyi,
Hey desən də, bilməm nəyi?
Tam biçsən də, biç, atmaram.



Eşqdə yorğun olsam barı,
Unutmaram sən tək yarı,
Çox endirmə başa qarı,
Olsan dəli, gic, atmaram.

Ürəyimdən axan qanı,
İstəsən, verərəm canı,
İsrailəm, bu vicdanı
Çıxsan vecdən, vec atmaram.
Gəlsə aləm, heç atmaram.

***Daşkənd şəhəri***
***13.04.1987-ci il.***



# İLK MƏHƏBBƏTİM

Səni çox axtarıb, yeni tapmışam,
Mənim ey sevgilim, ilk məhəbbətim!
Yuxumu yamanca sənsiz qatmışam,
Mənim ey sevgilim, ilk məhəbbətim!

Bütün bu aləmdə, sonsuz zamanda,
Sonsuz kainatda, sonsuz bir anda,
Axtardım, aradım bax bu cahanda,
Mənim ey sevgilim, ilk məhəbbətim!

Romanlar oxuduq, kinoya baxdıq,
Yağış tək hey yağdıq, sel kimi axdıq,
İldırım oluban göylərdə çaxdıq,
Mənim ey sevgilim, ilk məhəbbətim!

Gözümün önündə büstünü yapdım,
Tufanlar içindən aradım, qapdım,
Ancaq xoşbəxtlikdən, bil, səni tapdım,
Mənim ey sevgilim, ilk məhəbbətim!

Acı sözlərin də mənə şirindir,
Keçmişi yaşadan kəlmələrindir,
Xatirən qəlbimdə hədsiz dərindir,
Mənim ey sevgilim, ilk məhəbbətim!

O xoş günlərimi sənə bağladım,
Könlümü uğrunda odda dağladım,
Ağladım, ağladım, yalqız ağladım,
Mənim ey sevgilim, ilk məhəbbətim!

Əbədi sandığım dərd-qəhərimdir,
Yaddaşda həkk olan iz, bəharimdir,
Bir bunu anlayan Allah-Kərimdir,
Mənim ey sevgilim, ilk məhəbbətim!

İsrail düzünü deyər həmişə,
Başını önündə əyər həmişə,
Özünü səninlə öyər həmişə,
Mənim ey sevgilim, ilk məhəbbətim!
Mənim ey sevgilim, ilk məhəbbətim!

***Daşkənd şəhəri***
***27.04.1989-cu il.***



# AMAN AYRILIQ

Alovsuzam, qovrulmuşam tənha mən,
Aman, dad əlindən, aman ayrılıq.
Tüğyan edir ömrümdən gəlib-keçən,
Aylar, günlər, bütün zaman ayrılıq.

Taleyimdə çox görmüşəm boranı,
İnilti qoparan tarı-kamanı,
Sənin kimi görməmişəm yamanı,
Yamansan, yenə də yaman, ayrılıq.

Ümid yerim bircə yarın əlində,
Nəşə sözüm o şərbətli dilində,
Bahar-yazım gülündədir - gülündə,
İnanmırsan? Coşub ümman ayrılıq.

Xatırlamır yarım dad, aman Allah,
Olubdur qəlbimə yad, aman Allah,
Gümanım səndədir çat, aman Allah,
Qalmayıb heç kəsə güman, ayrılıq.

İsrail divanə itirib səri,
Gözünə başqadır hər hürü-pəri,
Yaralı sinəmə çəkmə xəncəri!
Eylə bu könlümə iman, ayrılıq.
Aman, dad əlindən, aman ayrılıq.

***Sankt-Peterburq***
***26.02.1996-cı il.***



# DÜŞMƏ AXIR

Didəm üstə gəzən gözəl,
Xəyalıma düşmə axır.
Ürəyimi əzən gözəl,
Tök qanımı, içmə axır.

Gözəlliyin səda verir,
Dəyanətin əda verir,
Könül qopur, fəda verir,
Tez önümdən keçmə axır.

İsrailəm, ollam dəli,
And verirəm Rəbbim Əli,
Tut əlimi, söylə: bəli.
Yaman günü seçmə axır.
Tez önümdən keçmə axır.

***Bakı şəhəri***
***25.05.2011-ci il.***





# BU XANIM

Ovsunladı, ürəyimi taladı,
Gözlərilə kəskin baxdı bu xanım.
Şimşək olub tonqalları qaladı,
Qəflətən köksümdən çaxdı bu xanım.

Gülüşündən gül-çiçəklər tökülür,
Buxağı var, lap önündən bükülür,
Bağrım yanır, hey kökündən sökülür,
Könlümə dərdləri yaxdı bu xanım.

Nə insafı, nə mürvəti bilinmir,
Eşq atəşi pak qəlbimdən silinmir,
Ciyər paralandı, qədri dilinmir,
Damarımdan keçib-axdı bu xanım.

Nəvazişi izlər yapır sərimdə,
Qərarım yox tək durduğum yerimdə,
Canı alıb, taqət olmaz dirimdə,
İdrakımı tamam sıxdı bu xanım.

Məlahət var ləhcəsində, səsində,
Leyli, Şirin durub onun bəsində,
Qaşları gərilir kinayəsində,
Kirpiyindən oxlar taxdı bu xanım.

Qığılcımı odlar səpir üstümə,
Nöyüt tökür alovuma, tüstümə,
Yaman girib ömürümə, qəsdimə,
İqbalımı yaxşı yıxdı bu xanım.

İsrailəm, mən, yetimə, pünhan ol,
Nəfəsimlə birgə boşal, birgə dol,
Məhəl tutum ətrafında, sağda-sol.
Məftunluğu başa qaxdı bu xanım.
Gözlərilə kəskin baxdı bu xanım.

***Türkiyə, Ankara***
***08.08.2012-ci il.***

# ÖZGƏSİNƏ

Ətrafına bir nəzər sal,
Fitnə atma özgəsinə.
Mənliyi atıb dərhal,
Taptalatma özgəsinə.

Hər kişinin öz adı var,
Həm dostu var, həm yadı var,
Düz baxışın təzadı var,
Qaşın çatma özgəsinə.

Az eşidib, hey danışma,
Şan-şöhrətdən tez yapışma,
Qeyli-qala heç qarışma,
Ləkə qatma özgəsinə.

Hünərini göstər əvvəl,
Çox deyənə qoyma məhəl,
İsraili bilib əfəl,
Arxa tutma özgəsinə.
Fitnə atma özgəsinə.

***Daşkənd şəhəri***
***24.06.1984-cü il.***



# PAXILIN

İçində qurdu var, tez-tez tərpəşir,
Qarnını, deyəsən, deşir paxılın.
Gecə də, gündüz də qoparır həşir,
Gözləri aləmi eşir paxılın.

Xəsislik göstərir dosta, sirdaşa,
Sızlayır yalandan bacı-qardaşa,
Ürəyi nahaqdan çevrilib daşa,
Bicliyindən əqli bişir paxılın.

Eyni heç doymayır dövlətdən, vardan,
Bir xəbəri yoxdur qeyrətdən, ardan,
Tam vəfa gözləmir sevdiyi yardan,
Nəfsi tüğyan edir, şişir paxılın.

Gicləmə sürətlə gedir başında,
Mənasız görünür ömür yaşında,
İstəklisi yoxdur süfrə, aşında,
Simiclik həddini aşır paxılın.

İsrailəm, yazıqlanır anbaan,
Dönüb-dəyişibdir, olubdur nadan,
Halına hey ağla, yaxşıca bir yan,
Hallanır, idrakı çaşır paxılın.
Simiclik həddini aşır paxılın.

***Sankt-Peterburq***
***05.01.2006-cı il.***



# DESƏM DÜZÜ

Qəm-qəhərin qayğısından
Yorulmuşam, desəm düzü.
Sevinmirəm daha heç an,
Güldürmürəm sifət-üzü.

Çırpınır tənha ürəyim,
Ağrı verir sol kürəyim,
Tanrı, sənə var sürəyim,
Şənləndir qaşımı-gözü.

Sıxıntımı genişləndir,
Yoxuşları enişləndir,
İşlərimi dönüşləndir,
Həll eyləyim onu, yüzü.

Əsəbimi rahatlandır,
Könülümü tez atlandır,
Arzuları qanadlandır,
Həvəs versin eşqin özü.

Ruhlanım mən əməlimlə,
Büsat qurum bu əlimlə,
Nəğmə yapım təməlimlə,
Şeriyyatdan çıxan sözü.

İsrailəm, bir an gülüm,
Qəhərimi danıb silim,
Yar eşidib, yarı dilim,
İncitməsin yanan közü.
Şeriyyatdan çıxan sözü.

*Daşkənd şəhəri*
*17.02.1986-cı il.*



# QƏRAR İÇİNDƏ

Ufultu qoparıb inləyən ürək,
Çırpınma nahaqdan inkar işində.
Sınıbdır eşqimin qanadı gerçək,
Oyanmır həvəsim iqrar içində.

Titrəmə, çox əsmə, boğulma qəti,
Yığışdır üstündən yalan töhməti,
Vəfasız dünyada edib adəti,
Ağlama, sızlama ah-zar içində.

Fəza yaman sıxır, təntiyirəm mən,
Çiynimə yüklənir dərdlər qəflətən,
Keyləşir hissiyyat, duymayır bədən,
Gileyliyəm lap intizar içində.

Məyusluq iqbala ilişir tamam,
Kömbəlir, qıcqırır, hey şişir tamam,
Uğursuz qismətlər səyrişir tamam,
Yoruluram qəmgin aşkar içində.

İsrailəm, ətrafımda qaranlıq,
Çəmənzar yox olub, qalıb samanlıq,
Sevinmirəm, düzü desəm, bir anlıq,
Sarsılıram kəskin qərar içində.
Gileyliyəm lap intizar içində.

***Bakı şəhəri***
***17.11.2008-ci il.***



# GÜLÜB GƏLMƏDİ

Gözləməkdən yorulmuşam,
Nazənin bilib gəlmədi.
Qiyamətdə sorulmuşam,
Kədəri silib gəlmədi.

Vəd vermişdi dünən axşam,
Ərimişəm, olub bir şam,
Qüssələrdə batmışam tam,
Həsrəti dəlib gəlmədi.

Xəbər çatıb çoxdan ona,
Ümid yetib bütün sona,
Əhdimizi yana-yana,
Xəyalda dilib gəlmədi.

Rəfiqəsi yaxındadı,
Gülsənəmdir əsla adı,
Çıxarıb qəlbdən inadı,
Onlara gəlib, gəlmədi.

Səxavəti söyləmişəm,
Ürəkdə yer əyləmişəm,
İsrailəm, neyləmişəm?
Sözümə gülüb gəlmədi.
Xəyalda dilib gəlmədi.

***Bakı şəhəri***
***09.06.2010-cu il.***



# GİLEYLİDİR ELİM HƏLƏ

Torpaqların taleyindən
Gileylidir elim hələ.
Düşmən xəlvət vurur tindən,
Qabar olub dilim hələ.

Allah verib hər neməti,
Rüşvət basıb kəraməti,
Yağı kəsir dəyanəti,
Yana düşür əlim hələ.

Varı çoxdur, hey talandı,
Ətraflara parçalandı,
Nakəs bəylər aralandı,
Əyiləcək belim hələ.

Payladılar məmləkəti,
Aldatdılar bu milləti,
Heç görünmür aqibəti,
Alovlanır külüm hələ.

Dərbənd özü qiyamətdə,
Təbriz sözü qiyamətdə,
Xalqın gözü qiyamətdə,
Çox axacaq selim hələ.

“Yaxşı olar” sözlərindən,
Zülmətlərin üzlərindən,
Qəddarların gözlərindən
Hədələnir ilim hələ.

Ağrıdağım intizarda,
İrəvanım hey azarda,
Zəngəzurum tam bezarda,
Açılmayır gülüm hələ.

Ağlayana pəpə yoxdur,
Zirvələrdə təpə yoxdur,
Qalx millətim! Çəpə yoxdur!
Al torpağı, bilim hələ.

Səngərlərə sinəni gər,
Vursun, qırsın ər oğlu ər,
Yoxa çıxsın üstündən şər,
Ağarmasın telim hələ.

Tarixlərə bir nəzər sal,
Düşdü düşmən - canını al,
Zəfər deyib, qələbə çal,
Hünərlənsin bəlim hələ.

Mübariz ol, ucal, millət!
Öz yurdunda qocal, millət!
Düşmənlərə macal, millət
Vermə, keçsin təlim hələ.



Nəsiboğlu hey çəkər qəm,
Gözlərindən qurumaz nəm,
Göyçə, sənə atsam qədəm,
Zaval yoxdur, ölüm hələ.
Gileylidir elim hələ.

***Gəncə şəhəri***
***17.03.1993-cü il.***



# GÖRMƏDİM

Hey dolandım dünyamızı, a dostlar,
Çoxlarında ağıl, kamal görmədim.
Şan-şöhrət sözünü qovan kəslərdə
Dərin bir mənalı iqbal görmədim.

Saxta, çəp nəzərdə, şıltaq gülüşdə,
Özünü çox dartıb, qaçan yerişdə,
Hər gedən axında, gələn gəlişdə
Düz, abır-həyalı camal görmədim.

Dayaz dəryalarda, daşqın sellərdə,
Özünü hey öyən şirin dillərdə,
Viranlı, kimsəsiz, çılpaq çöllərdə,
Qüdrətli, zəkalı amal görmədim.

İsrailəm, cavan ömrüm talandı,
Yollarıma çır-çırpılar qalandı,
Yazıq könül hər gözələ allandı,
Axır bü könlümdə xoş hal görmədim.
Çoxlarında ağıl, kamal görmədim.

***Daşkənd şəhəri***
***12.06.1989-cu il.***



# BELƏ, XANIM

İstəyimə güman verib,
Niyə baxdın belə, xanım?
Sığal çəkib, qəlbə girib,
Tumar vurdun telə, xanım.

Gülüşün var, durna sayaq,
Ötüşənlər saxlar ayaq,
Bir-birmizə olaq dayaq,
Çox da salma ələ, xanım.

Hürü, pəri ədandadır,
Vurulmağım sədandadır,
Eşqim sənin fədandadır,
Bəxti qoyma felə, xanım.

Rüsxəti qıl, yaxın gəlim,
Uğurunda dursun bəlim,
Həmişə keç mənə təlim,
Cavanam ki, hələ, xanım.

Ürəyimə doğru söylə,
Məhəbbəti burda əylə,
İsraili yorub teylə,
Ancaq etmə kölə, xanım.
Çox da salma ələ, xanım.

***Daşkənd şəhəri***
***03.03.1991-ci il.***



# ODUNA DÜŞDÜ

Tumarlanıb çıxdın bulaq başına,
Qəlbim coşa gəlib oduna düşdü.
Söz atıb, hay etdim qılınc qaşına,
İşarəm güləndə yadına düşdü.

Qamət gözəl, dodaq incə, əl incə,
Yandırdın könlümü səni görüncə,
Arxanca izlədim bayaqdan öncə,
Tərifim təsvirdə dadına düşdü.

İsrail ömründə fəğan eyləyər,
Dərdini hey yığar, sənə söyləyər,
Kövrək ürəyini verib əyləyər,
Həyatım eşqinin badına düşdü.
İşarəm güləndə yadına düşdü.

*Gəncə şəhəri*
*26.04.1995-ci il.*





# BAŞ ƏYƏRDİM

Kaş gələydim o yanına,
Yollarında pul səpəydim.
Nazik, incə əllərindən
Dönə-dönə hey öpəydim.

Sevgi bağın gülşəninə,
Çöllərinə, çəməninə,
Həm uzuna, həm eninə,
Çoxlu-çoxlu gül əkəydim.

Heyran qoyan gözlərinə,
Ay çıxışlı üzlərinə,
Şirin-şirin sözlərinə
Lazım olsa, diz çökəydim.

Tənhalıqda günlər saydım,
Uğurunda çalışaydım,
Od tutuban alışaydım,
Yaxşı-yaxşı bir sökəydim.

Şux baxışlı qamətinə,
İzzətinə, ismətinə,
İsrailəm, sinə-sinə
O önündə baş əyəydim.
Lazım olsa, diz çökəydim.

***Daşkənd şəhəri***
***20.09.2000-ci il.***



# DÜZÜM ƏTRAFINA

İsmi pünhan sifariş et,
Güllər düzüm ətrafına.
Bülbül kimi qanad açım,
Uçub süzüm ətrafına.

İncə beli yaxşı oynat,
Əndamından bir işvə at,
Ortalıqda quraq büsat,
Baxsın gözüm ətrafına.

Gəlsin mahnı, səs telinə,
Uzat hörük, bəs telinə,
Sığalları kəs telinə,
Yarat dözüm ətrafına.

Qaşlarını mağul eylə,
Mənə yetir, dürüst söylə,
Qəm-kədəri qaçıb teylə,
Sevgi çözüm ətrafına.

Aramızda hörmət olsun,
Qəlbi açan izzət olsun,
Etibara qüvvət olsun,
Maraq sezim ətrafına.

Tez-tez enim qənşərinə,
Düşüm eşqdə lap dərinə,
Ləzzəti qoy təhərinə,
Baxıb gəzim ətrafına.

Həmdəmliyə sərəncam ver,
Könlümüzə bir əncam ver,
Əqlimizə təmkin-cam ver,
Həsəd büzüm ətrafına.

Gileylərin yoxa çıxsın,
Günəş şəfəq saçıb, yaxsın,
Asimandan üfüq axsın,
Gülsün üzüm ətrafına.

Təmtəraqlı keçsin ömür,
Al çiçəklər biçsin ömür,
Gülab töküb, içsin ömür,
Sinə əzim ətrafına.

İsrailə sətir qoyaq,
Hissiyyata ətir qoyaq,
İstəklərə çətir qoyaq,
Özün - özüm ətrafına.
Güllər düzüm ətrafına.

***Daşkənd şəhəri***
***08.01.1989-cu il.***





# ÖZÜ BƏSTƏDİR

Bu gün bir gözəli gördüm gedərkən.
Qaməti bəstədir, özü bəstədir.
Baxanda üzünə getdim özümdən,
Ay kimi o yanan üzü bəstədir.

Məni mat eylədi, dözə bilmədim,
Halımı itirdim, deyib-gülmədim,
Yerimdə dayandım, yaxın gəlmədim,
Yerişdə baldırı, dizi bəstədir.

Ağzını açanda aldı canımı,
Sökdü ürəyimi, tökdü qanımı,
Qopardı əlimdən ruh-imanımı.
Şirin söhbətləri, sözü bəstədir.

Saçını tökübdür gərdənin üstə,
Dişləri mirvari, dodağı püstə,
Xahiş et gözəldən, bir busə istə,
Sataşdı gözümə, gözü bəstədir.

İsrail, qəlbinə od qalıbdır bu,
Əqlini başından tez alıbdır bu,
Tonqal qalayıbdır, köz salıbdır bu,
Yapdığı alovun közü bəstədir.
Qaməti bəstədir, özü bəstədir.

***Bakı şəhəri***
***19.04.2004-cü il.***



# ÖZ YARIMA

Göyərçin tək uçub gəlib,
Bir baxaydım öz yarıma.
Ayrılığı dərhal silib,
Kaş deyəydim döz yarıma.

Qoşqardağdan qar gətirib,
İntizarı həm itirib,
Könülümdə gül bitirib,
Yönəldəydim düz yarıma.

Ehtiramla ataydım əl,
İşarəmlə deyəydim gəl.
Qucaqlaşıb əvvəl-əvvəl,
Söykəyəydim üz yarıma.

Nəğmələrdə laylay çalan,
Xatirəmdə tamam qalan,
Ürəyimdə xallar salan.
Söyləyəydim söz yarıma.

Eşqimizdən söhbət açıb,
Məhəbbətdən şölə saçıb,
İşvəsinə qaçıb-qaçıb,
Gəzdirəydim göz yarıma.

Gördüyümdən bəhs edərdim,
Yanar qəlbdən od verərdim,
İsrail, olmazdı dərdim,
Göstərəydim köz yarıma.
Bir baxaydım öz yarıma.

***Sankt-Peterburq***
***30.07.1995-ci il.***



# AY ŞƏHƏRLİ QIZ!

Dəniz suyu giləlònib üstündə,
Çiməndə tullanma, ay şəhərli qız!
Günəş parlar əlvan canlı büstündə,
Uzaqda yubanma, ay şəhərli qız!

Qəh-qəhindən aləm nura bürünüb,
Quma bələnibsən, tamam kürünüb,
Uzanıbsan bu sahildə sürünüb,
Baxıb çox utanma, ay şəhərli qız!

Su sonası demək sənə az olar,
Çılğınlığın töhfələri saz olar,
Yerişində nə çox belə naz olar?
İşvədə usanma, ay şəhərli qız!

Buxununa göz qoyuram səhərdən,
Xəyalımda hey soyuram səhərdən,
Ləzzətimdən uyuyuram səhərdən,
Dərində sulanma, ay şəhərli qız!

İsrailəm, vurulmuşam bədənə,
Sənsiz ölləm, bürünərəm kəfənə,
Gedəndə deyərsən halı nənənə,
Atəşdə qalanma, ay şəhərli qız!
İşvədə usanma, ay şəhərli qız!

***Bakı şəhəri***
***15.08.2004-cü il.***



# GÜL XANIMI

Dərdim yenə təzələndi,
Gördüm bu gün gül xanımı.
Qəlbim endən özələndi,
Sezəndə sünbül xanımı.

Xasiyyəti xoş-xətirli,
Söhbəti var düz-sətirli,
Çiçək kimi tər-ətirli
Bəzəyib tel-tel xanımı.

Artırır əndam iştahı,
Çoxaldır ürəkdə ahı,
Parladır sifətdə mahı
Asılan zər-tül xanımı.

Şikəstə yapır sözünə,
Gözüm ilişir gözünə,
Qiymətmi çatar özünə?
Tərifləyər dil xanımı.

Şən görünür təzə donda,
Görünməsə çox zamanda
İsrailəm, eşqim onda,
Gözlər neçə il xanımı.
Tərifləyər dil xanımı.

***Daşkənd şəhəri***
***14.08.1992-ci il.***



# GÜNLƏR ÖTÜŞÜR

Mənalı, mənasız günlər ötüşür,
Çatırıq astaca ömür başına.
Qocalar keçmişə baxıb gülüşür,
Etdiyi yanlışa, cavan yaşına.

Görünmür, sonradan nələr olacaq?
Kimin pərişanlıq saçın yolacaq,
Qəlbləri kədərlə, qəmlə dolacaq,
Enəcək həyatın çətin qaşına.

Fələk oturubdur dəyirmanında,
Üyüdür gərdişi kefli anında,
Deyirlər, hökmü var hər zamanın da,
Keçirsən dərdlərin toy-şabaşına.

Nəsiboğlu, həyatımız anidir,
Dilimiz müqəssir, bədən canidir,
Bilirikmi, dünya axır fanidir?
Düşürük taleyin yüz savaşına.
Çatırıq astaca ömür başına.

***RF, Voljsk şəhəri***
***11.09.2009-cu il.***



# KİM BİLƏCƏK?

Qədir bilən yar olmasa,
Kədər-qəmi kim biləcək?
Ürək yanıb heç dolmasa,
Gözdə nəmi kim biləcək?

Eşqi qoru xəyanətdən,
Nəşələr al səadətdən,
Sevin sevgi-məhəbbətdən,
Gələn dəmi kim biləcək?

Bir oturub, bir yeyəsən,
Bir danışıb, bir deyəsən,
Fikir vermə hər şeyə sən,
Qəlbdə bəmi kim biləcək?

Unutma dostu-sirdaşı,
Aldatma yolda yoldaşı,
Atma özündən qardaşı,
Dərddə cəmi kim biləcək?

İsrailəm, göydə fələk,
Yazır-pozur hər gün mələk,
Nankor olub etmə kələk,
Cəhənnəmi kim biləcək?
Kədər-qəmi kim biləcək?

***Bakı şəhəri***
***09.12.2007-ci il.***



# SÖKDÜN NAHAQDAN

Bu ömrümə qəsd eylədin bilərək,
Yollarıma çəpər çəkdin nahaqdan.
Yaxşını, düzgünü dərhal silərək,
Böhtanı önümə tökdün nahaqdan.

Qismətimə yamanları gətirdin,
Çətin günü, amanları gətirdin,
Bəd həyatı, zamanları gətirdin,
Hicranı eşqimə seçdin nahaqdan.

Fitnələr edərək tökmə zəhəri,
Gözümə kədəri, qəmi, qəhəri,
Eyləmə əhvalı acı təhəri,
Mənsiz şərbətimi içdin nahaqdan.

Sevgi bağım qanqallara ilişdi,
Hey dalıyan tikanlara ilişdi,
Bağbana yox, nadanlara ilişdi,
Cırlaşmış kol-kosu əkdin nahaqdan.

Paxıllıq əliylə yordun halımı,
Pozdun işlərimi, çapdın malımı,
Qayçıyla doğradın paltar, şalımı,
Qara atlasları biçdin nahaqdan.

Yıxılan ağacı baltalamazlar,
Məhsullu bostanı çox talamazlar,
Sevən ürəkləri taptalamazlar,
Büdrədim, üstümdən keçdin nahaqdan.

Sinəm üstə od qaladın gülərək,
Közlər basıb, çox daladın gülərək,
Günahları malaladın gülərək,
Sonradan dizinlə çökdün nahaqdan.

Fələkdən bac alma bəd nəfəsinlə,
Hörmətin görünmür ətraf, kəsinlə,
Quyu susuz qalıb doymaz nəfsinlə,
Gözü var-dövlətə dikdin nahaqdan.

İsrail düşübdür sənin toruna,
Çiskinli dumana, çənin toruna,
Vicdansız bir ifritənin toruna,
Bütün bu dünyamı sökdün nahaqdan.
Böhtanı önümə tökdün nahaqdan.

***Bakı şəhəri***
***27.04.2003-cü il.***



# YANIMA NƏZƏRİN

Qıya baxıb, oda yaxdın,
Düşüb canıma nəzərin.
Dar fəzamda yaman çaxdın,
Çatır anıma nəzərin.

Dəyanətdən xəbərin var,
Ver qəlbini, ilham qopar,
Ümidimdə qalıb qərar,
Qalxıb şanıma nəzərin.

Tez əmr qıl, olum qulun,
Fədasıyam, sən tək dulun,
Dəyərisən milyon pulun,
Enib sanıma nəzərin.

Hürü-mələk şux qismində,
Xoş kəlamlar düz ismində,
Ruhum gəzir xub cismində,
Axır qanıma nəzərin.

İsrailəm, dur binnət et,
Bəli söylə, min minnət et,
Bu yerimi bir cənnət et,
Yatsın yanıma nəzərin.
Qalxıb şanıma nəzərin.

***Daşkənd şəhəri***
***19.05.1984-cü il.***



# QIYQACI BAXMA

Kirpiyini endir, qıyqacı baxma,
Mənalı gözünün əsirindəyəm.
Ürəyi kövrəldib, yandırıb-yaxma,
Onsuz da eşqinin kəsirindəyəm.

Qalmışam iztirab içində yaman,
Tənhalıq əlindən edirəm aman,
Uzanır təşvişlər, uzanır zaman,
Yoxuş-enişlərin nəsirindəyəm.

Yetir imdadıma şirin sözünü,
Danış keçənləri, doğru-düzünü,
Göstər qara xalı, bəyaz üzünü,
Maral tək çıxışın həsirindəyəm.

Əməlin kəlama uyğun gəlməyir,
Nəzərin ətrafı dəqiq bilməyir,
Köksümdə toz salan külü silməyir,
Tənəli söhbətin təsirindəyəm.

Nəsiboğlu yorulubdur çöllərdə,
Peyda olub hey fırlanır dillərdə,
Bəxtim küsüb, oyanmayır əllərdə,
Sevgi aləminin yesirindəyəm.
Mənalı gözünün əsirindəyəm.

***Daşkənd şəhəri***
***02.04.1990-cı il.***



# GƏZƏR BU DÜNYADA

İnsan ömrü bir çay kimi,
Axıb gəzər bu dünyada.
Zəkasıyla çiçək açar,
Rəvan bəzər bu dünyada.

Gahdan axar sakit, tam lal,
İzlər yapar, köndələn xal,
Acı zəhər, həm şirin bal,
Dümdüz süzər bu dünyada.

Varidatdan doymaz gözü,
Sevinc, qüssə qapar üzü,
Qıvrımlaşıb dağı, düzü,
Yorğun üzər bu dünyada.

Dərya qədər coşar birdən,
Yoxuşları aşar birdən,
Yollarında daşar birdən,
Büsat düzər bu dünyada.

Şəlaləsi nərə salar,
Xəyallara donub dalar,
İstəyində nakam qalar,
Dodaq büzər bu dünyada.

Ümman olub çırpınar hey,
Sevgi qurub, hey yanar, hey,
İmdadını tez danar hey,
Qəlblər əzər bu dünyada.

Yarğanlarda durmaz qəti,
Fəth eyləyər zəlaləti,
Öndə tutar məhəbbəti,
Çətin, bezər bu dünyada.

Sonsuz qalmaq qədəri yox,
Əbəsində hədəri yox,
Kainatda kədəri yox,
Nəyi sezər bu dünyada?

İsrailəm, məna dərin,
Qiyməti var cövhər-zərin,
Sözü qalar aqillərin,
Ötər nəzər bu dünyada.
Çətin, bezər bu dünyada.

***Bakı şəhəri***
***30.01.2011-ci il.***



# BƏNZƏDİ SANKİ

Axşamçağı bir gözəli görmüşəm,
Duruşu ceyrana bənzədi sanki.
Baxışı can alır, dərhal sevmişəm,
Nəzərdə pünhana bənzədi sanki.

Gözləri parlayır öndən dinəndə,
Qəflətən əyilib yönə çönəndə,
Kirpiyi uzanır oxa dönəndə,
Qaşları kamana bənzədi sanki.

Qətiyyət qoymuşdur nazlı surətə,
Töhfələr vermişdir abır-ibrətə,
Kəramətə, nəzakətə, hörmətə,
Gəlmiş din-imana bənzədi sanki.

Yanına gələndə tutuldu nitqim,
Çaşmışdı əhvalım, kimliyimdə-kim,
Dolaşdı ayağım, dolaşdı dilim,
Qəzəbli tufana bənzədi sanki.

Sözündə kəskinlik hər an duyuram,
Təlimindən mehribanlıq soyuram,
Məhəbbətə nümunələr qoyuram,
Təmkinli canana bənzədi sanki.

Nəsiboğlu qənşərində dolanır,
Ətrafında hey fırlanır, bulanır,
Alovdadır, odlarında qalanır,
Sevgidə divana bənzədi sanki.
Qəzəbli tufana bənzədi sanki.

***Sankt-Peterburq***
***14.06.1999-cu il.***



# GÖTÜR MƏNİ

Bu dağların dağ qızısan,
Al-əlvandır əynin, başın.
Qarları tək ağ qızısan,
Piyalədir gözün, qaşın.

Dəhan sərasər dişlərdə,
Dartınırsan gedişlərdə,
Valeh etdin gəlişlərdə,
Eylə axır öz sirdaşın.

Adın nədir, ay gözəl qız?
Getmə uzaq, qoydun yalqız,
Olma belə çox amansız,
Qəhərlənib didən-yaşın.

İsrailəm, sənə bağlı,
Könlümü gəl etmə dağlı,
Vədləri ver şirin, yağlı,
Götür məni, eşq-yoldaşın.
Eylə axır öz sirdaşın.

*Göyçə mahalı*
*13.05.1977-ci il.*



# GÖDƏK

Tərlan eşqin qanadları sınıbdır,
Səma böyük, ömür qısa, gün gödək.
Ürək kövrəlibdir, çoxdan yanıbdır,
Döyünməyir, qəfəs dardır, en gödək.

Hey dartınır əsəblərim dibindən,
Qopur, qaçır əhvallarım dəbindən,
Tez yorulur, güc azalır təbindən,
Yol qısalır, genliyində gen gödək.

Ərşə qalxır hayqırlarım yamandan,
Səmt korlanır qatılaşmış dumandan,
Əqlim küsür həm gileydən, amandan,
Əyalətdə çabalayan ün gödək.

Təngə gəlib, səcd eyləmək yalandır,
Həsrət çəkmə, bəxt-yığvalda talandır,
Dünya malı bu dünyada qalandır,
İnam kəmdir, kəramətdə din gödək.

Səs qaldırır, küylər salır hər gədə,
Baş götürür, qaçır-qaçır nər dədə,
Nəsiboğlu yuvarlanır döngədə,
Haqqın sözü həqiqətdə tən gödək.
Səma böyük, ömür qısa, gün gödək.

***Bakı şəhəri***
***07.10.2007-ci il.***



# ƏNDAM

Səhər-səhər günəş kimi
Nə çıxıbdır çölə Əndam?
Onun qədər düz qamətli
Düşməz əldən-ələ Əndam.

Boğaz nazik, şən avazlı,
Görünüşü işvə-nazlı,
Yerişində qazlı-qazlı,
Üz tutubdur gölə Əndam.

Qaşı çatma, bənzər yaya,
Müjkan oxu atır haya,
Üzü parlaq, dönüb aya,
Boylanır hey, hələ Əndam.

Şirin-şirin gülüşü var,
Al butadan bölüşü var,
Xoşa gələn gəlişi var,
Kaş bu yana gələ Əndam!

Sanki, qəlbi olubdur daş,
Gözlərimdən tökülür yaş,
Razılığı verəydi kaş,
Edib məni kölə Əndam!

Buxununa heyran oldum,
Yorulmuşam, endən doldum,
Saralıban tezcə soldum,
Yanıb döndüm külə, Əndam!

İsrailəm, özüm yolda,
Axtarıram, sözüm yolda,
Gözləyirəm, gözüm yolda,
Az qalıb bir ilə, Əndam.
Kaş bu yana gələ, Əndam.

***Kazan şəhəri***
***29.09.1995-ci il.***

# AMANDI

Başınla işarə burub ahəstə,
Qəlbimə şimşək tək çaxma, amandı.
O, qara gözünlə eyləyib xəstə,
Qıyqacı-qıyqacı baxma, amandı.

Nazın, qəmzələrin bərabəri yox,
Etdiyin işvənin sərasəri yox,
Vurduğun tənənin heç bir təri yox,
Sinəmə oxları taxma, amandı.

İsrailə biganəlik yayma sən,
Həqiqətin gözlərini oyma sən,
Dərisini asta-asta soyma sən,
Soyanda, duz töküb yaxma, amandı.
Qıyqacı-qıyqacı baxma, amandı.

***Bakı şəhəri***
***26.09.1996-cı il.***





# SEVGİ SÖZÜNÜ

Ay qız, dərdim agah olsun,
Əlləndir sevgi sözünü.
Oxuduğun segah olsun,
Dilləndir sevgi sözünü.

Məhəbbətə qiymət eylə,
Şirin danış, şirin söylə,
Təravətli gülü iylə,
Yelləndir sevgi sözünü.

Çiçəkləri döşünə düz,
Səadətin içində üz,
İşvələrlə həm on, həm yüz,
Bələndir sevgi sözünü.

Həyatını maraqlandır,
Qaş-telini daraqlandır,
Roman yarat, varaqlandır,
Ələndir sevgi sözünü.

Ürəkdə niskil qalanda,
Xəyal yollarda dalanda,
Dağ başını qar alanda
Selləndir sevgi sözünü.

İsrailəm, sevin, yaşa,
İsmətini vurma daşa,
Ömrümüzü keçir qoşa,
Şelləndir sevgi sözünü.
Dilləndir sevgi sözünü.

*Sankt-Peterburq*
*17.06.1995-ci il.*



# LİDANIN

Sərçə balası tək büzüşüb, durub,
Şaxtadan qızarıb üzü Lidanın.
Hörüyü gərdəndə toplayıb, burub,
Şirindir söhbəti-sözü Lidanın.

Qaşları nazikdir, xəncərə bənzər,
Kirpiyin üstünə səpələnib zər,
Mavi gözlərində çırpınır nəzər,
Can alır kirpiyi, gözü Lidanın.

Dodağı xurma tək yetişib endən,
Məleykə qanı var, verilib gendən,
İsməti Tanrıdan, imanı-dindən,
Yerişdə gözəldir dizi Lidanın.

Peterburq şəhəri olub vətəni,
Qardan ağ görünür şümşad bədəni,
Valehə salıbdır yoldan ötəni,
İncədir qamətdə özü Lidanın.

İsrail vurulub bu rus qızına,
Varmır qismətinin nə çox-azına,
Şükürəm, İlahi, pozu-yazına,
Nə qəşəng alışır közü Lidanın.
Can alır kirpiyi, gözü Lidanın.

***Sankt-Peterburq***
***19.03.2000-ci il.***



# ÇÖKÜB QOPARMA

Baxışınla od ələyib,
Könlümü söküb qoparma.
Qamətini dərhal əyib,
Közləri töküb qoparma.

Gözlərini üzərimə,
Nəzərini nəzərimə,
Yorulmadan bezərimə
Bəbəyi dikib qoparma.

İntizarı otağıma,
Hara getsəm, qabağıma,
Həm soluma, həm sağıma
Həvəslə əkib qoparma.

Ürəyimi bu sinəmdən,
Kədərlərdən, həm də qəmdən,
Həmişəlik tez əlimdən
Xəlvəti çəkib qoparma.

İsrailə peyman olub,
Evimizdə mehman olub,
Qənşərimdə bir dan olub,
Üstümə çöküb qoparma.
Könlümü söküb qoparma.

***Daşkənd şəhəri***
***30.04.1990-cı il.***



# GƏL, SƏNƏ SARI

Qismində dolanır mənim xəyalım,
Canlanır tamaşa, bil, sənə sarı.
Yadıma düşəndə gəncləşir halım,
Qayıdır keçmişdən il sənə sarı.

Gizlənib önümdə səadət gülür,
İstəklər çoxalır, lətafət gülür,
Çiçəklər açılır, təravət gülür,
Köksümdən boylanır gül sənə sarı.

Xatirə dəftərim hey vərəqlənir,
Günəşin şəfəqi üstümə enir,
Sevinclər səslənir, dinir həm dinir,
Dillənir sözümdə dil sənə sarı.

Yaxşı ki, qəlbimdə saxladım səni,
Bürüdüm, qorudum, yoxladım səni,
Tez-tez yada salıb qoxladım səni,
Uzanır eşqimdən əl sənə sarı.

Atmıram sinəmdən gələn ahları,
Ötən günlərdəki çox günahları,
Ümidsiz boylanan sübh-sabahları,
Didəmdən tökülür sel sənə sarı.

Yorulmaq bilmirəm, doğrudur sözüm,
Qorxur itirməkdən, qırpınmır gözüm,
Cismimdə başqayam, ruhumda - özüm,
İsrail yalvarır: - Gəl, sənə sarı!
Uzanır eşqimdən əl sənə sarı.

***Bakı şəhəri***
***17.06.2010-cu il.***



# QALIM SƏNDƏ

Ay gözəlim, bir fərman yaz,
Həmişəlik qalım səndə.
Sevincləri, xoşbəxtliyi,
Səadəti çalım səndə.

Gülümsəsin eşqdə əzəl,
Dindir qoşma, həm də qəzəl,
Yox olsun bağdakı xəzəl,
Xəyallara dalım səndə.

İntizarı uzağa at,
Şənlikləri günlərə qat,
İstəyinə həmişə çat,
Qüssələri salım səndə.

Ürəyini eylə geniş,
Yollarında olsun eniş,
İsraildə yarat dönüş,
Qadaları alım səndə.
Həmişəlik qalım səndə.

***Daşkənd şəhəri***
***17.04.1988-ci il.***



# AY GÖZƏL

Töhmətindən, söhbətindən yanıram,
Alovsuz közləri qala, ay gözəl.
Həmişə, hər zaman səni anıram,
Şikəstə könlümü tala, ay gözəl.

Diləyirəm bir yalnız səndən imdad,
Ayrılıq əlindən edirəm hey dad,
Hicranlı günümü, sən Allah, tez at
Arxaya, qırağa, dala, ay gözəl.

Bu cavan ömrümü etmə havayı,
Qarşıma hey tutma ahları-vayı,
Kədərli günləri, illəri, ayı,
Fikir ver hər sağa, sola, ay gözəl.

Hər gecəm, hər günüm intizardadı,
Bəxtim gah o darda, gah bu dardadı,
Bu divanə eşqim hey azardadı,
Qoyma bu gözlərim dola, ay gözəl.

Qəzəlsiz, qoşmasız keçinir tarım,
Hey qara, çovğuna düşür baharım,
Yalnız tək bənövşə qalıb növbarım,
Soldurma, qoyma sən sola, ay gözəl.

Vurğunu olmuşam o gül yanağa,
O ala gözlərə, bəyaz buxağa,
O yaqut dişlərə, püstə dodağa,
O şirin dildəki bala, ay gözəl.

İzin ver, mən çıxım bu tənhalıqdan,
Zülmət dünyasından, bu hicranlıqdan,
Kaş qalan ömrümüz bu amanlıqdan
Yaşayıb - yaratmış ola, ay gözəl.

Tamarzı qalmışam ay çıxışına,
Könlümü oxşayan gül baxışına,
O ox kirpiyinə, çatma qaşına,
Üzündə görünən xala, ay gözəl.

Baxaydıq dünyanın zər torpağına,
Sirli bu həyatın şirin çağına,
Sevgi aləminin gülşən bağına,
O uca dağdakı yola, ay gözəl.

Bir aşiq istərəm ömrün yazında,
Hamını mat qoyan zil avazında,
Dədə Qorqudumun köhnə sazında,
O eşqi-naməni çala, ay gözəl.

Çıxaydıq Kəpəzin o al qoynuna,
Doyunca baxaydım gözəl boynuna,
Gəlin libasında o şən oynuna,
O incə barmağa, qola, ay gözəl.



O ağıl-kamalın, şirin gülüşün,
O söz-söhbətlərin, nazlı yerişin,
Günəş tək yanımdan parlaq ötüşün,
Az qaldı canımı ala, ay gözəl.

İsraili xəstə etmə, amandı,
O Əsli əlindən Kərəm də yandı,
Məcnunu çöllər də, dağlar da dandı,
Salma axır nahaqq hala, ay gözəl.
Alovsuz közləri qala, ay gözəl.

***Daşkənd şəhəri***
***25.04.1989-cu il.***



# AY SARITƏPƏ!

Uşaqlıq illərim üstündə keçib,
Necə də əzizsən, ay Sarıtəpə!
Neçə min karvanlar yolüstü seçib,
Dincəlibdir hərdən, ay Sarıtəpə!

Tullanıb qaçardıq ağızlarında,
Daldeyi olubsan yalqızların da,
Qocalar, cavanlar, həm qızların da
İstək həmdəmisən, ay Sarıtəpə!

Sirdaşı deyildin ağıldan kütün,
Əylənib durardı əkənlər tütün,
Sarı daşlarından kəndimiz bütün
Görünərdi hey şən, ay Sarıtəpə!

Bilmirəm, obasız hal necə olar?
Mahalın izləri köksündə qalar,
İsrail xəyalda dolanar, dolar,
Əbədi məndəsən, ay Sarıtəpə!
Necə də əzizsən, ay Sarıtəpə!

***Daşkənd şəhəri***
***30.06.2001-ci il.***



# GÖZ OXŞAYIR

Tumarlanıb gələn sənəm,
Xoş qamətin göz oxşayır.
Tək qarşına çıxan mənəm,
Söhbətlərin söz oxşayır.

Sarı tellər tökülübdür,
Al yanağa bükülübdür,
Ürək yaman sökülübdür,
Qəlbə tamam düz oxşayır.

Çatma qaşlar oraq kimi,
Kirpiklərin daraq kimi,
Ala gözlər soraq kimi.
Qara xallar üz oxşayır.

Köynək yuxa, beli nazik,
Sinəsində tülü nazik,
Ortasında gülü nazik,
Əndamını bez oxşayır.

Ətrafından ətir gəlir,
Qəm-qüssəni atıb silir,
Kinayəni yaxşı bilir,
Yerişlərin iz oxşayır.

Nəzərində qiymət vardır,
Adətmizə hörmət vardır,
Davranışda ismət vardır,
Həssaslığı tez oxşayır.

Görünüşün sehirlidir,
Şən əhvalın mehirlidir,
İsrailə möhürlüdür,
Yanan sinəm köz oxşayır.
Xoş qamətin göz oxşayır.

***Daşkənd şəhəri***
***12.11.1990-cı il.***

# YOLDA MƏN

Gəlişinə quzu kəsim, ay gözəl.
Həsrətini çox çəkmişəm yolda mən.
Həm istidə, həm soyuqda, boranda,
Həm kölgəli, qol-budaqlı kolda mən.

Vurulmuşam o şax duran boynuna,
Su çilərəm tək getdiyin yoluna,
Asta yeri, mən də girim qoluna,
Hey öyünüm düz qabaqda, solda mən.

İsrailəm, gözəllərə vəfa yox,
Küsdürüblər vurğun eşqi yaman çox,
Atsan əgər bu könlümə bircə ox,
Ölməyəydim yarı yolda, qolda mən.
Həsrətini çox çəkmişəm yolda mən.

***Daşkənd şəhəri***
***17.05.1984-cü il.***





# GÖRMÜŞƏM

Dünyamızı ilk nəzərdən,
Bütövlükdə bəs görmüşəm.
Hər gedərdən, hər gələrdən,
Mirasa həvəs görmüşəm.

Yaradılan kainatda,
Hərc-mərclikdə, amanatda,
Yeridilən bəyanatda
Şeytani-iblis görmüşəm.

Sirr olaraq qalır bizə,
Başdan-başa var möcüzə,
Xaridatda düşsəm izə,
Fəlsəfədə pəs görmüşəm.

Nəzarətdə durur daim,
Kim fironluq eyləyir, kim?
Nəsiboğlu, hanı hakim?
Yöndəmsiz əbəs görmüşəm.
Şeytani-iblis görmüşəm.

***Bakı şəhəri***
***12.06.2007-ci il.***



# SEÇDİN NAHAQDAN

Taleyin amansız qollarındayam,
Bu çətin anları seçdin nahaqdan.
Zillətli, zülümlü yollarındayam,
Qəflətən qarşıma keçdin nahaqdan.

Ah-nalə qopardın, yalvardın mənə,
Kalan vədlər verdin getdiyim önə,
Sinənə döyürdün hey dönə-dönə,
Andları yalandan içdin nahaqdan.

Bilmədim, haradan gəlib çıxmışdın,
Kimlərin eşqini yenə yıxmışdın,
Etdiyin əməldən, sanki, pıxmışdın,
Təsadüf altında düşdün nahaqdan.

Ortada min sifət yaratdın ancaq,
Nəfsin qeyzə gəldi, tez atdın ancaq,
Nəşəmi zəhərə yollatdın ancaq,
Tutduğun mövgeylə çaşdın nahaqdan.

Nəsiboğlu təngə qalıb felinlə,
Yaramaz, saxtakar, yağlı dilinlə,
Qara parçaları tutub əlinlə,
Bəxtimə libası biçdin nahaqdan.
Qəflətən qarşıma keçdin nahaqdan.

***Bakı şəhəri***
***17.12.2001-ci il.***



# GENDƏN BAXIRSAN

Siyah teli töküb üzə,
Nə yaman gendən baxırsan.
Kirpiyinlə süzə-süzə,
Uzundan, endən baxırsan.

Ağ köynəyin çox yaraşır,
Sevinən hallar qarışır,
Küsənlər indi barışır,
Səmtə bu gündən baxırsan.

Qısqanıram yan-yörənə,
Vurulmuşam inan sənə,
İşvə atıb hər yetənə,
Demə, dərindən baxırsan.

Haqqım yoxdur danlamağa,
Mən qul olum, sənsə ağa,
Qaymaq sürtüb al dodağa,
Gözlə qəlbindən baxırsan.

Oğrun-oğrun belə durub,
Boynunu tez büküb, burub,
İsrailə yara vurub,
Xoşbəxtliyindən baxırsan.
Uzundan, endən baxırsan.

***Bakı şəhəri***
***19.03.2006-cı il.***



# ONDA YOXLA DOSTUNU

Dəhşətli yol keçəndə,
Onda yoxla dostunu.
Acı şərbət içəndə,
Onda yoxla dostunu.

Bəxtin daşa dəyəndə,
Qismət başın əyəndə,
Ümid özün öyəndə,
Onda yoxla dostunu.

Qəm oduna yananda,
Nahaqq-haqqı danandа,
İztirabı ananda,
Onda yoxla dostunu.

Etibarlıq enəndə,
Yalan, böhtan dinəndə,
Şər xeyiri yenəndə,
Onda yoxla dostunu.

Bölüşməyə qayğı çox,
İmdad sözü olsa yox,
Kürəyindən dəysə ox,
Onda yoxla dostunu.

Qüssələri sezəndə,
Kədər qəlbi əzəndə,
Özlüyündən bezəndə,
Onda yoxla dostunu.

Dərdin həddi aşanda,
Qəliz, cılız coşanda,
Biganəlik daşanda,
Onda yoxla dostunu.

Yan çevirən hər kəsdə,
Öyrən, doğrunu bəsdə,
Qeyli-qalda, əbəsdə,
Onda yoxla dostunu.

Dar günündə, amanda,
Çaşqınlıqda, yamanda,
Ürəyinə damanda,
Onda yoxla dostunu.

Yoxuşlarda, gədikdə,
Hər döngədə, hər dikdə,
Köməksiz bir yedikdə,
Onda yoxla dostunu.

İlişəndə çətinə,
İşin düşəndə pinə,
Yardım umsan səmtinə,
Onda yoxla dostunu.



İsrail, dardır cahan,
Həyat özü imtahan,
Ayılanda hər bir an,
Onda yoxla dostunu.
Onda yoxla dostunu.

***Bakı şəhəri***
***12.06.2008-ci il.***



# SÜRÜYƏR SƏNİ

Vəfasız kəslərə etibar etmə,
Yıxıb ortalıqda sürüyər səni.
Namərdin heç zaman felinə getmə,
Hər şərə, böhtana bürüyər səni.

Bir qara pul təki qırağa atar,
Aldadıb qul kimi bazarda satar,
Ömrünə od vurub tonqallar çatar,
Sonra da külünlə kürüyər səni.

Nəsiboğlu dürüst baxar üzlərə,
Fikir verməz nadan olan yüzlərə,
Nankor rüsvay edib, salıb düzlərə,
Bütün sona qədər hürüyər səni.
Yıxıb ortalıqda sürüyər səni.

***Bakı şəhəri***
***11.12.2008-ci il.***





# TÜRKÜN DİYARI

Bu yerləri çox gəzmişəm,
Alagöz yarı yaxşıdır.
Gözəl qızları sezmişəm,
Söz-etibarı yaxşıdır.

Al çiçəklər yanağında,
Bal-qaymaqlar dodağında,
Narın tərlər buxağında
Həm intizarı yaxşıdır.

İstək verir gələnlərə,
El qədrini bilənlərə,
Mehriban nur çilənlərə,
Sübhü - naharı yaxşıdır.

Nəğmələri hey coşdurur,
Könülləri ovuşdurur,
Ünsiyyəti qovuşdurur,
Təmtəraqları yaxşıdır.

Al-əlvandır yamac, yanı,
Məst eyləyir hər insanı,
Bəzəyibdir bu məkanı,
Bol məhsul, barı yaxşıdır.

Adətiylə ürək açan,
Ceyran, cüyürləri qaçan,
Qayalardan qartal uçan
Şən oymaqları yaxşıdır.

İsrailəm, zövq alıram,
Mənzərədən sövq alıram,
Əhvallardan şövq alıram,
Türkün diyarı yaxşıdır.
Alagöz yarı yaxşıdır.

***Qırğızıstan***
***16.07.1998-ci il.***

# HEÇ OLMAQDADIR

Ən pis, dəhşətlisi, bilirsən nədir?
Alçalıb, yüksəyə ucalmaqdadır.
Yaxşılıq etməyən, qanmayan qədir,
Mənasız yaşayıb qocalmaqdadır.

Həmişə öz cibin güdən nadanlar,
Aldadıb məqsədə yetən nadanlar,
Dar gündə yox olub itən nadanlar,
Mənliyindən qaçıb gic qalmaqdadır.

Tanrının rəhmini anmayan kəslər,
Yalandan köksündən alan nəfəslər,
Qeyli-qal yaradıb, yoran əbəslər,
Haray zınqırovda, gec çalmaqdadır.

Dünya mirasını qapan özünə,
Min lənətlər yığan saxta üzünə,
Bir sərhəd qoymayan ac göz gözünə,
Həyatdan köçəndə, saç yolmaqdadır.

İsrail, neçə min gedibdir firon,
Yığdığı sərvətlər qalıbdır viran,
Dadına çatmayıb qıldığı Quran,
Tamam heçə enib, heç olmaqdadır.
Alçalıb, yüksəyə ucalmaqdadır.

***Gəncə şəhəri***
***24.11.2004-cü il.***



# YALAN OLDU

Ürəyimdə od qalandı,
Yanan külüm yalan oldu.
Gözlərimə yaş calandı,
Axar selim yalan oldu.

Həqiqəti sevməyənə,
Hər kəsə tez baş əyənə,
Düzgünlüyü bilməyənə
Doğru dilim yalan oldu.

Şax budaqda matəm quran,
İntizarı yolda yoran,
Könüllərə nalə vuran
Şux bülbülüm yalan oldu.

Çaldağının gülşənində,
Bivəfanın toy, şənində,
Ayrılığın lap tənində
Zərif gülüm yalan oldu.

İsrailəm, hörmət yoxdur,
Sənətkara sənət yoxdur,
Rüşvətlərə lənət yoxdur,
Dərdli elim yalan oldu.
Doğru dilim yalan oldu.

***Bakı şəhəri***
***27.05.1998-ci il.***



# TALANDI HƏYATIM

Talandı həyatım, talandı varım,
Nakəsin yalandan felinə düşdüm.
Zəlzələ dağıtdı, yox oldu tarım,
Naxələf kəslərin dilinə düşdüm.

Aldatdı, inandım iblis, şeytana,
Söz alıb, söz verən, sözlər satana,
And içib malımı alıb-atana,
Vəd verən gədənin ilinə düşdüm.

Qeyrətsizlər tez saldılar uçruma,
Etmədi bir nəzər şəffaf duruma,
Güvəndi nanəcib yalan quruma,
Bulanıq, lal axan selinə düşdüm.

İmansız kef çəkdi, ruhum-dinimdə,
Bir kəs görünmədi çətin günümdə,
Alov tüğyan etdi nakam yönümdə,
Atəşin şövq verən külünə düşdüm.

Tufanlar qıy vurdu, korlandı aləm,
Köməyə durmadı sirdaşım hələm,
Ürək inildədi, hayqıran naləm,
Amansız boranın yelinə düşdüm.

Keçmiş izlərini asta silənin,
Düz yoldan çıxarıb, saxta gülənin,
Alçaq əməlləri qanıb-bilənin,
Quyular qazanın əlinə düşdüm.

Yalanlar, fitnələr yol bağlamışdı,
Könlümü məhv edib, tam dağlamışdı,
Dilək içim-içim hey ağlamışdı,
Bilmədən qansızın təlinə düşdüm.

Nəsiboğlu karıxmadı, qorxmadı,
Özündə saxladı mənliyi, adı,
Sındırdı tilsimi, düşməni, yadı,
Axır ki, baharın gülünə düşdüm.
Axır ki, baharın gülünə düşdüm.

***Bakı şəhəri***
***07.07.2004-cü il.***



# ƏLƏSGƏR

Xalqın sənətkarı, sözün ustadı,
Mizrabı ahənglə vurdu Ələsgər.
Ozan timsalında böyükdür adı,
Aşıq aləminə nurdu Ələsgər.

Qoşma-gəraylısı eşqədir dilqəm,
Divani-müxəmməs qəlbədir məlhəm,
Təcnis-bağlaması ürəyədir bəm,
Gör necə yaradıb qurdu Ələsgər!

Dərin zəkasıyla elə bənd olub,
Rəssam fırçası tək gülə bənd olub,
Hərbə-zorbasıyla dilə bənd olub,
Şeir zirvəsində durdu Ələsgər.

Haqqı-ədaləti düzgün seçərək,
Dərgah çeşməsindən sular içərək,
Çətin qafiyədən asan keçərək,
Söz-saza xoş kəlam burdu Ələsgər.

Nəsiboğlu, öyrən dahini dərin,
Cilafı saf olur gövhərin, zərin,
Ulu Göyçə yenə azərilərin,
Rahat yat, olacaq yurdu, Ələsgər!
Şeir zirvəsində durdu Ələsgər.

***Göygöl rayonu***
***20.07.1991-ci il.***



# GÜNAH ETMƏ

Mən düşəndə çətinliyə
Tülkü kimi qaçıb itmə.
Gen günümdə o boynunu
Əyə-əyə yolda bitmə.

Qeyrət səndə görmədim mən,
Nakişilik olub peşən,
Yüz üz olur bir üzündən,
Nadanlığa tezcə getmə.

Yaşa doldun, düzəlmədin,
Eybi silib-yönəlmədin,
Doğru yola heç gəlmədin,
Bədniyyətə barı yetmə.

İsraili qınama sən,
Daldeyidə yanama sən,
Fitnələri sanama sən,
İmanına günah etmə.
Nadanlığa tezcə getmə.

***Gəncə şəhəri***
***26.04.2005-ci il.***



# SƏR TELLƏRİNƏ

Saçını boyayıb çıxıbsan çölə,
Çox gözəl yaraşır zər tellərinə.
Üzündən sütülsən, körpəsən hələ,
Qızarıb ələmə tər tellərinə.

İlkin baxışınla şölə saçırsan,
Utanıb, görəndə gözdən qaçırsan,
Yetişib yenicə qönçə açırsan,
Yarışan lalədən dər tellərinə.

Gözəllik nəfəsi üstündə gəzir,
Nəzərin sinəmi əzir, hey əzir,
Məhəbbət dolanıb tək səni sezir,
Nahaqdan əylətmə şər tellərinə.

Oxşayır qəlbimi surətin hər an,
Unutmaq olarmı əksini, inan!
Əgər mən, yetimə, eyləsən imkan,
Çəkərdim əlimi hər tellərinə.

Nəsiboğlu dolanaydı başına,
Oxlar atma, divanəyəm qaşına,
Dəxli nədir? Fərqi qoyma yaşına,
Bu eşqi-naməni sər tellərinə.
Çox gözəl yaraşır zər tellərinə.

***Bakı şəhəri***
***12.06.2008-ci il.***



# GÖRÜNMƏYİR

Ürəyimə qış gəlibdir,
Gözlərimdə kədər-qəmim.
Bu sinəmi dərd dəlibdir,
Görünməyir heç bir dəmim.

Arzularım yolda qalıb,
Xəyallara uyub, dalıb,
Şahmar ilan məni çalıb,
Fırtınadan batıb gəmim.

Qara zolaq həyatımda,
Köhlən qaçmır xam atım da,
İlə dönüb saatım da,
Çoxalıbdır azım, kəmim.

İsrailəm, həvəs lazım,
Bilməyirəm, necə yazım,
İnildəyir tarım, sazım,
Yoxa çıxıb simdə bəmim.
Fırtınadan batıb gəmim.

*Sankt-Peterburq*
*29.11.2005-ci il.*



# BAXIRAM

Uşaqlıq ilindən götürüb lövhə,
Xəyal aləmində ona baxıram.
Ana nəvazişi qəlbimdə töhfə,
Alışıb, hey yana-yana baxıram.

Anamın nəfəsi gəzir üstümdə,
Atamın qayğısı sezir tüstümdə,
Taleyin qəzəbi durub qəsdimdə,
Elə bil ki, tam imkana baxıram.

Keçmişin səhəri gözümə gəlir,
Şirini, qəhəri gözümə gəlir,
Xoş günlü təhəri gözümə gəlir,
Görmədiyim tər məkana baxıram.

Təbiət təsviri gözəl canlanır,
Dağların duruşu hey varaqlanır,
Ürəyim çırpınır, qopub-usanır,
Təşvişdəyəm, başqa dona baxıram.

Nəsiboğlu nur-zamana düşübdü,
Əqli qaçıb, ruh-imana düşübdü,
Ölçüsündə düz cahana düşübdü,
Sanki, umub zər-zivana baxıram.
Alışıb, hey yana-yana baxıram.

***Daşkənd şəhəri***
***12.01.1990-cı il.***



# DESƏM DÜZÜNƏ

Qəsd eyləmə, ciyər-param,
Düşmüşəm eşqin közünə.
Boylanıb hey aram-aram,
Baxıram xumar gözünə.

Lalə açıb yanağında,
Bal süzülür dodağında,
Tər yığılır buxağında,
Qurbanam parlaq üzünə.

Dindirəndə dürr tökürsən,
Qəlbimi yaman sökürsən,
İmtahana hey çəkirsən,
Heyran qaldım hər sözünə.

İsrailəm, hörmətin çox,
Təsvirində ismətin çox,
Nəzakətin, izzətin çox,
Yanlayıb desəm düzünə.
Düşmüşəm eşqin közünə.

***Daşkənd şəhəri***
***26.03.1978-ci il.***



# TÖKÜB AĞLAMA!

Keçən günlərimiz qayıtmaz daha,
Sonradan boynunu büküb ağlama!
Həyatda nəfinlə çox batma aha,
Axırda dərd yükü çəkib ağlama!

Təlatüm qismində zaman fırlanır,
Bəlalar içində aman fırlanır,
Ömürdə saniyə yaman fırlanır,
Çox peşman olanda çöküb ağlama!

Gərdişdə dolanıb eyləmə yaman,
Yaxın kimsələrlə bir saxla güman,
İtirmə hörməti, dinində iman,
Ürəyi kökündən söküb ağlama!

Xariqələr yarat, çalış təmkinlə,
Büsatları qurub öyün mətinlə,
Müdrik ahıllardan nəsihət dinlə,
Qocalıb nəzəri dikib ağlama!

Nəsiboğlu çaşıb-qalıb kələkdə,
Günahı görürəm qanlı fələkdə,
Neynəsin haqq yazan-pozan mələk də?
Yetmişdə göz yaşı töküb ağlama!
Çox peşman olanda çöküb ağlama!

***Bakı şəhəri***
***13.08.2012-ci il.***



# HARAYA GƏLMƏDİ

Xəstə yatıram kənarda,
Yar heç haraya gəlmədi!
Könlüm qalıb ahı-zarda,
Düşüb araya gəlmədi.

Bu gözələ sözüm yoxdur,
Var-dövlətdə gözüm yoxdur,
Səbrim azdır, dözüm yoxdur,
Enib saraya gəlmədi.

İsrailəm, niyə belə?
Çağırdım ki, dərdim bilə,
Öldürürsən erkən hələ,
Etdiyim vaya gəlmədi.
Düşüb araya gəlmədi.

***Sankt-Peterburq***
***27.03.1997-ci il.***





# QANADI

Toxunma yarama, ay qız qəflətən,
Dilimin məssəvi, sözü, qanadı.
Şikəstə qılıram eşqlə tənbətən,
Sənə aşiq olan gözü qanadı.

Bütün gecə-gündüz diləyimdəsən,
Əhdə qəsd eləyən fələyimdəsən,
Şaxtalar qoparan küləyimdəsən,
Sevdalı keçmişin izi qanadı.

Səbrim daralıbdır, dözmür qərarım,
Tamam gümansızam, yayılır zarım,
Necə demək mümkün vəfalı yarım?
Kədərdən sevgimin üzü qanadı.

Sarsıntı içində çırpınır bədən,
Niyə biganəsən, bilmirəm nədən?
Sağalmır iltihab, vurulmuş zədən,
Tükənən taqətin dizi qanadı.

Uzanan günləri ay, il sayıram,
Çətin bu qəlbimi qırıb ayıram,
Çölləri seyr edib xatırlayıram,
Gəzdiymiz çöllərin-düzü qanadı.

Vüsalım tufanlı virana qaçır,
Başını götürüb arana qaçır,
Könlümü dağıdıb yarana qaçır,
İnləyən ürəymin özü qanadı.

İsrailəm, ümidsizəm, inan, bil!
Qüssələri, axan qanı dayan, sil!
Bircə dəfə xəyalında anla, dil!
Alışan alovun közü qanadı.
Sevdalı keçmişin izi qanadı.

*Bakı şəhəri*
*03.02.2011-ci il.*

# YORMA DEDİ

Dedim: Adın nədir belə?
Dərhal sual sorma,- dedi.
Dedim: Niyə etdin elə?
Çox üstünü vurma,- dedi.

Dedim: Əhval necə oldu?
Çox gözlədim, gecə oldu,
Ləbin tamda cicə oldu.
Hər dərinə varma,- dedi.

Dedim: Sinən - geniş meydan,
Qoşa narlar olub peydan,
Lənət gəlsin sənə, şeytan.
İmtahanı qurma,- dedi.

Dedim: Axır gedək bizə,
Sığal verim o bənizə,
Həvəs yarat istəkmizə.
Get, yolumda durma,- dedi.

Dedim: İsrail vurğundur,
Məhəbbətdə lap durğundur,
Könül peşkaş, al sorğundur.
Adaxlıyam, yorma,- dedi.
Get, yolumda durma,-dedi.

***Daşkənd şəhəri***
***30.09.1990-cı il.***



# BİR BİLƏN YOXDUR

Həyat yollarında gör nələr olur?
Fəqirin üzünə bir gülən yoxdur.
Ayağı büdrəyir, gözləri dolur,
Amma ki, gözünü bir silən yoxdur.

Qapısın açmırlar, heç axtarmırlar,
Üzünü çevirib səmtə baxmırlar,
Salamı verəndə, salam almırlar,
Heç onu anlayıb, bir dilən yoxdur.

Fələyin işidir, haqsızlıq edir,
Varlıya pul verir, kasıba bir pir,
Pirə də qoymayır, yolunu kəsir,
Yazığın dərdini bir bölən yoxdur.

İsrail dözməyir bu nadanlığa,
Kasıb heç gülməyir bircə anlığa,
Məcburdur, düşübdür bəd-yamanlığa,
Əqlini, işini bir bilən yoxdur.
Yazığın dərdini bir bölən yoxdur.

*Sankt-Peterburq*
*17.12.2005-ci il.*



# BİR YAXIN GƏL

Ay gözəlim, bir yaxın gəl,
Sevin eşqin o yanında,
Şənlən, nazlan, həm də ki, gül,
Xoşbəxt olaq bu anında.

Gəncliyimiz qoşa keçsin,
Pərvaz olub, məlhəm içsin,
Ağrıdağdan güllər biçsin,
Hallan eşqin kamanında.

Özümüzü tam anlayaq,
Dar ayaqda olaq dayaq,
Bədnəzərə tuş olmayaq
Zalım fələk amanında.

Mehriban ol hər bir zaman,
Sevgimizi quraq asan,
Pərvanə tək alovda yan,
Əgər çıxsa o canın da.

İntizara yaxın getmə,
İstəkli ol, fitnə etmə,
Gah görünüb, gah da itmə,
Dünyamızın məkanında.

İsrailəm, vardır sözüm,
Hey axtarar, yaşar gözüm,
Sən olmasan, yoxdur özüm
Vəfasızlar cahanında.
Dünyamızın məkanında.

***Sankt-Peterburq***
***23.06.1996-cı il.***



# AMANDI, AY QIZ

Hər bir kəlmən, hər bir sözün qəlbimi
Yandırıb-yaxıbdı, amandı, ay qız.
Kədərim dərindən-dərin dəryadı,
Ən böyük sahəli ümmandı, ay qız.

İşvə, qəmzə təkcə səndə deyil bəs,
Qalmayıb eşqimdə arzular, həvəs,
Hey tutma hicranı qarşıma əbəs,
Ayrılıq yamandan-yamandı, ay qız.

İsrailəm, dərdə dərman içmişəm,
Gözəllərdən bircə səni seçmişəm,
Günahından, inan, çoxdan keçmişəm,
Axı bu nə dövran, zamandı, ay qız.
Ayrılıq yamandan-yamandı, ay qız.

***Daşkənd şəhəri***
***05.06.1984-cü il.***





# BİLƏYDİM BİR

Qəhəri qız, boğazımdan
Tam şadlanıb siləydim bir.
Bal tutaydım ağızından,
Kaş danışıb güləydim bir.

Tez qaçaydım qabağına,
Gül qoyaydım yanağına,
Busə atıb dodağına,
Yaxınına gələydim bir.

Həm yoxlayıb, həm də güdüb,
Həsrət dolu nəzər edib,
Köməyinə tezcə yetib,
Surətini diləydim bir.

Nəsiboğlu gendə gəzməz,
Qəlbini sındırıb üzməz,
Yorulsa da, tamam bezməz,
Əhvalını biləydim bir.
Kaş danışıb-güləydim bir.

***Daşkənd şəhəri***
***12.01.1980-ci il.***



# FƏĞANIMA GƏL AXIR

Təskinlik tapıram, gülüm, əlindən,
Rüsxəti qıl, tez yanıma gəl axır.
Şərbəti duyuram dodaq-dilindən,
Sarsılmışam, ah-anıma gəl axır.

Ayrılıq sözünü ortalıqdan sil,
Ara, axtar, sorğu apar, yaxşı dil,
Ürəyim titrəyir, əsir, inan, bil.
Məlhəm yetir, bu canıma gəl axır.

Sənsiz günüm tarı-mara düşübdür,
Könül tüğyan edir, zara düşübdür,
Eşqimiz kövrəlib dara düşübdür,
İnsaf eylə, gümanıma gəl axır.

Gəncliyimiz boğulacaq kədərdən,
Çırpınacaq dar yollarda hədərdən,
Aşılanıb yox olacaq qədərdən,
İtirmə vaxt, zamanıma gəl axır.

Nəsiboğlu qiyam salar çöllərə,
Ün qoparar obalara, ellərə,
Hey soruyar, həşir atar dillərə,
Yalvarıram, fəğanıma gəl axır.
İnsaf eylə, gümanıma gəl axır.

*Daşkənd şəhəri*
*27.11.1989-cu il.*



# XOŞA GƏLİR

Həm gedişin, həm gəlişin,
Canım üçün, xoşa gəlir.
Həm yerişin, həm gülüşün
Bu qəlbimdə coşa gəlir.

Bu göylərdə ulduzumuz,
Həm yazımız, həm pozumuz,
Ömürdəki o yolumuz,
Mat qalmışam, qoşa gəlir.

İsrailəm, səadətim,
Xoş niyyətim, xoş adətim,
Sənə olan ibadətim
Yaşadıqca, yaşa gəlir!
Canım üçün, xoşa gəlir.

***Bakı şəhəri***
***27.09.2004-cü il.***





# GƏZƏRƏM, XƏZƏR

Əsəblərim daralanda sakitcə
Çıxıb sahilini gəzərəm, Xəzər.
Tamaşa edərəm durub kirmişcə,
Çırpınan sinəni süzərəm, Xəzər.

Gəlib dərdlərimi yuyuram ancaq,
Şıltaq ləpələrlə uyuram ancaq,
Təbəssüm halından doyuram ancaq,
Elə bil üstündə nəzərəm, Xəzər.

Kənarında ora-bura gedəndə,
Bəzən gah özümü tənbeh edəndə,
Ahəstə qıraqdan birdən itəndə,
Arabir fikirdən bezərəm, Xəzər.

Keçmişim fırlanır xəyal içində,
Püskürür, hıçqırır amal içində,
Təəssüf hərlənir iqbal içində,
Səninlə əqlimi çözərəm, Xəzər.

Ayaqyalın hənirtində qaçaram,
Sevincimdən dünyalara uçaram,
Yorulmaram, bil, özünlə lap varam,
Narın qumlarını əzərəm, Xəzər.

Küləklərin hey coşdurur dalğanı,
Gah tullayır, ovuşdurur dalğanı,
Bir-birinə qovuşdurur dalğanı,
Gözlərimə heyran düzərəm, Xəzər.

Sevgilərlə görüşürəm önündə,
Eşqim pıçıldayır xəlvət yönündə,
Əgər qismət olsa, yayda hər gündə,
Qucağına varıb üzərəm, Xəzər.

Üstünü örtməsin çox da çiskinlər,
Rədd olsun yanından acılar, kinlər,
Səni bir möhtəşəm dəniz bilsinlər,
Simanı təriflə bəzərəm, Xəzər.

Uzaqda da olsam, tutaram halın,
Soraram elinin bütün əhvalın,
Həmişə parlasın o xoş camalın,
Mehini yadımda sezərəm, Xəzər.

İsrailəm, kaş tam arzuma çatam,
Kədəri qanırıb çiynimdən atam,
Baş qoyub köksündə yavaşca yatam,
Sonra hər nəyim var, dözərəm, Xəzər.
Çıxıb sahilini gəzərəm, Xəzər.

***Bakı şəhəri***
***05.08.1998-ci il.***





# GUŞƏSİNDƏ

Uzanıb baxırdım dərə boynuna,
Uyudum cənnətin bir guşəsində.
Gözümü oxşayan gülşən qoynuna,
Bizim ərənlərin ər guşəsində.

Çiçəklər içində itmişdir huşum,
Hərlənib-hallanır cismimdə başım,
Sevincdən yaşarır gözdə-göz yaşım,
Ağılım getmişdir tər guşəsində.

Uçurdu xəyalım, hey sevinirdi,
Gah cığırla qalxıb, gah da enirdi,
Könül coşa gəlib bərkdən dinirdi,
Seyrimdə zərgərəm, zər guşəsində.

Bulağın suyundan dişim qamaşır,
Bu vuran ürəyim sinəmdə çaşır,
Ayağım sürüşür, tez-tez dolaşır,
Qalmışam Allahın nər guşəsində.

İsrail mat qalıb əlvan hüsnünə,
Vurulub əvəzsiz gözəl əksinə,
Yığaydım çiçəyi hey sinə-sinə,
Güləydim obamın hər guşəsində.
Uyudum cənnətin bir guşəsində.

***Göygöl rayonu***
***16.04.2000-ci il.***



# BİR GERİ BAX!

Ceyran kimi qaçan gözəl,
Ayaq saxla, bir geri bax!
Günəş olub saçan gözəl,
Axır məndə tər, geri bax!

Qamətin var işvə-nazlı,
Səsin çıxır xoş avazlı,
Surətin şux, qoşma-sazlı,
Yaylıq düşüb, sər, geri bax!

Al çəməndə yerin vardır,
Ağ şalvar əyninə dardır,
Döşündəki qoşa nardır,
Giləsində zər, geri bax!

Dayan görüm, sözüm çoxdur,
Sənə qarşı qərəz yoxdur,
Qaşın kaman, kirpik oxdur,
Qəlbdən gülü dər, geri bax!

İstəyimi etmə hədər,
Ürəyimə salma kədər,
İnsafa gəl, lazım qədər,
Yalvardıqca, hər geri bax!

Çatdırıram, haqdır sözüm,
Giryan düşüb iki gözüm,
Heç qalmayıb məndə dözüm,
Çox culama şər, geri bax!

İsraildə yarat güman,
Vəd verməsən qopar aman,
Səbrim azdır, əhval yaman,
Dözməz dərdə, nər, geri bax!
Ayaq saxla, bir geri bax!

***Daşkənd şəhəri***
***07.01.1987-ci il.***

# ÖZÜ DƏ QANMIR

Nə qədər nankordur bu yazıq bəndə?
Yaşayış tərzini özü də qanmır.
Hikmətli kəlamlar açıb deyəndə,
Mərifəti qanmır, sözü də qanmır.

Ləyaqət, cəsarət hünərdən kənar,
Görünmür üstündə nə qeyrət, nə ar,
Heç ölçü götürmür, ağılda qərar,
Doğrunu, düzgünü, düzü də qanmır.

Köksündə ürək yox, qurdlar canlanır,
Kölgədə özünü hey kişi sanır,
Tamam dar ayaqda yox olur, danır,
Min sifət edəndə üzü də qanmır.

Yaxşılıq nədir ki, onu bilməyir,
Etdiyim gərəyi sanıb-dilməyir,
Qəhəri boğazdan töküb-silməyir,
Ağ-qara seçəndə gözü də qanmır.

İsrailəm, kəsərimdə itiyəm,
Əməlimdə ciddi, həm də qətiyəm,
Çətindir, kimsəyə mən boyun əyəm!
Kəskin etirazda bizi də qanmır.
Yaşayış tərzini özü də qanmır.

***Bakı şəhəri***
***17.06.2010-cu il.***



# İKİ ULDUZ QOVUŞANDA

Taleyindən küskün olan,
Hicranlıqda yanan, solan,
Bulud təki tez-tez dolan,
Tez sevinir bircə an da
İki ulduz qovuşanda.

Ayrılığın riccətindən,
Qeyzə gələr sevgilim, mən.
Bilməyirəm neçün, nədən
Fərəhlənir bu cahan da
İki ulduz qovuşanda?

Dağda lalə, qərənfillər,
Arxadakı aylar, illər,
Coşa gələn xoş könüllər,
Boylanırlar hər bir yanda
İki ulduz qovuşanda.

Sevincindən üzlər gülür,
O kədərli gözlər gülür,
Hər danışıq, sözlər gülür,
Coşur ürək, coşur qan da
İki ulduz qovuşanda.

İsrail, Ay edir seyir,
Al donunu Günəş geyir,
Kainat da özün öyür,
Hey şadlanır asiman da
İki ulduz qovuşanda.
İki ulduz qovuşanda.

***Daşkənd şəhəri***
***15.04.1987-ci il.***



# DANDIN KÖNLÜMÜ

Yenicə çıxırdım zirvələrə mən,
Aldadıb uçruma saldın könlümü.
Dondan-dona geyib fırıldağınla
Şahmar ilan kimi çaldın könlümü.

Əyrini-yoxuşu keçmədiyim vaxt,
Qaranı ağlardan seçmədiyim vaxt,
Yamanı, yalanı biçmədiyim vaxt
Tələsik əlimdən aldın könlümü.

İsrailəm, etibarım yox daha,
Düşmərəm, düşmərəm bir də günaha,
Yalvardım salanda zillətə, aha,
Vermədin, vermədin, dandın könlümü.
Tələsik əlimdən aldın könlümü.

***Gəncə şəhəri***
***07.11.1993-cü il.***





# VERƏRDİM

Həsrət dolu ürəklərə
Eşqnaməni bol verərdim.
Həvəslərə, istəklərə
Nurlu, dümdüz yol verərdim.

İki könlü bir olana,
Bir boşalıb, bir dolana,
Hicranları tez yolana
Dəstə-dəstə gül verərdim.

Məhəbbəti bilənlərə,
Birgə deyib-gülənlərə,
Yar deyib, yar dilənlərə
Əlvan çəmən, çöl verərdim.

İsrailəm, sevilin siz,
Həyat bunsuz qalır qəliz,
Sevginizdə olun təmiz,
Sevənlərə ləl verərdim.
Dəstə-dəstə gül verərdim.

***Daşkənd şəhəri***
***20.02.1986-cı il.***



# UTANMA, GÜLÜM!

Görəndə daldeyi qaçıb gizlənmə,
Üz-üzə gələndə utanma, gülüm!
Şübhələr yaradıb yolda izlənmə,
Arxadan hiss edib usanma, gülüm!

Sinəndə bənövşə, güllər görünür,
Qızıla bələnmiş əllər görünür,
Gərdənində sarı tellər görünür,
Başqa rənglər tutub, boyanma, gülüm!

Səhər başdan bulaqdan su doldurar,
Hər işləri tez yaradar, tez qurar,
Aşiqləri heyran edib, göz vurar,
Sübh-namaza qəsdən yubanma, gülüm!

Dediyimə qulaq asmaq istəsən,
Yanıma qoşulub qaçmaq istəsən,
Evimizə ayaq basmaq istəsən,
Həvəsi bilərək çox danma, gülüm!

İsrailəm, eşqin özü imtahan,
Yoxlayır, düzəldir bu qoca cahan.
Vəfalı ol! Qalma yalqız bax bir an,
Hicranda kövrəlib qalanma, gülüm!
Üz-üzə gələndə utanma, gülüm!

***Göyçə mahalı***
***30.05.1978-ci il.***



# SÖZ OYNADIRLAR

Qanadı, həzərat, yaram dərindən,
Böhtan yağdıranlar söz oynadırlar.
Uydurma eşitdim naşı birindən,
Arada min sifət-üz oynadırlar.

Xəcalət, vicdanı yoxdur deyəsən,
Çənəsin sındırıb, qolun əyəsən,
Abırsız nəslinə söyüş söyəsən,
Alışan odumda köz oynadırlar.

Bütün bu aləmə haram qatanda,
Mənasız kəlamı qırıb-atanda,
İyrənc əhvallara düşüb batanda
Yalançı hesabda düz oynadırlar.

Yaramaz əməllə tufan eyləyir,
Xəlvəti məssəfsiz nağıl söyləyir,
Haqqı itələyib, nahaqq əyləyir,
İrişib səbrdə döz, oynadırlar.

İsrailəm, adətimə heyifdir,
Belələrlə salam kəsmək eyibdir,
Atalar qanmaza eşşək deyibdir,
Xoşular ortada göz oynadırlar.
Arada min sifət-üz oynadırlar.

*Bakı şəhəri*
*30.03.2011-ci il.*



# SƏNİN OTAĞINDA

Ay gözəlim, ağrın alım,
Gəlim sənin otağında.
İzn versən, yaxın qalım,
Gülüm sənin otağında.

Qəm-kədərli üzlərini,
Baldırını, dizlərini,
Yaşarmış göy gözlərini
Silim sənin otağında.

Əllərini ələ alım,
Xəyallara bir an dalım,
Ah-naləni yada salım,
Dilim sənin otağında.

Halından xəbər alaram,
Həmişəlik mən qalaram,
Döşəməyə, bil, salaram,
Kilim sənin otağında.

Anlamasam, bir də anım,
Tamam qurban olsun canım,
Hə sözünü indi qanım,
Bilim sənin otağında.

Fələk heç vaxt aramasın,
Dedi-qodu yaramasın,
Oxlar tutub daramasın
Belim sənin otağında.

Saçlarıma düşməsin dən,
İncimə heç bir kəlmədən,
Tökülməsin lap dibindən
Telim sənin otağında.

Bütün olan o hicranı,
Hər gəlişi, hər amanı,
Üstündəki hər yamanı
Bölüm sənin otağında.

Qoy uzanım bu varında,
Divanında, düz narında,
Keçsin günüm ilqarında,
İlim sənin otağında.

Bədəninə sığal verim,
Hey olubsan ümid yerim,
İsrailəm, durur dirim,
Ölüm sənin otağında.
Gülüm sənin otağında.

***Sankt-Peterburq***
***17.07.2005-ci il.***



# XƏYALDIR

Mənim bir dostum var, bir sirdaşım var,
Gözümdə andığım xəyaldır, xəyal.
Əqidəm, düşüncəm, bir yaddaşım var.
O da ki, qandığım xəyaldır, xəyal.

Kədərdən kədərə, qüssəyə atan,
Hardan baş qoparan, bəs nəyə atan?
Dağlara, düzlərə, təpəyə atan
Əqlimdə sandığım xəyaldır, xəyal.

Uşaqlıq illərim gözümdən keçir,
Atam, Anam dinir, sözümdən keçir,
Sevdiyim şux gözəl özümdən keçir,
Qəlbimdə yandığım xəyaldır, xəyal.

Aparan eşqimin ötən gününə,
Gəncliyin utanmış itən gününə,
Vəfasız gözəlin sökən gününə,
Aldanıb dandığım xəyaldır, xəyal.

Sürəti, qüvvəti bir möcüzədir,
İdrak aləmində gözdür, didədir.
İsrail, ömrünü izləyən nədir?
Qəsdən usandığım xəyaldır, xəyal!
Əqlimdə sandığım xəyaldır, xəyal!

***Daşkənd şəhəri***
***10.03.2002-ci il.***



# QƏSD EYLƏDİ

Qəsd eylədi çətin anda,
Səxavəti araladı.
Qəliz olan bəd zamanda,
Saf qəlbimi qaraladı.

Namərd imiş bu vicdansız,
Cəllad təki baxır qansız,
Badalaqda çox amansız,
Kürəyimdən yaraladı.

Qəddarlıqda var inadı,
Düşünmədi düşmən-yadı,
İsrailəm, yorulmadı,
Ürəyimi paraladı.
Səxavəti araladı.

***Sankt-Peterburq***
***05.06.2005-ci il.***





# TƏZADINA MƏN

Qibtə eyləyirəm sən tək canlara,
Nazlı baxışının təzadına mən.
O al yanaqdakı qara xallara,
Dodağa, dilinin bal dadına mən.

Ünsiyyətə giriş, özünü bildir,
Qaşını çox oynat, gözünü bildir,
Gülümsə, işvə at, üzünü bildir,
Tamaşa eyləyim inadına mən.

Yaxşıca bir tanın öz əməlinlə,
Öz zatı-pəkinlə, öz təməlinlə,
Ədəb-ərkan göstər incə əlinlə,
Mat qalım ağılda savadına mən.

Qəmə bələnmişəm, atıb-silmirəm,
Sənsiz ah edirəm, deyib-gülmürəm,
Ürəyim darıxır, dözə bilmirəm,
Yapaydım təriflər gül adına mən.

Pərilər-pərisi, - deyərdim sənə,
Gəzəndə xoş olur dağa, çəmənə,
Görüşə söz verib, etsəydin tənə,
Yetərdim eşqimin imdadına mən.

Elə bil, göylərdən uçub gəlibsən,
Şux günəş olubsan, saçıb gəlibsən,
Mələykə tək qanad açıb gəlibsən,
Çəkəydim sığalı qanadına mən.

Nəsiboğlu tüğyan edir anbaan,
Rəhm eylə, qılma bir fitnə, yaman,
Gəl, görün qarşımda, yaransın güman,
Baxım məhəbbətin səyyadına mən.
Nazlı baxışının təzadına mən.

***Sankt-Peterburq***
***30.08.2005-ci il.***

# BU SİRRİN, QIZ!

İş yerində, telefonda
Gündə danışır şirin qız.
İndicənə cavanlardan
Yanıldacaq tez birin qız.

İşvə atır adətində,
Mülayimdir söhbətində,
Dada yetir hər çətində,
Dərrakədə lap dərin qız.

Surətində mələykədir,
Saxlayır xətirdə qədir,
Dedi-qodu bilmir nədir,
Ünsiyyətdə xoş, sərin qız.

Gözləri var maral kimi,
Həm tərpədir qəlbdə simi,
Təzələyir dərdlərimi,
Qanıb-bilir hər tərin qız.



Nahaqları itələyir,
Davranışda dürr ələyir,
Sevinc yerib səpələyir,
Nəvazişdə yetərin qız.

İsrailəm, izləyirəm,
Hissiyyatı bizləyirəm,
Sevməyimi gizləyirəm,
Qalıb məndə bu sirrin, qız!
Dərrakədə lap dərin qız.

***Gəncə şəhəri***
***15.05.1994-cü il.***



# NƏDİR GİLEY-GÜZAR?

Nədir giley-güzar? Nədir qeyli-qal?
Beləcə verirsiz ömürü başa.
Yaranmır könüldə xoş idrak, xoş hal,
Gedirsiz hər addım küyə-savaşa.

Qalırsız həmişə bədlərə sarı,
Qurtarmır şikayət, şeytan yolları,
Doymayır gözünüz, yığırsız varı,
Tükənmir oyunlar, dolursuz yaşa.

İsrail, həddini aşırıqmı biz?
Görən, düzəlirmi qəlbdən biriniz?
Elə ki, həyatdan getsə kəsiniz,
Düşünüb qalırsız küskün təlaşa.
Beləcə verirsiz ömürü başa.

***Bakı şəhəri***
***06.06.2000-ci il.***





# GİLEYLİYƏM

Saralmışam xəzan olub,
Dərd əlindən gileyliyəm.
Sarsılmışam tamam dolub,
Hər felindən gileyliyəm.

Gah düşürəm yoxuşlara,
Ötgün, ağır çıxışlara,
Qəlbi yoran baxışlara,
Sərt təlindən gileyliyəm.

İntizara saldı yaman,
Hey edirəm aman-aman,
Qalmayıbdır dində iman,
Nəhs dilindən gileyliyəm.

Zaman ötür çətin anda,
Taqət yoxdur yorğun canda,
Rəhmin itib tək vicdanda,
Yox, bəlindən gileyliyəm.

İsrailəm, ömür keçir,
Fələk baxıb biçir bir-bir.
Heç görmədim səndə qədir!
Ay-ilindən gileyliyəm.
Dərd əlindən gileyliyəm.

***Bakı şəhəri***
***23.12.2001-ci il.***



# QAÇIR ÖZÜMDƏN

Enmişəm ömrümün təlatümüylə,
Axtarsam da, qismət qaçır özümdən.
Yanıram eşqimin keçmiş günüylə,
Alovlanan közüm saçır özümdən.

Bilmirəm fələyin əməllərini,
Həyatın ləzzətli şirin tərini,
Tarım hey dartsam da bəxtin fərini,
Xudam əmr qılıb, açır özümdən.

Gecələr oturub pozub-yazıram,
Elə bil xəyalda itib-azıram,
Yuxumda dünyamı çözüb-sızıram,
Ruhum qanad açıb, uçur özümdən.

İsrail arayır qəlizlik, əbəs,
Qalmayıb kimsəyə bir inam, həvəs,
Fəqət dürüstlüyü düşünmürsə kəs?
Günahkar görürəm, puçur özümdən.
Alovlanan közüm saçır özümdən.

***Bakı şəhəri***
***17.04.2003-cü il.***



# BİLƏR OLSA

Geniş dünya dar olammaz,
Ürəyimiz gülər olsa.
Hər istəkli yar olammaz,
Məhəbbəti silər olsa.

Alim olmaq deyil çətin,
İnsanlıqda durur mətin,
Vicdanlıqla öz sənətin
Öhdəsindən gələr olsa.

Doğrunu seç, etmə kələk,
Çiynimizdə yazır mələk,
Fırladarmı göydə fələk,
Axirətdə nələr olsa?

İstək, həvəs hamıda var,
Gül üstündə bitəmməz xar,
Kimə lazım bu intizar,
Sevgisini dilər olsa?

İsraili sanan gərək,
Hər bir işi qanan gərək,
El odunda yanan gərək,
Bir qədrini bilər olsa.
Ürəyimiz gülər olsa.

***Sankt-Peterburq***
***27.07.1999-cu il.***



# ŞAİR ODUR

Şair odur, gördüyünü düz yaza,
İşıq saça qaranlığın içində,
Nahaqqı teyləyə, yalanı poza,
Sübhü tuta toranlığın içində.

Məntiqi anlaya, namərdə gülə,
Uymaya kələyə, fitnəyə, felə,
Həqiqət rəmzində dönsə də külə,
Pöhrələnə şoranlığın içində.

Gülə qiymət verə, bülbülə qulluq,
Eşqə sevinc verə, çəmənə bolluq,
Naşıya yol verə, yoldaşa yolluq,
Çəkinməyə boranlığın içində.

Nəsiboğlu mənliyini qoruyar,
Hər qəliz söhbəti anlayar, duyar,
Sənətə qoyulsa əgər bir meyar,
İtməyə heç viranlığın içində.
İşıq saça qaranlığın içində.

*Gəncə şəhəri*
*30.07.1994-cü il.*



# BİR GÖZƏL İNCİDİR MƏNİ

Söhbətində qeyli-qallı,
Bir gözəl incidir məni.
Görüşündə qeyri-hallı,
Bir gözəl incidir məni.

SMS-ə cavab bilməz,
Zəng vururam, anıb-dilməz,
Tərsliyini qəsdən silməz,
Bir gözəl incidir məni.

Həyanıma hay verməyən,
İşvəsindən say verməyən,
Busəsindən pay verməyən
Bir gözəl incidir məni.

Yönümə tufanı qoyan,
Səadəti gözdən oyan,
Səbrimi dibindən soyan,
Bir gözəl incidir məni.

İsrarlıdır tələbində,
İsmarıcı çatır gündə,
Düşünməyən naşı bəndə,
Bir gözəl incidir məni.

Əhdimizi düz qanmayan,
Yada salıb heç sanmayan,
İntizarı həm danmayan
Bir gözəl incidir məni.

İsrailəm, süründüyüm,
Od-alova büründüyüm,
Dalınca hey küründüyüm
Bir gözəl incidir məni.
Bir gözəl incidir məni.

***Bakı şəhəri***
***23.05.2011- ci il.***

# ŞİRİNDİR - ŞİRİN

Nəzər saldım sübh gözəlin eşqinə,
Siftəsi dilimə şirindir-şirin.
Heç özü anlamır, bilmir, eşqi nə?
Qönçəsi gülümə şirindir-şirin.

Piyalə gözüylə tam ovsunlayır,
Çıxmır ürəyimdən, yerində sayır,
Sevgi qeyzə gəlib hey pıçıldayır,
Ləzzəti könlümə şirindir-şirin.

İsrail vurulub bu ilk baxışda,
Köynəyi alışır min bir naxışda,
İbadət var həftə başı çıxışda,
Şöləsi hər cümə şirindir-şirin.
Siftəsi dilimə şirindir-şirin.

***Daşkənd şəhəri***
***30.06.1985-ci il.***





# İLİN TƏMASINDA

Axtarıram gülüşünü
Şirin dilin təmasında.
Alqışlaram gəlişini
Nazik əlin təmasında.

Hey duyuram zərif ətir,
Toxunanda huşum itir,
Ürək coşur, hissim yetir
İncə belin təmasında.

Düzsələr önə yüzünü,
Dəyişmərəm gül üzünü,
Şərbətli söhbət-sözünü
Xoş əməlin təmasında.

Hallandım söz oxuyanda,
Bənövşə tək qoxuyanda,
Sarı hörük toxuyanda
Batdım telin təmasında.

İsrailəm, dizim-dizə,
Əqil itir gözüm-gözə,
Söykənəndə izim-izə
Yandım ilin təmasında.
Xoş əməlin təmasında.

***Daşkənd şəhəri***
***25.12.1982-ci il.***



# QALDI YALAVAC

Xəbər aldım bir gözəlin eşqindən,
Ruhum qopdu, cismim qaldı yalavac.
Əqd eylədim, əhval tutdum işindən,
Tufanlara qəsdən saldı yalavac.

Danışanda məlahəti hay verir,
Ürəyimdə vay qoparır, vay verir,
İnildəyən bu yaramdan say verir,
İxtiyarmı tezcə aldı yalavac.

Dodaqları al qönçədi seçimdə,
Tay görünmür qamətində, biçimdə,
Nəfəsini tam duyuram içimdə,
Bilməyirəm, bu nə haldı yalavac?

Asimandan bəlkə ulduz gəlmişdi,
Taleyimə günəş olub gülmüşdü,
Könlümə özünü mehman bilmişdi,
Şimşək olub dərhal çaldı yalavac.

Möcüzədir, belə göyçək görmədim,
Onda olan həvəs, istək görmədim,
Ömürümdə heç də tək-tək görmədim,
Əksini xəyalım daldı yalavac.

Ləzzət verən, inan, yoxdur anımda,
Onsuz taqət olmaz dizim-canımda,
Çox umuram belə mələk yanımda,
Sevgisində şəkər-baldı yalavac.

Nəsiboğlu itiribdi əqlini,
Yaddaşını, həyatını, ilini,
Danışmayır, heç tərpətmir dilini,
Donub qalıb, sanki laldı yalavac.
Ruhum qopdu, cismim qaldı yalavac.

***Daşkənd şəhəri***
***25.10.2002-ci il.***

# QOYUM YAVAŞ

Qəddi düzəlt, sərbəst yeri,
Gəl qarşıma, doyum yavaş.
Tay-tuşlardan qalma geri,
Vəsfi tərpət, duyum yavaş.

Rəssam kimi rənglər seçim,
Həm sağına, sola keçim,
Gözəl libas-donlar biçim,
Gözlərimlə oyum yavaş.

Əndamına qibtə edim,
Eşq-işrətdə siftə edim,
Atəşlərdə həftə edim,
Nəzərimlə soyum yavaş.

İsrailəm, sevim səni,
Divanəyəm, gəzdir məni,
Güldür, oynat xoş bədəni,
Üzü-üzə qoyum yavaş.
Gəl qarşıma, doyum yavaş.

***Daşkənd şəhəri***
***14.08.1984-cü il.***





# CANLARA DƏYƏR

Günorta vaxtında, yol qırağında
Bir gözəl görmüşəm - canlara dəyər.
Qılınc tək oynadır çatma qaşını,
Yaralı sinəmdə qanlara dəyər.

Yerişi sadədir, duruşu möhkəm,
Baxır göz altından keçənlərə həm,
Qaşqabağın tökür-əhvalında qəm,
Gərginliyi qovan anlara dəyər.

Müqəddəs aləmdən sanki gəlibdir,
Şəriət elmini tamam bilibdir,
Qəhəri saxlayıb, gözün silibdir,
Nazını sanasan - onlara dəyər.

Tay-tuşu həsədlə baxır müstəqil,
Dartınmış duruşdan görünür əqil,
Xələti parlayır əynində çil-çil,
Bahalı atlaza, donlara dəyər.

Nəsiboğlu diqqətində ax edər,
Başını itirib ardınca gedər,
Qiyməti üstündə qədərdir-qədər,
Neçə şah-sultana, xanlara dəyər.
Yaralı sinəmdə qanlara dəyər.

***Daşkənd şəhəri***
***09.07.1982-ci il.***



# DƏYİŞMƏDİ

Qeyrətsizə ar verdilər,
Tezcə gətirdi bazara.
Onu orda teylədilər,
Başı düşdü dərd-azara.

Çox çalışdı pul qazanıb,
Satıb çoxlu dövlət yığsın,
Bol yeməkdən tez uzanıb,
Yoğunlayıb qarnı çıxsın.

Bu minvalla hey fırlandı,
Sata bilmədi heç kəsə.
Köpək görüb tez tullandı,
Qapıb aldı bir nəfəsə.

Qeyrətsizə hücum edib,
Qapıdan qovdu küçəyə,
Kənarlaşıb, uzaq gedib,
Dəyişmədi min sümüyə.
Dəyişmədi min sümüyə.



***Bakı şəhəri***
***30.11.2002-ci il.***



# BİL QƏDƏRİNDƏ

Aqil kəsə canı peşkaş eylərəm,
Nakəsə oturub gül gədərində.
Qanana nəsihət verib söylərəm,
Dinməzi həmləyib dil qədərində.

Nakişi önündə çox da dayanma!
Başını dinc qoyub yersiz oyanma!
Naşı rəssam surətində boyanma!
Düzə yaxın əyləş, qal qədərində.

Gözəllərə etibarın az olsun,
Yoxla qiyafəni, çalış, naz olsun,
Əhvalında, məsləkində saz olsun,
Qayğını, mətləbi sil qədərində.

Əqidəni qoru, möhkəm saxla sən,
Yamanı, böhtanı qovub haqla sən,
Nəfsini, nəfini tutub bağla sən,
Yalandan and icmə, öl qədərində.

İsrailəm, qorxaq olub bürüşmə,
Dosta vəfalı ol, darda sürüşmə,
Gopa basıb xəlvətidə irişmə,
Hər ölçü-kəsəri bil qədərində.
Yalandan and içmə, öl qədərində.

***Bakı şəhəri***
***18.08.2011-ci il.***



# DOYMAQ OLMAZ

Sinəsi yar, quzey qarı,
Dənəsindən doymaq olmaz.
Cüt sallanıb qoşa narı,
Giləsindən soymaq olmaz.

Nəzər yarır cəllad kimi,
Gözlər verib bu dərdimi.
Parçalama, al qəlbimi,
Nahaqq yerdən oymaq olmaz.

Camalından nur ələnir,
Buxaqdan tər səpələnir,
Ürəyimə od bələnir,
Tamam yanıb, qoymaq olmaz.

Naz-qəmzəsi çıxmır saya,
Əndamında düşdüm vaya,
Ləbləri var, gəlməz taya,
Vallah belə quymaq olmaz.

Təbəssümü qan eyləyir,
Könlümə güman teyləyir,
Canı yanmış, can söyləyir,
Yatağında uymaq olmaz.

Kəraməti azdır bunun,
Qaydasında yoxdur qanun,
Ayağında ölləm onun,
Eləsini duymaq olmaz.

Ayrılıq sinəmi didib,
Günlərimi qara edib,
Yalvarmışam, durub gedib,
İsrail tək maymaq olmaz.
Vallah belə quymaq olmaz.

***Sankt-Peterburq***
***29.07.1999-cu il.***

# GEDİB ÖLMƏLİ

Sənət aləmində çalışan insan
Tutduğu sənəti kamil bilməli.
Haqqı haqq işinə bağlayan zaman
Doğru danışmalı, deyib gülməli.

Tuncdan iz qoymalı ədəbiyyata,
Kəmiyyət təsviri mənəviyyata,
Dünyadan köcəndə əbədiyyata
Gələcək nəsildən sözü gəlməli.

Nəsiboğlu, el gözündə ucal sən,
Dərdiylə bir yaşa, birgə qocal sən,
Vətənin uğrunda eylə macal sən!
Əgər lazım olsa, gedib ölməli.
Gələcək nəsildən sözü gəlməli.

*Gəncə şəhəri*
*27.08.1992-ci il.*



# HƏDƏR ÖRTMƏZ

Çərxi-fələk yaman çəkir
Dəyirmanda xırmanımı.
Bağ-bağçamda qanqal əkir,
Puç eyləyir gümanımı.

Çala-çuxur, cığır öndə,
Şeytan salıb yuva dində,
Gedəmmirəm duman-çəndə,
Bağlayıbdır sübhanımı.

Qan-tər dizdə yovrulmuşam,
Od-alovda qovrulmuşam,
Cismim qalıb, sovrulmuşam,
Burulğana bük canımı.



Təlatümdən çox dinmişəm,
Ah-nalədən lap enmişəm,
Qismətimdən diksinmişəm,
Heçə qoyub imkanımı.

İsrailəm, haqq əlimdə,
Həqiqətlər söz-dilimdə,
Mənalar var hər ilimdə,
Hədər örtməz məkanımı.
Burulğana bük canımı.

***Daşkənd şəhəri***
***19.07.1982-ci il.***



# DURMALIYAM MƏN

Çətindir, görürəm, təzədən qurmaq,
Yenidən ayağa durmalıyam mən.
Düşməni tovlayıb gözündən vurmaq,
Əgər lazım olsa, vurmalıyam mən.

Bütün qohum-sirdaş qaçıb gizlənib,
Ağzına su alıb, tez məndən dönüb,
Yaxına gəlməyir, xəlvətə sinib,
Onlarsız şərait qurmalıyam mən.

Zülümlər çəkmişəm o nakəslərə,
Qoymadım yıxılsın hər əbəslərə,
Etibar etmirəm heç bir kəslərə,
Özümü iş qurub, yormalıyam mən.

İsrailəm, kişi kimi yaşaram,
Uçurumu, sıldırımı aşaram,
Tülkünü cığırda görsəm çaşaram,
Bu dəfə boynunu burmalıyam mən.
Yenidən ayağa durmalıyam mən.

***Sankt-Peterburq***
***17.09.2005-ci il.***



# SOYMA DEDİM

Düz sözümə çox nahaqdan
Başqa məna qoyma, - dedim.
Həqiqətin gözlərini
Xəncər olub oyma, - dedim.

Məhəbbətin surətini,
Yaratdığın çər-çətini,
Bütövlüyü, hər mətini,
Haqq-hesabla sayma, - dedim.

Gözəlliyin sonasına,
Hürü-pəri balasına,
Şərlər atıb ədasına
Dedi-qodu yayma, - dedim.

Qohumluğa arxalanıb,
Mənliyini tezcə danıb,
İsraili əfəl sanıb
Dərisini soyma, - dedim.
Dedi-qodu yayma, - dedim.

***Gəncə şəhəri***
***17.09.1993-cü il.***



# GÖDƏLİR

Zamanın nəbzini tuta bilmirəm,
Vicdan qeyzə gəlir, dilim gödəlir.
Gecələr baş qoyub yata bilmirəm,
Dərdlər əqli sıxır, ilim gödəlir.

Gözüm görür əyriliyi dibindən,
Ürək qopur, tezcə çıxır təbindən,
Əsəb dartır, ağız dönür ləbindən,
Əyilir ağrıdan, belim gödəlir.

Haqsız bünövrənin axırı olmaz,
Ucalan zirvənin çuxuru olmaz,
Əsaslı zəkanın paxırı olmaz,
Hayqıran naləmdə bəlim gödəlir.

Çiynimdən basırlar düzü deyəndə,
Bişirib kəlmədə sözü deyəndə,
Həqiqət talanır yüzü deyəndə,
Uzandığım yerdə kilim gödəlir.

Nəsiboğlu rahatlanmır yalandan,
Tülkülər qıy salır çölə dolandan,
Azara düşmüşəm doğru qalandan,
Rüşvəti verəndə əlim gödəlir.
Hayqıran naləmdə bəlim gödəlir.

***Bakı şəhəri***
***23.07.2007-ci il.***



# YARALANDIM UZAQLARDA

Həsrət dolu ürəyim var,
Yaralandım uzaqlarda.
Qanadsız da quşmu olar?
Aralandım uzaqlarda.

Vətənimin adı durur,
Damağımda dadı durur,
Sinəsində yadı durur,
Paralandım uzaqlarda.

Hərbi-mərcdə getdi Vətən,
Yollarımı kəsib çətən,
Dərdlərimlə tez, qəflətən
Xoralandım uzaqlarda.

İsrailəm, mən elsizəm,
Dilim dönmür, mən dilsizəm,
Kül sovrulub, mən külsüzəm,
Qaralandım uzaqlarda.
Paralandım uzaqlarda.

***Sankt-Peterburq***
***27.01.1996-cı il.***



# DƏRDLƏRƏ TƏRƏF

Çətindir, bəxtimi anlayan ola,
Düşə mən düşdüyüm dərdlərə tərəf.
Bu könülüm qədər boşala, dola,
Qalxa yoxuşumda fərdlərə tərəf.

Yaşaya-yarada ömür yolunu,
Çarpışa, həm çırmalayıb qolunu,
Sevindirə sağdakını, solunu,
Girə qüssələrdə qəm-şərə tərəf.

Bilə qədirimi hər addım başı,
Axıtmaya gözdən kədər, göz yaşı,
Yox edə ürəkdən asılan daşı,
Baxa idrakımdan bəd-sərə tərəf.

Qıylaya, səsləyə səadətimi,
Yönləyə ibadət - kəramətimi,
Şadlara qərq edə məhəbbətimi,
Əl çəkə küsdüyüm hər yerə tərəf.

İsrail əhvalı bildirə ona,
Eşqimlə bir yanıb, birgə odlana,
Ümidim şənlənə, tez gələ cana,
Boylana mənimlə səhərə tərəf.
Düşə mən düşdüyüm dərdlərə tərəf.

***Bakı şəhəri***
***17.12.2009-cu il.***



# QİYMƏTİN ÇOX

Mən səninlə fəxr edirəm,
Sözlərin tam, söhbətin çox.
Güzəştinə hey gedirəm,
Bu qəlbimdə minnətin çox.

Al çəmənlər, çöl içində,
Bağçamdakı gül içində,
Bu qocaman el içində
Ad-sanın çox, şöhrətin çox.

Dost-tanışın arasında,
Həm xeyrində, həm yasında,
Gözəllərin sırasında,
Etibarın, hörmətin çox.

Bilirəm, ar vardır səndə,
Ədəb-ərkan yerişində,
Hər danışıb, hər güləndə
Naz-qəmzəli ismətin çox.

İsrailəm, ürəyimdə,
Hər bir addım köməyimdə,
Dar günümdə, gərəyimdə
Sonsuz olan qiymətin çox,
Etibarın, hörmətin çox.

***Sankt-Peterburq***
***27.10.2005-ci il.***



# DOVŞANLA TÜLKÜNÜN DOSTLUĞU

*(təmsil)*

Dovşan tülkü ilə dostluq edirdi,
İşləri yaxşıca asan gedirdi,
Bir yerdə oturub, bir yerdə durur,
Gələcək günlərə planlar qurur.
Dovşan öz dərdini bölür onunla,
Nə yığcamı varsa, verir qanunla.
İşləri, sözləri həmişə birdi,
Tülkü bəd əməlçün onu sevirdi.
Bir gün cəm oluban çox gəzişdilər,
Axırda bir böyük fikrə gəldilər.
Tülkü öz dostuna verdi nəsihət.
Dedi: Sənin yuvan yamandır əlbət!
Gəl gedək qazıdan bir yuva alaq,
Adını çöllərdə yüksəyə salaq.
Dovşan öz dostuna çox inanırdı,
Onu çox sevirdi, yüksək sanırdı.
Bərabər qazıdan kağız aldılar,
Kağıza tülkünün adın saldılar.
Belə çox firavan yaşadı onlar.
Bilmədən tez keçdi bir neçə anlar.
Tülkü varlanmaqçün dostun çağırdı,
Əcaib bir səslə ona bağırdı:
Bilmirsən zəmanə dəyişib indi,
Yaşamaq, dolanmaq yaman çətindi.
Yuvanı tərk elə bax bu saatdan,
Görmədin, kağızı aldım qazıdan.
Adım, gibləgahım bu kağızdadı,
Bütün qayda-qanun bu yazıdadı.
Dovşan öz dostunu tanıdı dərhal,
Qalmadı bir inam, qalmadı xoş hal.
Dedi ki, ay tülkü, xəyanət etmə,
Allahın gözündə günaha getmə,
Əzrail bir zaman canın alacaq,
Dünyanın mirası burda qalacaq.

Tülkü-tülkülüynü göstərən zaman,
Bir ovçu gülləsi dəydi qabaqdan.
Tülkü məhv oluban düşdü axıra,
Bütün nahaqq işi düşdü paxıra.
Dovşan uzaqlaşıb meşəyə getdi,
Dostluğu bir yalnız dovşanla etdi.

***Gəncə şəhəri***
***31.08.1993-cü il.***



# BAXA BİLƏYDİN

Sinəmə vurduğun o yaralardan,
Yarsını götürüb baxa biləydin.
Fitnə-fəsadlardan, qapqaralardan
Alıb tez yaxana taxa biləydin.

Bu səbrim dözülməz olub, cananım.
Əhli heç tapılmır, yoxdur qananım,
Əhvalım sarsılır, tükənir anım,
Ürəyə qan olub axa biləydin.

Günəş kimi eşqə şölə saçaydın,
Uğrumda bəxtimə yollar açaydın,
Tufandan qəlbimə doğru qaçaydın,
Dərdə şimşək olub çaxa biləydin.

İsrailəm, fəryadıma ah eylə,
Ümid yetir mənə, həm pənah eylə,
Başımı qoymağa bir cinah eylə,
Məlhəmi loğman tək yaxa biləydin.
Ürəyə qan olub axa biləydin.

***Daşkənd şəhəri***
***31.08.1990-cı il.***



# SƏN OLMADIN

Ürəyimi dərd bürüyür,
Dərdə məlhəm sən olmadın.
Hicran tutub hey sürüyür,
Qəlbə həmdəm sən olmadın.

Şeyda bülbül yaralanıb,
Öz yarından aralanıb,
Sinə-dəftər qaralanıb,
Könüldə cəm sən olmadın.

Çəmənlərin şehi gedib,
O, dağların mehi gedib,
Məhəbbətin behi gedib,
Eşqimdə dəm sən olmadın.

İndi ötüb gəncliyimiz,
Ətir vermir çiçəyimiz,
Qalmayıbdır heç nəyimiz,
Sözdə möhkəm sən olmadın.

İstəyimdə oldun bani,
Sevgimizə qılma, cani!
İsrailəm, dünya fani,
Tutdum matəm, sən olmadın.
Dərdə məlhəm sən olmadın.

***Sankt-Peterburq***
***17.05.1997-ci il.***



# İZLƏNİR ZAMAN

Fəlsəfə qismində tarix düzəlmir,
Bilinmir həqiqət, gizlənir zaman.
Calaşmır, illərə günlər düz gəlmir,
Şəxsi məqsədlərə düzlənir zaman.

Tərif öndə gedir şöhrətə görə,
Naşı gec ayılır minnətə görə,
Büsatlar qurulur ibrətə görə,
Tədbirlər dəyişir, bizlənir zaman.

İsrailəm, ədaləti yazanam,
Şəri qovub, ona qəbir qazanam,
Yalan-böhtanları dibdən pozanam.
Asimanda dürüst izlənir zaman.
Bilinmir həqiqət, gizlənir zaman.

***RF, Voljsk şəhəri***
***18.03.2009-cu il.***





# YAD ƏLİNDƏ

El dərdinə ellər ağlar,
Vətən qaldı yad əlində.
İnildəyər, çağlar-çağlar,
Sinəsi var dad əlində.

Gözü yolda fəğan edər,
İçim-içim aman edər,
Vay qoparıb güman edər
Ürəyi fəryad əlində.

Nalə salar asimana,
Hey sızlayar yana-yana,
Vətən əziz, əziz ana,
Qoparar imdad əlində.

Gülməz üzü, qəmə batar,
Könülündə niskil yatar,
Ömüründə qatar-qatar
Tüğyan çatar bad əlində.

İsrailəm, yox gülzarım,
Umman olub ahı-zarım,
Göyçə mənim dövlət-varım,
Odlanar inad əlində.
Vətən qaldı yad əlində.

***Gəncə şəhəri***
***09.04.1994-cü il.***



# BİLƏ BİLMƏDİN

Ay mürvətsiz, çox gözlədim yolunu,
Ürək fəğan etdi, gələ bilmədin.
Ayrılığın varmı axırı, sonu?
Şad xəbər gətirib, gülə bilmədin.

Atmadın kədəri tamam üzündən,
Çatma qaşlarından, ala gözündən,
Etdiyim mənalı şirin sözündən
İntizarı yaxşı silə bilmədin.

Anmadın qəlbimi, anmadın düzü,
Yadına hey salıb sanmadın düzü,
Atdığım həyanı qanmadın düzü,
Məhəbbəti bir an dilə bilmədin.

Nəsiboğlu var-gəl etdi odunda,
Hara desən, ora getdi odunda,
Uçuruma asan yetdi odunda,
Təəssüf, heç məni bilə bilmədin.
Ürək fəğan etdi, gələ bilmədin.

***Daşkənd şəhəri***
***11.06.1983-cü il.***



# NAZLI PƏRİM

Nazın alır bu canımı,
Tez yaxın gəl, nazlı pərim.
Sevindir ah-amanımı,
Yaxşıca gül, nazlı pərim.

Pəncərənin arxasından,
Qapınızın o tayından,
İşarə et, gülüm, hər an,
Tərpənsin tül, nazlı pərim.

Surətini səhər gördüm,
Xoşa gəlməz təhər gördüm,
Gözlərində qəhər gördüm,
Dəsmalla sil, nazlı pərim.

Fırtınalar qovur bizi,
Coşub, qalxıb basır dizi,
Yox eyləyir sevgimizi,
Axıtma sel, nazlı pərim.

Dedi-qodu sən yaratma,
Dərdlərimi hey oyatma,
İşvə edib tez rəm atma,
İşlətmə fel, nazlı pərim.

Eşqimizi sözdən qoru,
Pis nəfisdən, gözdən qoru,
Hər alovdan, közdən qoru,
Ələmə kül, nazlı pərim.

Qəm-acını tezcə dadıb,
O hicranı hey oyadıb,
Vaxtımızı çox uzadıb,
Yaratma il, nazlı pərim.

Kədərləri sevincə qat,
Bir xoş istək, həvəs yarat,
Qollarını çiynimə at,
Sıxılsın bel, nazlı pərim.

Andımıza sadiqəm mən,
Atmaram bu könülümdən,
Bilməyirəm neçün, nədən
Eylədin təl, nazlı pərim?

Sənin kimi gözəl hanı?
Ətrafını təmiz tanı,
Dərin öyrən hər insanı,
Əməlli bil, nazlı pərim.

Başın ağrı görməsin heç,
Qeyli-qalın yanından keç,
Görüşəndə bir yoxla, seç
Verəndə əl, nazlı pərim.

Qismətində qış olmasın,
Gözün yaşla heç dolmasın,
Əkdiyin gül tam solmasın,
Əsməsin yel, nazlı pərim.

Dodaqların bal olubdur,
Gözlərimə xal olubdur,
Dilin dinmir, lal olubdur,
Bir sorub-dil, nazlı pərim.

Uzan, mənim üstümə çök,
Yaxşı-yaxşı bir məni sök,
Saçlarını sinəmə tök,
Səpilsin tel, nazlı pərim.

İsrailəm, qollarına,
Əgər olsa, yollarına,
Həm sağına, sollarına,
Döşərəm ləl, nazlı pərim.
Tez yaxın gəl, nazlı pərim.

***Sankt-Peterburq***
***30.08.2005-ci il.***



# GÜLLÜ

Sarı hörükləri salıb gərdənə,
Bəzənib gedirsən hayana, Güllü?
Burun nazik, bəyaz camal, düz çənə,
Bənzəyirsən işvə-canana, Güllü.

Qaşların dartınıb qopur yerindən,
Gözlərin oynayır, çıxıb tərindən,
Eşqin üzə qalxır, coşur sərindən,
Qiymətdə dəyərsən min xana, Güllü.

Yanağında gül-çiçəklər bəslənir,
Tərifin aləmdə dəbdən səslənir,
Yollarında çox sevgilər kəslənir,
Yayılıb sorağın məkana, Güllü.

Qamətin yerişdə ağıl itirir,
Cavanlara məhəbbətlər gətirir,
Qəlbi üzən xoş xülyalar yetirir,
Nə əcəb düşübsən cahana, Güllü?

Nəsiboğlu tamaşadan yorulmur,
Ətirindən abı-hava durulmur,
Sinəmdəki yaralarım sorulmur,
Gəlib bir baxaydın al qana, Güllü.
Bəzənib gedirsən hayana, Güllü?

***Gəncə şəhəri***
***19.02.1994-cü il.***



# XANIM

Tər bənövşə düzüb telə,
Hey dolanma dağa, xanım.
Çox düşübsən dildən-dilə,
Boylan sola-sağa, xanım.

Gərdənində qara saçın,
Dərdlərimə var əlacın,
Fələkdədir bac-xəracın,
Qoyma axır lağa, xanım.

Qovğalıdır ədan sənin,
Xoşa gəlir sədan sənin,
Ürəyimdə qadan sənin,
Toxunma tez tağa, xanım.

Sinəndə parlaq daş-qaşın,
Həm cavansan, azdır yaşın,
Bəlalıdır hər an başın,
Dilini sal yağa, xanım.



Yerişində ceyran sayaq,
İncə baldır, nəcib ayaq,
Qoltuğa al indi, bayaq,
Barı eylə cağa, xanım.

Dodağında cicə-balın,
Yanağında qara xalın,
Ətəyində yaşıl şalın,
Yaraşırsan bağa, xanım.

İsrailəm, gəl yanıma,
Canın düşsün sübh canıma,
Qurban olum bu xanıma,
Məni çağır qağa, xanım.
Qoyma axır lağa, xanım.

***Daşkənd şəhəri***
***16.04.1988-ci il.***

# ƏDASINA VURULDUM

Könülümü baxışıyla ovlayan,
Bir diyarın sevdasına vuruldum.
Əqlimi başımdan alıb, tovlayan,
İşvə-nazın sədasına vuruldum.

Uğurunda gecə-gündüz yandığım,
Xəyalımda usandığım, andığım,
Eşitdiyim, düşündüyüm, qandığım,
Sözlərinin mənasına vuruldum.

İsrailin ürəyini talayan,
Səhər-səhər şəfəqləri calayan,
Bu sinəmdə sönməz alov qalayan
Şux gözəlin ədasına vuruldum.
Sözlərinin mənasına vuruldum.

***Daşkənd şəhəri***
***09.06.1986-cı il.***





# KƏSƏ DƏYİŞMƏRƏM

Həyatımda, gülüm, səni
Heç bir kəsə dəyişmərəm.
Söhbətini, dür-kəlməni
Başqa səsə dəyişmərəm.

Yanağında qara xalı,
Başındakı əlvan şalı,
Üstündəki qeyli-qalı
Vara, bəsə dəyişmərəm.

Uğurumda gözü dolan,
İntizarda yanıb solan,
Nəfəsimlə nəfəs alan,
Tər nəfəsə dəyişmərəm.

Sənin kimi yoxdur gözəl,
Qismətimdə oldun əzəl,
Yollarıma düşsə xəzəl,
Hər həvəsə dəyişmərəm.

İsrailəm, xoşum səndə,
Taleyimə gələn bəndə,
Çiçəyimsən al çəməndə,
Xoş əbəsə dəyişmərəm.
Heç bir kəsə dəyişmərəm.



***Bakı şəhəri***
***28.03.2004-cü il.***



# ZƏHƏR DƏ QATDI

Yaxşılıq  yapanda özümünkünə,
Əhvalıma acı təhər də qatdı.
Atdı uçuruma, bəd-yaman günə,
Sıxılan boğaza qəhər də qatdı.

Düşmənlər mərd olur vurduğu yolda,
Tələlər qoyduğu, qurduğu yolda,
Cismim inildədi durduğu yolda,
Üstəgəl yönümə ah-şər də qatdı.

Dinmədim, dedim kı, başa düşməyir,
Nakişilik edib düz ilişməyir,
Əksinə, yubanır, dürüst seçməyir,
Yuxusuz gecəmə səhər də qatdı.

İsrail qolundan tutdu nakəsin,
Dözdü hədyanına hər bir əbəsin,
Alçaldı mənliyi bu nankor kəsin,
Ömrümə əfi tək zəhər də qatdı.
Sıxılan boğaza qəhər də qatdı.

***Sankt-Peterburq***
***25.09.2010-cu il.***



# SƏN AXTARMA

Həqiqəti bu yollarda
Çox da sanıb sən axtarma.
O ac toyuq yuxusunda
Görsə darı, dən axtarma.

Daşdan olan ürəklərdə,
Köhnə, çürük dirəklərdə,
Boş, lazımsız gərəklərdə
İstək, həvəs, dəm axtarma.

Pul nakəsi azdırır tez,
Güman verir, qoymayır iz,
Mənliyindən qalıbdır toz,
Söhbətində cəm axtarma.

İsrailəm, anan olsa,
Sözlərimi qanan olsa,
Havasından yanan olsa,
Sazında heç bəm axtarma.
İstək, həvəs, dəm axtarma.

***Bakı şəhəri***
***10.09.2001-ci il.***



# ŞANA BATIBDIR

Mən, yazığa, insaf eylə, bəri bax,
Elə bil ürəyə şana batıbdır.
Yaralı sinəmə məlhəmi sürt, yax,
Dərdindən bağırım qana batıbdır.

Hər görəndə qəhrim çoxalır yaman,
Gecə də, gündüz də edirəm aman,
Əlimdə qalmayıb bir səbr, güman,
Əqlim çaşıb, çən-dumana batıbdır.

Qərar tutmayıram fikir-xəyaldan,
Hey təngə gəlirəm düzü bu haldan,
Doymaq olmur o işvəli camaldan,
Coşdurub daşan ümmana batıbdır.

Gəncliyin qədrini bilsən yaxşıdır,
Kədəri, qəmləri silsən yaxşıdır,
Nakam məhəbbəti dilsən yaxşıdır,
Qəsdən könlüm dar cahana batıbdır.

Nəsiboğlu əlac axtarır səndə,
Məkanda görmürəm bərabər bəndə,
Tez cavab versənə, sual verəndə,
Yoxsa ömrüm zimistana batıbdır.
Coşdurub daşan ümmana batıbdır.

***Daşkənd şəhəri***
***23.04.1987-ci il.***



# ÖMÜR KEÇİR

Zaman ötür, il dolanır,
Nəzər seçir yavaş-yavaş.
Ürək vurur, qan bulanır,
Haray çəkir yavaş-yavaş.

Təlatümlü yol qırağı,
Tamamlanır eşq varağı,
Könül qopur, ver sorağı,
Qəmlər içir yavaş-yavaş.

Əhval küsür, xəyal dalır,
Keçmişinə nəzər salır,
Fələk bizdən xərac alır,
Nişan əkir yavaş-yavaş.

Həyat gedir qaydasıyla,
Fəsil ötür faydasıyla,
Nəsil gəlir sevdasıyla,
Qalxıb bitir yavaş-yavaş.

İsrailəm, hey baxıram,
Axınlarda lal axıram,
Alovlanıb od çaxıram,
Ömür keçir yavaş-yavaş.
Qəmlər içir yavaş-yavaş.

***Bakı şəhəri***
***27.12.2001-ci il.***





# GÜLMƏ, AMANDI

Sığallanıb, nə çıxıbsan bayıra?
Qıyqacı-qıyqacı gülmə, amandı.
Bu könülü çətin kimsə ayıra?
Ahəstə-ahəstə gəlmə, amandı.

Ürək heyran olub, qurban olubdur,
Arzu-diləklərim sənsiz solubdur,
Gözlərim tənhada yaman dolubdur,
Dönüb göz yaşımı silmə, amandı.

Vurğunuyam o baxışa, o gözə,
O sinəyə, o yanağa, o üzə,
Uyma, gülüm, hər yalana, hər sözə,
Məni bir divanə bilmə, amandı.

İsraili öndə duyub qaçma sən,
Hər yaxına günəş olub saçma sən,
Ürəyini bir kimsəyə açma sən,
Sonradan yar deyib dilmə, amandı.
Məni bir divanə bilmə, amandı.

***Daşkənd şəhəri***
***24.03.1987-ci il.***





# DURMAQ OLMAZ

Nankor kəslə yol-yoldaşı
Axıradək qurmaq olmaz.
Yaxın edib qəlb sirdaşı,
Bir süfrədə vurmaq olmaz.

Arxa tutma beləsinə,
Boyun qoyma həmləsinə,
Dar məqamda al səsinə,
Əl uzadıb varmaq olmaz.

Uzağa qoy, at aralı,
Nəyin varsa, sat aralı,
Ümmanlarda bat aralı,
Kömək deyib sormaq olmaz.

Ayıq-sayıq içdən gəlir,
Qeydə qalmaq vecdən gəlir,
Özgə qayğı heçdən gəlir,
Canı əbəs yormaq olmaz.

İsrailəm, bax ətrafa,
İşlət səri, doldur qafa,
Badalaqda görmə cəfa,
Yıxsa səni, durmaq olmaz.
Kömək deyib sormaq olmaz.

***Bakı şəhəri***
***16.12.2011-ci il.***



# GƏL , GÖZƏLİM

Məndən hey qısqanıb ahlara düşmə.
Dərindən əqlimi bil, gözəlim, bil.
Ayrılıq sözünü unut həmişə,
Ömür yollarından sil, gözəlim, sil.

Sözümdə qətiyəm, ürəkdən yumşaq,
Fitnədən, yalandan uzağam-uzaq.
O küskün halında asta bəri bax,
Şikəstə könlümü dil, gözəlim, dil.

Özgəni eşidib tökmə göz yaşı,
Qarşına çox tutma amansız qışı,
Oynat qara gözü, düz qələmqaşı,
Doyunca bəxtinə gül, gözəlim, gül.

Sığal ver bədənə, şən üzə, qola,
Eşqin nazını çək, qoyma sən sola,
İsrail usana, gümansız qala,
Sevincək yanıma gəl, gözəlim, gəl.
Doyunca bəxtinə gül, gözəlim, gül.

***Daşkənd şəhəri***
***19.07.1985-ci il.***



# MƏRHƏMƏT QIL

Üzün ağdır, qəlbin laldır,
Könülümə mərhəmət qıl.
Al dodağın şəkər, baldır,
Dəhanıma təravət qıl.

Əllərini əlimə qoy,
Tellərini telimə qoy,
Dillərini dilimə qoy,
Məhəbbətdə məharət qıl.

Çəkinmə yaxın gələndə,
Məna gətir hər güləndə,
Həm danışıb, həm dinləndə
Söhbətində məlahət qıl.

Gülsün həyat ortalıqda,
Hissi oyat ortalıqda,
Qəlbi boyat ortalıqda,
Ürəyimə kəramət qıl.

Sevib sevək sizi, bizi,
Hey saxlayaq sirrimizi,
Tam qoruyaq eşqimizi,
İşvələrdə nəzakət qıl.

Qibtə etsin duyub anan,
Üzümüzə baxıb sanan,
Qoy düşünsün eşqi danan,
Ətrafına şücaət qıl.

İsrailəm, doğru yaşa,
İlişməsin bəxtin daşa,
Ömrümüzü sürək qoşa,
Həyatında ədalət qıl.
Ürəyimə kəramət qıl.

*Daşkənd şəhəri*
*16.06.1984-cü il.*

# YOLUMDAN MƏNİ

Tufanlar qoparan bir ümmanam, bil!
Nakəs əyə bilməz yolumdan məni.
Nahaqqı hey qovan ah-amanam, bil!
Naşılar yenəmməz solumdan məni.

Çınqıllı cığırda yorğun, təkmişəm,
Həyatda itməyən zəhmət çəkmişəm,
Alaqlar qoparıb, bağlar əkmişəm,
Tapırlar biçilən kolumdan məni.

Dəhşətli borandan qorxum olmayıb,
Zillətdən sızlayan gözüm dolmayıb,
Ümidsiz dayanıb, aciz qalmayıb,
Çətir də qorumaz dolumdan məni.

Kədərlər, qüssələr düz əlimdədir,
Dəyərli kəlmələr söz-dilimdədir,
Dayağım mərdlikdə, dərd belimdədir,
Tanrı çıxarammaz çulumdan məni.

Nəsiboğlu büdrəməz heç çətində,
Görmüşəm möhkəmlik tamam mətində,
İlişməz qətiyyən döngədə, tində,
Yıxılmaram, tutma qolumdan məni.
Tanrı çıxarammaz çulumdan məni.

***Bakı şəhəri***
***17.04.2010-cu il.***



# TƏRK ELƏMİR

Çalışıram qoşum işi,
Qara zolaq tərk eləmir.
Bu fələyin beşi, şeşi
Yaxşı gəlmir, ərk eləmir.

Həyat başdan başa oyun,
Zurnası var hər bir toyun,
Başqasına olma boyun,
Ağıl çaşır, dərk eləmir.

İsrailəm, süst halımı,
Aqibətsiz vüsalımı,
Sərt dolanan amalımı
Şeytan oyur, bərk eləmir.
Qara zolaq tərk eləmir.

***Sankt-Peterburq***
***19.11.2005-ci il.***





# VALLAH

Zaman öz oxundan çıxıb deyəsən,
Qışda yağış yağır, qar yayda, vallah!
Az qalır gərdişə söyüş söyəsən,
Dəyişir adətdə min qayda, vallah!

Demokrat sözləri dönüb alverə,
Sırınır arada zor verə-verə,
Mafiya soxulub bütün hər yerə,
Görülmür bir tədbir, yox fayda, vallah!

Azalmır fitnələr, haqsızın feli,
Fəqirin acından əyilib beli,
Aranı dağıdır Kür, Araz seli,
Milyonlar yeyilir hay-hayda, vallah!

Rüşvətlər alınır hey addım başı,
İstər yumruğu çırp, alnını qaşı,
Zindana dönübdür laqeydlik daşı,
Sanasan, az deyil, çox sayda, vallah!



Kəramət sözləri qırılıb dibdən,
Pulun dəyəri yox, tam gedir cibdən,
Büzüşür, əzişir ədalət təbdən,
Günümüz ötüşür ah-vayda, vallah!

Savadın qiyməti yoxdur tərində,
Cilafı saxtadır, qızıl-zərin də,
Məmur biganədir, rahat sərində
Yığır dollarını hər ayda, vallah!

İsrailəm, çətin belə dolanmaq,
Köz-külü püfləyib odda qalanmaq,
Sərvət hamınındır, yetər talanmaq,
Bizim payımız var bu payda, vallah!
Milyonlar yeyilir hay-hayda, vallah!

***RF, Smolensk***
***20.05.2010-cu il.***

# NAZDI

Tovuz quşu kimi əlvan
Bəzənibsən səhər, Nazdı!
Bütün gözəlliyə heyran,
Mata qalıb şəhər, Nazdı!

Nazlanırsan sözə gəlib,
Könülümü asta dəlib,
İstəyimi qanıb-bilib,
Eyləmə bir təhər, Nazdı!

Boynun büküb durma belə,
Sığalı çək burma telə,
Şəkəri qat ağız-dilə,
Qəsdən tökmə zəhər, Nazdı!

Görəmməsəm, alışaram,
Ürəyimə dərd salaram,
İntizarla yoxdur aram,
Yapma gözə qəhər, Nazdı!

İsrailəm, Məcnun ollam,
Sənsiz tamam yanıb-sollam,
Bulaq təki tez-tez dollam,
Bu eşqə ver bəhər, Nazdı!
Yapma gözə qəhər, Nazdı!

***Bakı şəhəri***
***27.08.1997-ci il.***



# SONDA DUYURSAN

Sübh-tezdən şeh üstə gəzişən zaman
Çəmənin ətrini onda duyursan.
Ulduzlar fəth edib oyatsa güman,
Zərif incəliyi qanda duyursan.

Qalxıb dağ başına qərar verəndə,
Bənövşə, qərənfil yığıb dərəndə,
Çiçəkdən çələnglər hörüb sərəndə,
Fərəhi al-əlvan donda duyursan.

Məhəbbət timsalı bir az bol olsa,
Yapılan hisslərin ürəkdə qalsa,
Xəyalda çırpınıb lövhələr salsa,
Nəzəri duruldan anda duyursan.

Dərgahın önündə deyinəndə tək,
Yoxuşa qalxanda, həm enəndə tək,
Arzular çin olub sevinəndə tək,
Sehiri ətrafda, yanda duyursan.

Təşvişlər yox olub üstündən getsə,
Həvəs qürrələnib dadına yetsə,
Yamyaşıl yaylaqlar qarşında bitsə,
Qismətin bəxşini bunda duyursan.

İsrail torpağın bəhərinə bax,
Yaradan Tanrının təhərinə bax,
Açılan üfüqə, səhərinə bax.
Bütün gözəlliyi sonda duyursan.
Nəzəri duruldan anda duyursan.

*Daşkəsən rayonu*
*17.05.2009-cu il.*



# ZAVALI YERBƏYERDİ

Xanım-xatın bu gözəlin
Tər camalı yerbəyerdi.
Çatmaz buna bir qız-gəlin,
Xub kamalı yerbəyerdi.

Hər müjdəsi haya bənzər,
Qaşlar nazik yaya bənzər,
Parlaq üzü aya bənzər,
Qara xalı yerbəyerdi.

Dodaqları qönçə-qönçə,
Boğaz nazik, burun incə,
Eşqə saldı bayaq, öncə,
Zor amalı yerbəyerdi.

Həvəs artır könülümdən,
Seçilmir çiçək-gülümdən,
Əndamı var tam bölümdən,
Bütöv dalı yerbəyerdi.

Məhəbbətdə özün dartır,
Hissiyyatım coşub artır,
Naz eyləyir, istək qartır,
Tamda kalı yerbəyerdi.

İsrailəm, sənə qurban,
Bu bağrımı eyləmə qan.
Az görmüşəm belə canan,
Həm zavalı yerbəyerdi.
Xub kamalı yerbəyerdi.

***Sankt-Peterburq***
***23.06.1998-ci il.***



# KORLAYIR

Bilməyirəm, hansı yola düşmüşəm?
Tufan qopur, məsafəni korlayır.
Yığval dərəsində kola düşmüşəm,
Burulğanlar duman-çəni korlayır.

Müşkül məsələdir, dərddə düzəlim,
Bələkdən pozulub bəxtim, əzəlim,
Ah-aman içində qoşmam, qəzəlim,
Xəzan enib al-çəməni korlayır.

Yoxuşlarda, enişlərdə dolanma,
Kimsələrin qüssəsində qalanma,
Məhəbbətdə ürəyinlə talanma,
Sadəlövhlük hər yetəni korlayır.

İtələdim özlüyümdən özümü,
Qəsdən yumdum gözlüyümlə gözümü,
Ləyaqətlə hey qorudum sözümü,
Naxələflər düz deyəni korlayır.

Uçurumda qayalıqdan sallandım,
Naəlacam, dağa-daşa yollandım,
Nanəcibə, nadürüstə allandım,
İsrailəm, tərslik məni korlayır.
Tufan qopur, məsafəni korlayır.

*Bakı şəhəri*
*01.03.2010-cu il.*



# TALANDI, DEYƏSƏN

Bu gün gözüm önündə
Yer dolandı, deyəsən.
Söhbət-sözüm önündə
Od qalandı, deyəsən.

Dinlədim hər yetəni,
Fikir götürdü məni,
Görəndə al çəməni
Şeh bulandı, deyəsən.

Eşqim yadıma düşdü,
İsmi adıma düşdü,
Sandım dadıma düşdü,
Dərd kalandı, deyəsən.

Görməyirəm neçə ay,
Ayrılığı otur say,
Ömrüm onsuz olub zay,
Qəm calandı, deyəsən.



Həsrət dartır zindana,
Qalmışam yana-yana,
Könül az qalır dana,
Bu yalandı, deyəsən.

İsrailəm, ah-vayda,
Tənhalıqdan nə fayda?
Yardım etmir haray da,
Bəxt talandı, deyəsən.
Od qalandı, deyəsən.

***Bakı şəhəri***
***19.12.1998-ci il***



# DÜZ BUYURUBLAR

Gədədən bəy olmaz, - deyib atalar.
Doğrudan belədir, düz buyurublar.
Dünyada yaşayan, yaradan xilqət
Qanmaza lazımi söz buyurublar.

Hikmətin kəlamı, qiyməti böyük,
Varlığı, mənası, töhməti böyük,
İdrakı, iqbalı, hörməti böyük,
Tarixi nəzərə göz buyurublar.

Ümmanlar çırpınır tam tutumuyla,
Ölçülür hesablar hər pudumuyla,
Büsatlar yaranır öz sütunuyla,
Məna dəyərinə üz buyurublar.

Ümid etmə etibarsız fələyə,
Haqqını qazandır hürü-mələyə,
Əl atma nahaqqa, fitnə-kələyə,
Köçəndə həyatdan bez buyurublar.

Nəsiboğlu, xırdalama zərrəni,
Fırlanan aləmi, hər bir dürrəni,
Gəzsən kainatı, bütün kürrəni,
Görərsən, məqamda iz buyurublar.
Tarixi nəzərə göz buyurublar.

***Gəncə şəhəri***
***15.01.1994-cü il.***



# YARAM İNDİ

Əzab vermə, ay həsrətim!
Sızıldayır yaram indi.
İmkan vermir mətanətim,
Səadəti quram indi.

Ayrılığa tez son qoyam.
Kədər nədir? Didib oyam,
Məhəbbəti anıb doyam,
Ehtirası yoram indi.

Sevindirək ürəkləri,
Göydə uçan mələkləri,
Həm cütləri, həm təkləri
Hey axtarıb aram indi.

Nəvazişə əl ataq biz,
Səadəti hey tutaq biz,
Arzumuza düz çataq biz,
İstəkmizə varam indi.

Qüssələri kənara at,
Bu hissimi hissinə qat,
İsraillə eşqi yaşat,
Xoşbəxtlikdə duram indi.
İstəkmizə varam indi.

***Daşkənd şəhəri***
***13.05.1999-cu il.***



# ƏLLƏŞİRƏM MƏN

Səhərdən axşama əlləşirəm mən,
Görmürəm işimin axır-sonunu.
Hərdən təəssüflə dilləşirəm mən,
Qurtarmır qoysam da yüzdə onunu.

Diqqət əlimdədir, xəyal başımda,
Təngnəfəs olubdur iqbal başımda,
Yorulub çırpınır vüsal başımda,
Əqlim heç yaratmır fəsad donunu.

Nəsiboğlu, zorla işdə işləmə,
Kəlməni, sözləri dişlə dişləmə,
Nərdidə cütləmə, atıb şeşləmə,
Dəyişdir mənanın ağır tonunu.
Görmürəm işimin axır-sonunu.

*Daşkənd şəhəri*
*29.11.1983-cü il.*





# GÖRÜŞÜNDƏ

Qədəminə şükür olsun,
Sevinc atdın görüşündə.
Tamın şəkər-balla dolsun,
Eşq yaratdın görüşündə.

İşvə verdin, naz eylədin,
Kefimi lap saz eylədin,
Dinimdə namaz eylədin,
Əl uzatdın görüşündə.

Duyğularda ucaldın sən,
Çox tanıdım hər dəfədən,
Əhvalını sezirəm şən,
Nəşə qatdın görüşündə.

Səmimiyyət önə çıxdı,
Səadətim yönə çıxdı,
İstək dönə-dönə çıxdı,
Hiss oyatdın görüşündə.

Hər nə desəm, sözümə bax,
Diqqət yetir, özümə bax,
İsrailəm, gözümə bax,
Dəqiq çatdın görüşündə.
Eşq yaratdın görüşündə.

***Sankt-Peterburq***
***15.09.1995-ci il.***



# GƏL, GÖZƏL BAHARIM

Gəl, gözəl baharım, gəl, gözəl yazım,
Dillənsin könlümdə bu telli sazım,
Ətrafa yayılsın sözüm, avazım,
O soyuq qarların izi silinsin,
Yazın əlaməti bağda bilinsin.

Bənövşə ətrində uyub üzərəm,
O yalı-yamacı durub gəzərəm,
Şerimdə bəndləri səf-səf düzərəm,
Qalxaram dağların uca qoynuna,
Doyunca baxaram gözəl boynuna.

Vətənə vurğunam, elə vurğunam,
Ağ günə, xoş aya, ilə vurğunam,
Çiçəyə vurğunam, gülə vurğunam,
Yaz sevinc gətirən bu bollu yazı,
Qoşma qoş, mahnı de, kökləndir sazı.

Dumanlar çəkilsin zirvə başından,
Doymaram Vətənin gözəl qaşından,
Tarix hey canlanır çıxan daşından.
İsrail, təsvir et yazın bəsini,
Dinlə bülbüllərin şən nəğməsini.

***Göyçə mahalı***
***20.06.1977-ci il.***



# DOLANMIŞAM

Qonşuluqdan enən gözəl,
Həyəcandan allanmışam.
Başın əyib sinən gözəl,
İztirabda sallanmışam.

Düz qarşıma tökmə kədər!
Ömürümə qoyma hədər!
İnsaf varmı bircə qədər?
Ayrılığa yollanmışam.

Könül verib, könül alan,
Peyman qılıb, razı qalan,
Pirə gedib, nəzir salan
İbadətdə qalanmışam.

Hicran tutub didir qəsdən,
Sən loğmansan, mənsə - xəstən.
Xəbər çatmır heç bir kəsdən,
Qüssələrə bulanmışam.



İşarəmə məhəlin yox,
Razılığa xoş bəlin yox,
Uzatmağa qol-əlin yox,
Qəhərlərlə yalanmışam.

Həsrətini hey çəkirəm,
Gözlərimdən yaş tökürəm,
Ürəyimi lap sökürəm,
Kökündən tam talanmışam.

İsrailin səbri bitib,
İnam sərdən qaçıb, itib,
Məcnun kimi ah-vay edib,
Bu dağları dolanmışam.
Qəhərlərlə yalanmışam.

***Bakı şəhəri***
***30.06.2010-cu il.***

# SAĞDAN KEÇƏNDƏ

Qəm odunda qalanıram səhərdən,
Bir gözəl görmüşəm sağdan keçəndə.
Qərar tutammıram dolub qəhərdən,
Məqam fürsətində çağdan keçəndə.

Eşq atəşi sönmək bilmir yananda,
Tayı yoxdur hər istəkli cananda,
Kəlam verib, kəlamımı qananda
Tufan qopdu sevgim bağdan keçəndə.

Nəsiboğlu yaman dərdə düşübdür,
Ruhu qaçıb, gözə pərdə düşübdür,
Bu bəlaya bu şəhərdə düşübdür,
Yaralanıb belə dağdan keçəndə.
Məqam fürsətində, çağdan keçəndə.

***Düşənbə şəhəri***
***13.09.2000-ci il.***





# NƏZƏRİNLƏ

Təbəssümlə ötüşəndə
Oxlar vurdun nəzərinlə.
Cığırımız bitişəndə
Yolu burdun nəzərinlə.

Vay qopardın hay yerinə,
Həşir saldın lap dərinə,
Diləyimin hər birinə
Kələk qurdun nəzərinlə.

Hey teylədin amalımı,
İqbalımı, vüsalımı,
Əqlimdəki kamalımı
Yaman yordun nəzərinlə.

Sevgimizə qənim oldun,
Şimşək kimi çaxıb doldun,
Səadətin saçın yoldun,
Kədər sordun nəzərinlə.

Əl çəkmədin İsraildən,
Həm fitnədən, həm də feldən,
Öndə şahmar tək qəfildən
Bitib durdun nəzərinlə.
Kələk qurdun nəzərinlə.

***Bakı şəhəri***
***11.10.1998-ci il.***



# MƏNİ SORAQLASIN

Darıxmışam, öz obama
Ellər məni soraqlasın.
Yanıb sönən köz-sobama
Küllər məni soraqlasın.

Fəryad edən daşım, dağım,
Xəzan örtüb solan bağım,
Coşub-daşan buz bulağım,
Sellər məni soraqlasın.

Çəməngahı ahlar atan,
Qüssələrə düşüb batan,
Taptalanıb yerə yatan
Çöllər məni soraqlasın.

Qayalarda uçan qartal,
Vərəqlənən gözdə xəyal,
Qəriblikdə başında çal
Tellər məni soraqlasın.

Ləçəyindən sapsaralan,
Biganədə qapqaralan,
Qönçəsindən lap daralan
Güllər məni soraqlasın.

İntizarla baxan mələk,
Yurdumuzu yıxan fələk,
Gədiklərdə əsən külək,
Yellər məni soraqlasın.

Həqiqəti, haqqı bilən,
Hayastanı qırıb-silən
Türk dünyası, deyib-dilən
Dillər məni soraqlasın.

Qüvvəsiylə dağıdan ər,
Vurub çırpan qoç igid, nər,
Silah tutub öyünən hər
Əllər məni soraqlasın.

İsraillə dərdlər üzən,
İztirabdan dodaq büzən,
Keçmişlərdən qatar düzən
İllər məni soraqlasın.
Ellər məni soraqlasın.

***Göygöl rayonu***
***19.08.2011-ci il.***



# QARA GÖZLƏRİN

Zülfün düşüb gərdənində sallanır,
Nə gözəl oynayır qara gözlərin!
Bəyaz camal, yanaqların allanır,
Salıbdır eşqimi dara gözlərin.

Qaşların dartınır kamandan betər,
Kirpiyin ovlayır amandan betər,
Qıyqacı nəzərin yamandan betər,
Edibdir ömrümü zara gözlərin.

Xəstə könlüm vurulubdur sinədən,
Vahimə yaradır yerişdə bədən,
Atıbsan odları, bilmirəm nədən?
Verərdi dərdimə çara gözlərin.

Fırladıb baxanda titrəyir halım,
Bir qərar tutmayır əqlim, əhvalım,
Həvəsdən sıxılır idrak-amalım,
Gələydi insafa, kara gözlərin.

İsrailəm, düşdüm sevgi toruna,
Kömək lazım qığılcımdan qoruna,
Yalvarıram o nənənin goruna,
Gülsün axır düz ilqara gözlərin.
Nə gözəl oynayır qara gözlərin!

***Bakı şəhəri***
***09.05.2007-ci il.***



# SƏNİN YOLLARINDA

Ağrın alım sənin, gözəl,
Gülüm sənin yollarında.
Tər üstünə gəlsə əcəl,
Qalım sənin yollarında.

Əqlimdəki əhd-iqballa,
Bu əhvalla, bu minvalla,
Gizli gəzən xoş xəyalla
Dalım sənin yollarında.

Bağçamdakı çiçək-barı,
Sinəmdəki qoşmaları,
Çiynimdəki sazı-tarı
Çalım sənin yollarında.

İsrailəm, vəfadaram,
Dar günündə hər an varam,
Birbaşa yox, aram-aram
Ölüm sənin yollarında.
Qalım sənin yollarında.

***Sankt-Peterburq***
***30.08.2006-cı il.***



# QIZLAR

Durna kimi qaqqıldaşıb
Yol tutubsuz hara, qızlar?
Sözlərimə pıqqıldaşıb
Bir eyləyin çara, qızlar.

Kəklik təki əllər xına,
Çəp örtməyin üzə cuna!
Xəncər qaşı tutub qına
Çox çəkməyin dara, qızlar.

Bülbül qədər cəh-cəh vurun,
İstəsəniz, tələ qurun,
Bu könlümü alın, yorun,
Eyləməyin qara, qızlar.

Qaranquşlar dövrənizdə,
Bədirlənib ay bənizdə.
Sevgi varmı əhdinizdə?
Sinəm dolu yara, qızlar.

Göyərçinlər qanad açır,
Lələyindən şölə saçır,
Arxanızca uçub qaçır,
Ov etməyin sara, qızlar.

Görünüşdən məst olmuşam,
Köksümü başdan yolmuşam,
Lal duruşdan yorulmuşam,
Uzatmayın ara, qızlar.

Güleyşə narı sinədə,
Töküb xallar alt çənə də,
Dözəmməsəm sərt tənədə
Yönəltməyin xara, qızlar.

Mən ovçuyam, sizsə - şikar,
Hər kəlməmə durub bekar,
Düzülübsüz yana aşkar,
Tək salmayın zara, qızlar.

İsrailə edin əlac,
Məlhəm verin, sər yalavac,
Dən-dən olur telimdə saç,
Tez yetişin kara, qızlar.
Çox çəkməyin dara, qızlar.

***Daşkəsən rayonu***
***27.03.2011-ci il.***



# İZLƏRİN ÜSTƏ

Xəyalım arayır, hey anır səni,
Əksimi görəydim gözlərin üstə.
Axtarıb tapanda, sənin kaş bir an
Sökərdim üzümü üzlərin üstə.

Yanında olaydım, baxaydım sənə,
Baxaydım, baxaydım, baxaydım yenə,
Əlimi qoyardım o əllərinə,
Yapardım dizimi dizlərin üstə.

Nazlı o qamətin yadıma düşür,
Ləzzətli əndamın dadıma düşür,
Etdiyin nəvaziş adıma düşür,
Atardım özümü özlərin üstə.

İndi quş oluban uçaydım belə,
Tezliklə yanına qaçaydım belə,
Qapını qəflətən açaydım belə,
Düşəydim dediyin sözlərin üstə.

İsrail odlanıb hey alovlanır,
Sinəmdə ürəyim köz olub yanır,
Bu əqlim həmişə, bil, səni sanır,
Başımı qoyuram izlərin üstə.
Əksimi görəydim gözlərin üstə.

***Bakı şəhəri***
***21.12.2003-cü il.***



# ELƏ SÖYKƏNİR

Naz-qəmzənin qiyaməti
Baxanda belə söykənir.
Yerişinin şux qaməti
Gərdəndə telə söykənir.

Qələm qəddi qaşındadır,
Tər görünüş yaşındadır,
Xubbu-kəlam başındadır,
Atanda ələ söykənir.

Şıltaqlığın ədası var,
Ürəyimə fədası var,
Adın çıxıb sədası var,
Dinəndə zilə söykənir.

Canlar alır mavi gözlər,
Bədirlənib gülgün üzlər,
Səxavətdə gəzən sözlər
Bülbülə, gülə söykənir.

Qulluğunda duraydım kaş,
Səadəti quraydım kaş,
Min könüldən vuraydım kaş,
Məlahət dilə söykənir.

Heyran qaldım amalına,
Nəzakətdə kamalına,
Divanə tək camalına
Fırlansam, lələ söykənir.

İsrailəm, təbim oldun,
Dərdlərimə həbim oldun,
Zəmanədə dəbim oldun,
Tərifin elə söykənir.
Bülbülə, gülə söykənir.

***Bakı şəhəri***
***27.08.2010-cu il.***

# GƏLSİN İLTİMAS

Qara gözlü, şux baxışlı ceyranım,
Rüsxət alıb, bizə gəlsin iltimas.
İşvə atsın, qoy çoxalsın gümanım,
Doyunca danışıb gülsün iltimas.

Ayrılığı tez atmasın ortaya,
Düşməsin inada, düşməsin haya,
Məhəl versin işarəmə, haraya,
Kədərləri tamam silsin iltimas.

Müsəlman qaydası qalsın dinində,
Görsün müxənnəti özgə yönündə,
Səadəti itirməsin önündə,
Tanrıdan xoşbəxtlik dilsin iltimas.

Sevgiliyəm, - desin bütün mahala,
Yetişsin eşqində gülgün əhvala,
Qoysun hörmət ağbirçəyə, cahala,
Küdurəti tezcə dəlsin iltimas.

Nəsiboğlu raxmat alsın dilindən,
Özbəyi türkümün ulu elindən,
Samsa bişir, gətir yeyim əlindən.
Möhkəm qədirimi bilsin iltimas.
Rüsxət alıb, bizə gəlsin iltimas.

***Daşkənd şəhəri***
***29.09.1982-ci il.***



# MÖHKƏM QORU

İmtahan ver, yaxın otur,
Yaxşı bilim kamalını.
Diqqət edim qaş-gözünə,
Sığallayım camalını.

Soraq tutum keçmişindən,
Gedişindən, gəlişindən,
Məşğuliyyət, hər işindən,
Durumdakı tam halını.

İsrailəm, yoxlan təmiz,
Çiçək kimi qoxlan təmiz,
Əhd verəndə, saxlan təmiz,
Möhkəm qoru amalını.
Yaxşı bilim kamalını.

***Daşkənd şəhəri***
***07.01.1990-cı il.***





# BAXMA BELƏ SƏN!

Cəllad tək qaşını dartıb baxanda,
Üzüldü ürəyim, baxma belə sən!
Daş-qaşlar görürəm sinən-yaxanda,
Parlayıb, bəzəkdən çaxma belə sən!

İşvələr atanda gülür əhvalım,
Dəyişir fikirlər, düzəlir halım,
Gəl mənim yanıma, gəl, qadan alım,
Gileyi-güzarı yaxma belə sən!

Könlümün istəyi təkcə qalıbdır,
Səadət sevinci sənə salıbdır,
Xəyalım qısqanıb, donub, dalıbdır,
Hicran nizəsini taxma belə sən!

İzin ver, yanaşıb əlini tutum,
Başa sığal verib telini tutum,
Dilimlə qurşanıb dilini tutum,
Ayrılıq sözüylə sıxma belə sən!

Tufandan titrəyir ümmanlar tamam,
Üstümə yeriyir amanlar tamam,
Həddini aşıbdır yamanlar tamam,
Fırtınada coşub axma belə sən!

İsrailəm, fəryadıma eylə hay,
Yalvarışa məhəl yetir, otur say,
Sənsiz qəlbim qoparacaq dad-haray,
Axırıma qəsdən çıxma belə sən!
Üzüldü ürəyim, baxma belə sən!

***Bakı şəhəri***
***07.07.2009-cu il.***



# CANA DİRƏNDİ

Bir işvəkar güldü mənə,
Təbəssüm ana dirəndi.
Sözlərində vurdu tənə,
Həmləsi yana dirəndi.

Şimşək tutub əndamını,
Göstərir əhdi-kamını,
Doldurub Leyli camını,
Ürəkdə qana dirəndi.

Qaşlarını dartdı əvvəl,
İstəyə qoymadı məhəl,
Sinəsində ələnib ləl,
Qəmzəsi xana dirəndi.

Nəzərindən od töküldü,
Könülüm öndən söküldü,
Qəddim belimdən büküldü,
Qəzəbi hana dirəndi.



Qəribə xoş ədası var,
Öndə qaçan gədası var,
Mail-mail xətası var,
Titrədi, şana dirəndi.

İsrailəm, ötdü halsız,
Biçarə tək mən əhvalsız,
Qaldım eşqdə ehtimalsız,
Gedişi cana dirəndi.
Ürəkdə qana dirəndi.

***Bakı şəhəri***
***23.05.2012-ci il.***



# GƏNCLİK İLLƏRİ

O, böyük, müqəddəs, əziz günlərdir,
Ən parlaq an seçən gənclik illəri.
Cəsarət, şücaət, nələr-nələrdir,
Kədər-qəmi biçən gənclik illəri.

Büsatlar yaranır arzu-varında,
Zirvəyə qalxırsan amallarında,
Bəşəri-kainat ixtiyarında,
Dirilik su içən gənclik illəri.

İsrail, beləcə doluruq yaşa,
Dövrümüz fırlanır, çatırıq başa,
Səadət, üzük tək şövq verir qaşa,
Ötüb tezcə keçən gənclik illəri.
Kədər-qəmi biçən gənclik illəri.

***Bakı şəhəri***
***15.09.2010-cu il.***





# ENİB DƏBDƏN

Qismət, mənə qəm doğrama!
Nakam arzu enib dəbdən.
Kədərləri yığma cama,
Ahı-zarım dinib dəbdən.

Tale yorur, kəm gətirir,
Səadəti tam itirir,
Zillətləri hey yetirir,
Uğur çıxmır, sinib dəbdən.

Mənasızlıq önə çəkir,
Gədə-güdə tənə çəkir,
Dələduzlar dinə çəkir,
Haqq, ədalət dönüb dəbdən.

Məhəbbəti anlamayan,
Həqiqəti yanlamayan,
Səhvi qanıb danlamayan
Qaşın dartıb, çönüb dəbdən.

Var-dövlətə üzün satan,
Pul, dollara özün satan,
Saxtakara sözün satan
Mənliyilə yenib dəbdən.

İsrailəm, həvəsim yox,
Hayqırmağa gur səsim yox,
Ətrafımda bir kəsim yox,
İstək yanıb, sönüb dəbdən.
Haqq, ədalət dönüb dəbdən.

***Bakı şəhəri***
***13.02.1999-cu il.***



# NİYƏ BELƏ OLUR?

Qüssədən sıxılır ürəyim yenə,
Niyə belə olur insanın ömrü?
Az qalır vücudum hikkədən dinə,
Qurtarır qəflətən xoş anın ömrü.

İblislər, şeytanlar qisas alırlar,
Gərnəşən aqillər giley salırlar,
Xəyallar susqanıb göyə dalırlar,
Sarsılır qovrulan imkanın ömrü.

Təmasdan yan vurub gizlənir rəvac,
Eşqin həyəcanı qalır yalavac,
Həvəs qeybə çıxıb, yasaqdadır bac,
Bununla yubanır məkanın ömrü.

Arzular köhnəlir keçməzdən öncə,
Acı şərbətimi içməzdən öncə,
Vücud yuvarlanır seçməzdən öncə,
Yovrulur fələkdən sübhanın ömrü.

Nisiyə bağlanır qəlbin yöndəmi,
Tullayır irəli çoxalan qəmi,
Yorulur yoxuşda istək həmdəmi,
Çırpınır gerçəkdən amanın ömrü.

Fəlsəfə qismini tarixə yapır,
Kinayə hədəfi köndələn çapır,
Təlaş qiyaməti tez tutub-qapır,
Həsəddən qısalır gümanın ömrü.

Həndəvər daralır baxışında həm,
Ulduzlar sayrışır çıxışında həm,
Çəmənzar usanır naxışında həm,
Lərzədən qırılır kamanın ömrü.

Kainat boylanır maraqlarıyla,
Öyünür şaxtalar tufan-qarıyla,
Dartınır fırtına haraylarıyla,
Elə bil daralıb zamanın ömrü.

İsrail gərdişdə vurnuxur küskün,
Höcətdən sıçrayır hayqırlarda ün,
Ötüşür məqamsız illər günbəgün,
Qısalır, deyəsən dünyanın ömrü!
Niyə belə olur insanın ömrü?

***Bakı şəhəri***
***30.11.2011-ci il.***



# QANMADIM

Neçə eniş olub, neçə yoxuşlar,
Görmüşəm ömrümün çox cəfasını.
Neçə ötüş olub, neçə çıxışlar,
Bilmişəm bəxtimin bivəfasını.

Dağlar cəlb eyləyib özünə sarı,
Baxmışam, gəzmişəm əlvan gülzarı,
Sezmədim, doğrusu, o düz ilqarı,
Anmadım nəzərdə xoş səfasını.

İşıqlı, qaranlıq yollarda oldum,
Dəhşətə bürünüb, tikanlar yoldum.
Dumandan, çiskindən yorulub doldum,
Duymadım taleyin şövq-şəfasını.

İsrail nə etsin belə gərdişə,
Qəliz bir aləmə, bu kəlməkeşə?
Dövran badalaqda seçibdir peşə.
Qanmadım həyatın tam vəfasını.
Görmüşəm ömrümün çox cəfasını.

***Daşkənd şəhəri***
***30.07.1984-cü il.***





# OYATMADIN

Ey xoş üzlü nazlı pərim,
Bu bəxtimi oyatmadın.
Tez qopardın, getdi sərim,
Köməyini uzatmadın.

Tam bilmədin məhəbbəti,
Yolumdakı hər zilləti,
Oldun qəddar, oldun qəti,
Eşqimizi yaşatmadın.

Könülümü anlamayıb,
Sözə tutub danlamayıb,
Daldeyidə yanlamayıb
Solan gülü boyatmadın.

Çox sarsıldım uçurumda,
Dəyişməyən lal durumda,
Ədalətsiz bir qurumda
Əllərini tez atmadın.



Qeyli-qallar tapır məni,
Tikan örtüb gül-çəməni,
Sevinc nədir? Mən biləni,
Kədərlərə düz qatmadın.

Hər imkanlar oldu bizdə,
Səadət coşan qəlizdə,
Bu ruhlanan qəlbimizdə
Sevgimizi yaratmadın.

İsrailəm, ağrılarda,
O düşdüyüm çətin, darda,
Şaxta, çovğun, boranlarda
İmdadıma heç çatmadın.
Eşqimizi yaşatmadın.

***Bakı şəhəri***
***04.04.2003-cü il.***

# İZLƏRİNİ DİDƏMDƏ

Sənsiz kədər-qəm içində donmuşam,
Axtarıram gözlərini didəmdə.
Bir quş olub bağçanıza qonmuşam,
Xatırlaram üzlərini didəmdə.

Nanə təki büzüşmüşəm, çöldəyəm,
Tufandayam, yağışdayam, seldəyəm,
Həm çarəsiz biçarəyəm, dildəyəm,
Eşidirəm sözlərini didəmdə.

İsrailəm, Məcnun kimi olmuşam,
Dəhşətlərdən tellərimi yolmuşam,
Kövrəlmişəm, ağlamışam, dolmuşam,
Tumarlaram izlərini didəmdə.
Eşidirəm sözlərini didəmdə.

***RF, Smolensk şəhəri***
***13.09.2010-cu il.***





# YANIMDAN YAVAŞCA

İncə biçimli bir xanım
Keçdi yanımdan yavaşca.
Sordum, qalmadı gümanım,
Ötdü anımdan yavaşca.

Çox titrətdi ürəyimi,
İstəmədi köməyimi,
Anlamadı cəhd-səyimi,
Çıxdı sanımdan yavaşca.

Alt-üst oldu məhəbbətim,
Heçə endi ibadətim,
Oxalandı tamam qətim,
Sızdı canımdan yavaşca.

Əl eylədim, dayanmadı,
Əlvidamı salamladı,
Demədi heç, nədir adı,
Axdı qanımdan yavaşca.

İsrailəm, qovrularam,
Külə dönüb sovrularam,
Getdi, gülüb aram-aram
Ah-amanımdan yavaşca.
Ötdü anımdan yavaşca.

***Bakı şəhəri***
***30.08.2002-ci il.***



# SİLMİRSƏN, GÖZƏL?

Gül-çiçək əlində acıqlanırsan,
Niyə öz qədrini bilmirsən, gözəl?
Hirsindən od alıb alovlanırsan,
Niyə həqiqəti dilmirsən, gözəl?

Səni taleyimə Allah veribdir,
Camalın yoluma pənah veribdir,
Gülüşün qəlbimə bir ah veribdir,
Niyə heç danışıb-gülmürsən, gözəl?

Doğrusu, bu sifət heç yaraşmayır,
Xeyiri şərlərdən həmişə ayır,
İsrail sevinci səndə arayır.
Niyə kədər-qəmi silmirsən, gözəl?
Niyə heç danışıb-gülmürsən, gözəl?

***Bakı şəhəri***
***25.03.2004-cü il.***





# İSTƏYİMDƏ QALIBDIR

Xəyal məni lap uzağa apardı,
Atam, Anam istəyimdə qalıbdır.
"Göyçə gülü" idrakımı qopardı,
Vətən dərdi ürəyimdə qalıbdır.

Aşıq qardaş, sazı çəkmə hey zilə,
Toxunma yarama sən bilə-bilə,
Bir mahal lazımdır gözümü silə,
Həsrət yaşı bəbəyimdə qalıbdır.

Doğma torpaq sızıldayır amanda,
Əhvalımız tam sıxılır yamanda,
Dağlarımız ahlar çəkir dumanda,
İztirabım var-səyimdə qalıbdır.

Bənövşələr büzüşübdür neçə vaxt,
Tənəzzülə qərq olubdur qismət, baxt,
Tar-mardadır büsatımız, yurdda taxt,
Yaratdığım əməyimdə qalıbdır.

Tamam obam dağılıbdır, ay qağa!
Qoyur bizi bütün dünya lağ-lağa,
Didərginlər boylanırlar sol-sağa,
İntizarım çiçəyimdə qalıbdır.

Göyçəm küsüb ərənləri haylayır,
Yağı düşmən hədə-qorxu paylayır,
Dözüm tutub səbrimizi vaylayır,
Bütün həvəs gərəyimdə qalıbdır.

Onu bilin, cansız bədən olmayır,
Bulaqlarım coşub çoxdan dolmayır,
Xəzan örtüb güllər açıb solmayır,
Təravətim ləçəyimdə qalıbdır.

Fəğan edir Göyçə gölüm qəmimdə,
Ələsgərim matəm tutub bəmimdə,
Tanrı çırpır arzuları kəmimdə,
Namərd oxu kürəyimdə qalıbdır.

Ululara rəhməti qıl, bir andır,
Məzarlardan ruhlar qaçıb, yeksandır,
Diyarımız inildəyir, talandır,
Yaşamağım heç nəyimdə qalıbdır.

Uşaqlıq illərim xatirəmdədir,
Keçmişin izləri göz-didəmdədir,
Acı kinayələr yandırır, nədir?
İsti qayğı bələyimdə qalıbdır.

Haqqın üzü küllər ilə püflənir,
Mafiyalar milyard yığıb keflənir,
Yalan vədlər qalaq-qalaq kiflənir,
Arzularım diləyimdə qalıbdır.

Amalımız lap arxada yellənir,
Hayes qovub, məkan qurub, şellənir,
Hünər eşqi təpələrdə hellənir,
Hayqırlarım deməyimdə qalıbdır.

Unudulmur valeh edən dərələr,
Babalardan göyə qalxan nərələr,
Sükutdadır yad əlində bərələr,
Xarabalıq mələyimdə qalıbdır.

Vuruşmaqdan başqa yoxdur yolumuz,
Bataqlıqdan heç çıxmayır çulumuz,
Qüdrət sınıb, yana düşüb qolumuz,
Qoç igidlər sürəyimdə qalıbdır.

İsrailəm, qaysağımı dalama,
Nöyüt töküb, köksümdə od qalama,
Mizrab vurub, fəryadları calama,
Şikayətim fələyimdə qalıbdır.
Vətən dərdi ürəyimdə qalıbdır.

***Bakı şəhəri***
***30.09.2010-cu il.***



# VAY, YAMAN OLDU

Qara qaşlar qılınc təki doğrayır,
Çəkilir sinəmə, ay yaman oldu.
Müjkan oxlarını atanda hərdən
İnsafı itirmə, say, yaman oldu.

Ceyran kimi dartınırsan baxanda,
Göz oynadıb şövq verirsən çaxanda,
İstəyim var, bir qoşa nar yaxanda
Olmaz əvəzində tay, yaman oldu.

İmkan ver, sevinim sənin yanında,
Danışım, oynayım eşqin anında.
Mərhəmətin varmı, de, vicdanında?
Baxıram arxanca, hay yaman oldu.

Bu yazıq könlümdə iz qoyub getmə,
Atdığım sözümə söz qoyub getmə,
Yaralar artırıb köz qoyub getmə,
Ümidim qalmayır, zay yaman oldu.

İsrail yalvarıb qəlbən diləyir,
Darıxıb yoluna sular çiləyir,
Külləri başına tutub ələyir,
Düşübdür yamana, vay, yaman oldu.
Olmaz əvəzində tay, yaman oldu.

***Bakı şəhəri***
***20.06.2007-ci il.***



# GEDƏN XANIM

Gedən xanım, atdığın naz
Könülümdə qana batdı.
Yerişində qamətin saz,
İşvələr tüğyana batdı.

Düzünü de: nəyə güldün?
Qaşı əyə-əyə güldün,
Yoxsa eşqdə küyə güldün?
Qəhqəhən böhtana batdı.

Bu sinəmə çəkmə dağı!
Günün bu günorta çağı,
Qənim çıxıb olma yağı!
Ürəyim yamana batdı.

Yetər, kəskin baxdın mənə,
Şimşək təki çaxdın mənə,
Həyəcanı yaxdın mənə!
Halım pərişana batdı.

Ərköyünlük bəstindədir,
Özün dartmaq dəstindədir,
Sevgi qurmaq qəsdindədir,
Qığılcım tufana batdı.

Qiyaməti salma endən,
Təbəssümü qoyma gendən,
Xoşum gəlir tamam səndən,
Yaxşı bir imkana batdı.

İsraildən kənar getmə,
Ədalardan qaçıb itmə,
İntizarı bəyan etmə,
Hədəfin düz cana batdı.
Könülümdə qana batdı.

***Bakı şəhəri***
***13.06.2010-cu il.***

# HEÇ BİLİNMƏDƏN

Həyat bir anidir, dünya fanidir,
Olma çox biganə, vec bilinmədən.
Nədən biz razıyıq, nələr qanedir,
Bütün bax bunları seç bilinmədən.

İntizar, iztirab, hicranlı anı,
Təlatüm çıxışı, gərgin zamanı,
Kədəri, qəmləri, hər imtahanı
Böyük ləyaqətlə keç bilinmədən.

Nəsiboğlu, peşman olma axırda,
Çox da eşələnmə yersiz paxırda,
Ömrü mənalı et, eyləmə xırda,
Keçir günlərimiz heç bilinmədən.
Böyük ləyaqətlə keç bilinmədən.

***Sankt-Peterburq***
***17.01.1996-cı il.***





# YANMAQ OLMUR

Məxfi keçən hər ömürü,
Heç anlayıb qanmaq olmur.
Nə ölüdü, nə də diri,
Başa düşüb anmaq olmur.

Kölgə təki yerişləri,
Dünyadakı gərdişləri,
Gedişləri, gəlişləri,
Sözün düzü, danmaq olmur.

Öz nəfini güdən kəsi,
Yalan, saxta, boş nəfəsi,
Cılız, qəliz söhbət-səsi
Əvvəl-axır sanmaq olmur.

İsrail, sən de: - Qısası,
Tanrı verir hər əsası,
Nadanın olsa xətası,
Vallah, bilib yanmaq olmur.
Heç anlayıb qanmaq olmur.



***Bakı şəhəri***
***29.10.2008-ci il.***



# AY DAN ULDUZU

Baxırdım göylərin qaranlığına,
Qəfildən oyandın, ay Dan ulduzu.
Qapmışdım xəyalın bir anlığına,
Könlümə boylandın, ay Dan ulduzu.

Uzaqdan müjdələr, sanki, verirsən,
Sarsılmış ömürə ümid sərirsən,
Məhəbbət yoluna şövqlə girirsən,
Eşqimdə dolandın, ay Dan ulduzu.

Kainat sonsuzdur, - deyir münəccim.
Ölçülmür tutumun, varlıqda həcim,
Şəfəqlər paylanır, nəzərdə biçim,
Şöləlenib yandın, ay Dan ulduzu.

İlahi yaradıb günəş gəlincə,
Zaman timsalında durursan öncə,
Açılan səhərdə, üfüqlə incə,
Alışıb qalandın, ay Dan ulduzu.

İsrail həsrəti qılır o başdan,
Sevinclər yapırsan gülüşlü qaşdan,
Görünməz olanda çaşır təlaşdan,
Bəs niyə yubandın, ay Dan ulduzu?
Könlümə boylandın, ay Dan ulduzu.

***Göygöl rayonu***
***30.08.1994-cü il.***



# ÇAŞMA, XANIM

Fırıldaqla söz qoparıb
Heç həddini aşma, xanım.
Evinizə tez aparıb,
Əsib, daşıb coşma, xanım.

Əlaltından qeybət yayıb,
Bir yerinə yüzü sayıb,
Xətir-hörmət bilməz ayıb,
Özündən söz qoşma, xanım.

İsrailə edib aman,
Əhvalına salıb yaman,
O dayına qalıb güman,
Danışanda çaşma, xanım.
Özündən söz qoşma, xanım.

***Gəncə şəhəri***
***17.02.1995-ci il.***





# DAŞA DİRƏNİR

Hərci-mərclik yaman girib qəsdimə,
Əlimi atanda, daşa dirənir.
Dərdimə əlac yox, söyləyim kimə?
Tələbim kəm gəlir, boşa dirənir.

Nəhsə ilişmişəm, qurtarmır tamam,
İşim sona çatmır, mətləbdə kamam,
Sanki, bu gərdisə ögeyəm, xamam,
Addım-addım düz savaşa dirənir.

Seyid nəvəsidir, nakəs-dələduz,
Ağlını itirib, olubdur quduz,
Malımı verməyir, deyir sən uduz.
Haqq-hesabım hey dolaşa dirənir.

Halal verdiyini ala bilmirsən,
Hiddəti boğazdan atıb silmirsən,
Qəzəbdən boğulub, deyib gülmürsən,
Yumruğu çırpanda qaşa dirənir.

Qanunlar işləmir, hər yanda rüşvət,
Lənət zəmanəyə, lənət, min lənət,
Yüz dəfə görüşüb cəhd etdim əlbət,
Vaxt uzanır, vur-dalaşa dirənir.

Prokuror, polislə əlbir olurlar,
Cinayətkar kefdə, dollar yolurlar,
Söylə görüm, harda belə qurum var?
Arsız sırtıqlaşıb haşa dirənir.

İsrailəm, tələbimdə qətiyəm,
Kəsərimdə ciddi, kəskin itiyəm,
Atəşdə qundağam, həm də tətiyəm,
Hikkə bərk fırlanıb, başa dirənir.
Addım-addım düz savaşa dirənir.

***Sankt-Peterburq***
***27.06.2010-cu il.***

# PALTAR ASAN QIZ

Kəndirə paltar asan qız,
Gözəldir düz qaşın sənin.
Həsrət çəkib durma yalqız.
Yana düşüb başın sənin.

Məhəbbətə yaxın dayan,
Bu eşqimi eşit əyan,
Mən sevirəm, - etdim bəyan.
Razıdır qardaşın sənin.

Qibtə qılsın bütün aləm,
Anan qoymur, yaxın gələm,
Bir oturub, birgə güləm.
Varmı bir sirdaşın sənin?

İsrailə könül bağla,
Sirrimizi qoru, saxla,
Ürəyimi dağla-dağla,
Axmasın göz yaşın sənin!
Gözəldir düz qaşın sənin.

***Bakı şəhəri***
***27.06.2007-ci il.***



# MARAQ ÖZÜNƏ

Qəmli könül, qəm gətirib, qəm yemə,
Götür xoş anlardan soraq özünə.
Tez-tez giley edib dərdləri demə,
Nəzər et ətrafa, maraq özünə.

Fikir ver dünyanın bütün işinə,
Amansız anların keşməkeşinə,
Diqqətlə tarixin hər gərdişinə,
Oxu, kəlam eylə - varaq özünə.

Baxanda görürsən - həyat imtahan,
Həmişə hardasa hey tökülür qan,
Bir küncdə mənzərə, birində viran,
Qopar zillətlərdən çıraq özünə.

Neçə igidlərin axırı kədər,
Gəlməyib fələkdən bir rəhm, qədər,
Varlı da, kasıb da an gələr-gedər,
Nə fayda, yığsan da yaraq özünə.

Nəsiboğlu qorxu bilməz köçəndə,
Ömür girdabından sular içəndə,
Qıl körpüdən axirətdə keçəndə
Fəhmi Tanrıdan al, iraq özünə.
Nəzər et ətrafa, maraq özünə.

***Daşkənd şəhəri***
***11.11.1991-ci il.***



# YADA SALDIM

Dondu xəyal, usandı an,
Sevgimizi yada saldım
Tərsinə fırlandı zaman,
Təsviri inada saldım.

Günah səndə, həm məndə var,
Həm inciyib - küsəndə var,
Ara vuran yetəndə var,
Məhəbbəti oda saldım.

Gəncliyimiz ötür hədər,
Qorumadın bircə qədər,
Üstümüzü basdı kədər,
İntizarı xoda saldım.

Xatirələr önümdədir,
Nəvazişin dilimdədir,
Qüssə-qəmlər de: kimdədir?
Əbəs yerə bada saldım.

Səbri-qərar daha yoxdu,
Gecə düşdü, ay da doğdu,
İsrailəm, qəhər boğdu,
Ürəyə xal, qada saldım.
Sevgimizi yada saldım.

***Bakı şəhəri***
***15.03.2011-ci il.***



# MÖHKƏM SAXLA

Qada görmə, qada alma,
Ciyərini möhkəm saxla.
Keşməkeşi yada salma,
Ürəyini möhkəm saxla.

Nakəslərə bir sirr vermə,
Məntiqsizə zər, dürr vermə,
Boş sözlərə sətir vermə,
Öz rəyini möhkəm saxla.

Naşı tanımır insanı,
Bu dünyanı, bu cahanı,
Etdiyini yaxşı tanı,
Əməyini möhkəm saxla.

Hər nə etsən, gözə soxma,
Qanmazlara bizi soxma,
Qoymadığın izi soxma,
Köməyini möhkəm saxla.

Gör işini, vur axıra,
Özünü salma paxıra,
Savadın yox, get naxıra,
Hər səyini möhkəm saxla.

Öz xeyrini çox da güdmə,
Gədə olub pislik etmə,
Nəhs yollara heç vaxt getmə,
Gərəyini möhkəm saxla.

Mənliyini taptalatma,
Fil qulağında çox yatma,
Hər yetənə əl uzatma,
İstəyini möhkəm saxla.

Gen yerini dar eləmə,
Qeyrətsizdən ar diləmə,
Bivəfaya nur bələmə,
Sevməyini möhkəm saxla.

Nakişiyə heç yanaşma,
Dələduza tez yapışma,
Az eşidib, çox danışma,
Deməyini möhkəm saxla.

İsrailəm, tez yorandan,
Evlər yıxıb, tor qurandan,
Namərd olub, ox vurandan
Kürəyini möhkəm saxla.
Ürəyini möhkəm saxla.

***Sankt-Peterburq***
***20.04.2002-ci il.***





# TİTRƏ, ÜRƏK

Titrə, ürək, sıxıntıda titrəmə,
Bikef olan düz ilqarım görməsin.
Məni qoyma hər qüssəyə, hər qəmə,
Üzdən iraq, yamanlarım görməsin.

Hədəfləmə enişləri yoxuşda,
Tək darıxma sarsıntıda, çıxışda,
Min göz baxır bizə doğru baxışda,
İstəməyən amanlarım görməsin.

İçinə sal hər deyilən kəlamı,
Sirri demə, bunu bilməsin hamı,
Coşma əbəs, saxta verən salamı
Gözü dolan bunu yarım görməsin.

Düşmə tələsərək vaylara-şərə,
İnam qılma nankora, nakəslərə,
Qadaları çox da yığma qənşərə,
Səndə qalan ixtiyarım görməsin.

Yalanları, böhtanları gizlə sən,
Nahaqları, nalayiqi izlə sən,
Elə danla özlüyünü sözlə sən,
İsraildən bir kənarım görməsin.
Üzdən iraq, yamanlarım görməsin.

***Bakı şəhəri***
***27.10.2010-cu il.***



# DURSUNAY

Qədəm basıb xoş gəlibsən,
Bizim diyara, Dursunay!
Qəmi üzündən silibsən,
Novruz-bahara, Dursunay!

Görüşün gözü sevdirdi,
Söhbətin sözü sevdirdi,
Alovun közü sevdirdi
Açıq-aşkara, Dursunay!

Danış, görüm, əhvalından,
İşvə yarat al xalından,
Şəfəqlər ver camalından,
Qoyma inkara, Dursunay!

Tamarzıydım qamətinə,
Tərəddüd, təklif-mətinə,
Salmırsan heç vaxt çətinə,
Desəm aşkara, Dursunay!

Həmişəki ətir durur,
Həyəcanla ürək vurur,
Könül min bir büsat qurur
Yanan lilpara, Dursunay!

Dərdimə həbin culaşır,
Dəyişməz təbin culaşır,
Geyibsən, dəbin culaşır
Qara şalvara, Dursunay!

İsrailəm, gül şellənək,
Birgə budaqda yellənək,
Nəğmələrdə həm dillənək
Bu şən nahara, Dursunay!
Bizim diyara, Dursunay!

***Sankt-Peterburq***
***14.05.1996-cı il.***

# YOLLARIM BAĞLANIB

Yollarım bağlanıb, bilmirəm nədən?
Çıxmıram qismətin hüzur-taxtına.
Yersiz tövsiyələr gəlir hərədən,
Culaşmır hədəfim tale aktına.

Deyəsən, fələyin düşdüm qəsdinə,
Daha rəhm qılmaz, salmaz vəsfinə,
Kinayə üstündə qalmışam pinə,
Endim tərs fırlanan gərdiş vaxtına.

İsrail, darıxma, belədir həyat!
Bir yandan qurulur, dağılır büsat,
İstəsən, kədəri kənar eylə, at!
Nə fayda, çatmıram Tanrı-baxtına!
Çıxmıram qismətin hüzur-taxtına.

***Bakı şəhəri***
***11.12.2009-cu il.***





# QURBAN OLUM

Rüsxət aldım ləbi-baldan,
Dillərinə qurban olum.
Şəvə hörük düşüb daldan,
Tellərinə qurban olum.

Kirpiyindən nəm görünür,
Ağ camaldan qəm görünür,
Göz yaşları - həm görünür,
Sellərinə qurban olum.

Boğazı sona udumlu,
Sinəsi gilə tutumlu,
Al ləçəyi tumlu-tumlu,
Güllərinə qurban olum.

Kəmər enli, beli incə,
Canım aldı bayaq öncə,
Qolumdan tutdu gəlincə,
Əllərinə qurban olum.



İsrailəm, dözərəm mən,
Ürəyimi üzərəm mən,
Məcnun olub gəzərəm mən,
Çöllərinə qurban olum.
Dillərinə qurban olum.

***Daşkənd şəhəri***
***07.05.1980-ci il.***



# ÇOX MARAĞA DÜŞMƏSİN

Hüsnünə vurğunam, özün bilirsən,
Elə eylə, çox marağa düşməsin.
Nə deyirəm dərhal təbdən gülürsən,
Əhdi bağla, yad-qırağa düşməsin.

Qamətinə heyran qalıb baxıram,
Surətini çərçivəmə taxıram,
Od-alovu ürəyimə yaxıram,
Şəfəqindən, qoy çırağa düşməsin.

Bəxt ulduzum qonub sənin başına,
Valeh ollam qara gözə-qaşına,
Həsəd etdim cavan qalmış yaşına,
İşvə-nazın hay-harağa düşməsin.

Qönçə açıb al lalələr yanaqda,
Bal süzülür neştər verən dodaqda,
Yırğalanır nəvazişlər buxaqda,
Ucu qıvrım tel darağa düşməsin.

Qıya çəkib xəncər təki doğrama,
Bədnəzərə təsadüfən uğrama,
Qəm-qüssəni cəm eyləyib yoğrama,
Giley, qəzəb bir yarağa düşməsin.

Gizli saxla aramızda olanı,
Qoru asta sevinclərdən qalanı,
Kənara tut fitnələri, yalanı,
El-aləmdə tək sorağa düşməsin.

İzləri sal əməlinlə amalda,
Tərif oyat mərifətdə, kamalda,
Təbəssümlər hey oynasın camalda,
Yaman kəlam ağ varağa düşməsin.

Nəsiboğlu sinə dəftər doldurub,
İntizarda dən-dən saçı yoldurub,
Açan gülü yalqızlıqda soldurub,
Çalış, ismin ah-fərağa düşməsin.
Elə eylə, çox marağa düşməsin.

***Bakı şəhəri***
***17.05.2012-ci il.***



# SƏNƏ BAXIB KEÇƏNDƏ

Gözüm eşqə bələndi,
Sənə baxıb keçəndə.
Könlümə od ələndi,
Sənə baxıb keçəndə.

Ya hürüsən, ya mələk,
Göydən endirib fələk,
Yer tapmır qəlbdə dilək,
Sənə baxıb keçəndə.

Boy-buxunun yerində,
İntizar var dərində,
Ağac altı sərində,
Sənə baxıb keçəndə.

İşvə atma, oynat qaş,
Qəhərimdən axır yaş,
Divanəyəm, itir baş,
Sənə baxıb keçəndə.

Ahu təki göz eylə,
Şən danışıb, xoş söylə,
Ürəyimə köz əylə,
Sənə baxıb keçəndə.

Gözəlliyin çox sayda,
Bərabərin yox tayda,
Dərdimə yetir fayda,
Sənə baxıb keçəndə.

İsrailə ol qənim,
Titrəyir can-bədənim,
Qoyma hey özələnim,
Sənə baxıb keçəndə.
Sənə baxıb keçəndə.

***Bakı şəhəri***
***30.03.2011-ci il.***

# GÖZƏL OLUR

Bu diyarın şux sənəmli
Xanımları gözəl olur.
Əda atan xoş qədəmli
Tər qızları gözəl olur.

Əhvalımı tamam açan,
Nəzərləri gözdən qaçan,
Gecələrdə şölə saçan
Ulduzları gözəl olur.

Cavanları dürüst, mətin,
Qədim eldə şən adətin,
Nəğməsindən doymaq çətin,
Mahnıları gözəl olur.

Müstəqillik həyat qurur,
Əzəmətlə Pamir durur,
Qürurluqdan ürək vurur,
Məkanları gözəl olur.

Qanun, qayda düz önündə,
Salamı İslam dinində,
Sadə, mehriban yönündə
İnsanları gözəl olur.

İsraili qonaq edən,
Qayğımdadır gələn-gedən,
Sağlıq qalxır hər badədən.
Dostu, yarı gözəl olur.
İnsanları gözəl olur.

***Tacikistan, Düşənbə***
***30.05.1999-cu il.***



# ÜSTÜMƏ

Sübh-namazda gözüm düşdü canana,
Əqlim getdi, bəla çöndü üstümə.
Halal olsun səni belə doğana,
Könlüm tüğyan etdi, dindi üstümə.

Gözəllikdə tay-sərasəri olmaz,
Qırpım baxışda bərabəri olmaz,
Əyalətdə belə naz-pəri olmaz,
Nəzərdən utanıb sindi üstümə.

Əlaltı ahəstə həzin boylanır,
Məhəbbət sözünü özündən danır,
Ortaya çox çıxmır, gülüb usanır,
Güləndə od-alov endi üstümə.

İsməti, abırı fəth edir gözü,
Ürəyə yol açır parlayan üzü,
Məleykə qismində çıxışı, sözü,
Kəlməsi həcc oldu indi üstümə.

İsrail özündə tutmayır qərar,
Yaxşı ki, aləmdə hüsni-sənəm var,
Qəlbim təşvişdədir, dünya olub dar,
Huşum itdi, fəza söndü üstümə.
Könlüm tüğyan etdi, dindi üstümə.

***Daşkənd şəhəri***
***31.05.1990-cı il.***



# HEY QOVARAM

Qul olaram doğru sözə,
Yalanları hey qovaram.
Pis əmələ, bədbin gözə
Salanları hey qovaram.

Boynun əyib duranlara,
Ədaləti yoranlara,
Tutqun səmtə, toranlara
Qalanları hey qovaram.

Paxıl, simic, xəsislərə,
Həm nakəsə, həm pislərə,
Bəd fikirli nəfislərə
Dalanları hey qovaram.

Soldan keçib sağa vuran,
Saxta dili yağa vuran,
Ləkə atıb ağa vuran
Kalanları hey qovaram.

İsrailəm, sözüm kəskin,
Yox qəlbimdə kədər, nə kin,
Gürzə kimi sancıb dərin.
Çalanları hey qovaram.
Yalanları hey qovaram.

***Bakı şəhəri***
***17.09.2008-ci il.***



# LEYLİ

Düşmüşəm eşqinin xəyalına mən,
Ömür vüsalımın amanı Leyli.
Saralıb-solmuşam kədərdən, qəmdən,
İnləyən nəğməmin kamanı Leyli.

Eşqisiz məhəbbət heç nəyə lazım,
Bil ki, baharımsan, həm də ki, yazım,
Qoşmam-qəzəlimsən, sızlayan sazım,
Həyat timsalımın imkanı Leyli.

Məcnunam, həsrətin yandırır hər an,
Qalmışam hicranlı, gözləri giryan,
Sağalmaz dərdim var, yoxdur sağaldan,
Dərdli bu könlümün loğmanı Leyli.

Əzəl-başdan bəxtim belə olsa da,
Eşq atəşim alovlanıb solsa da,
İsrailin gözləri hey dolsa da,
Olubsan əhdimin-peymanı, Leyli.
Ömür vüsalımın amanı Leyli.

***Daşkənd şəhəri***
***18.09.1985-ci il.***



# İÇİM-İÇİM AĞLAYIRAM!

Hicranlığa dözəmmirəm,
İçim-içim ağlayıram!
Birgə gülüb-gəzəmmirəm,
İçim-içim ağlayıram!

Günlər keçir ömürümdən,
Həyat boşdur, saçlar dən-dən,
Yaş quruyub gözlərimdən,
İçim-içim ağlayıram!

Vərəqlənir xatirələr,
Yada düşür keçən illər,
Qabar olub deyən dillər,
İçim-içim ağlayıram!

Könül yanıb sızıldayır,
Hey ahəstə pıçıldayır,
Məni sıxır həyət-bayır,
İçim-içim ağlayıram!

İsrailəm, çox günahım,
Sənsiz qopur vayım-ahım,
Ümidsizdir bu sabahım,
İçim-içim ağlayıram!
İçim-içim ağlayıram!

***Sankt-Peterburq***
***18.09.1996-cı il.***



# UZAQ ELDƏN VƏTƏNƏ

Uçan durna, uzaq eldən Vətənə
Salam söylə, duruşuna baxginən.
Qiymət kəmdir, düşmən əldə sitənə,
Dağlarımın quruşuna baxginən.

Ozan yurdu viran qalıb binədə,
Ünə düşüb, çeynənilir çənədə,
Yağı qəddar sevinirmi sinədə?
Sən dığanın uduşuna baxginən.

Göyçəm mənim darıxıbdır saz-bəmə,
İlişibdir, rast gəlibdir dərd-qəmə,
Gileylidir, qərəzlidir bəxt-dəmə,
Bir əhval tut, xuruşuna baxginən.

İsrailəm, yaralıdır ürəyim,
Bükülübdür haqsızlıqdan kürəyim,
Türkü deyib hayqıranda sürəyim,
Qoç igidin vuruşuna baxginən.
Salam söylə, duruşuna baxginən.

***Bakı şəhəri***
***27.01.2006-cı il.***



# SORAĞINDA QALANMIŞAM

Tutu dilli şux gözəlin
Sorağında qalanmışam.
Özündə yapan qəzəlin
Marağında qalanmışam.

Baxışı göz oxşayanın,
Söhbəti söz oxşayanın,
Telləri üz oxşayanın
Darağında qalanmışam.

Həmdəm olan bu sonanın,
Rəvac verən eşq-cananın,
Ürəyimdə çox yananın
Yarağında qalanmışam.

Dolanıram ellərini,
Biyabanı, çöllərini,
Öpəmmirəm əllərini,
Qırağında qalanmışam.

Gecələri ah-zar edən,
Dünyamızı hey dar edən,
Məhəbbəti kənar edən
Fərağında qalanmışam.

İsrailə divan tutan,
İstəyimi qırıb atan,
Şöləsiylə qəlbə yatan
Çırağında qalanmışam.
Sorağında qalanmışam.

***Bakı şəhəri***
***27.10.2010-cu il.***



# ÖZÜM-ÖZÜMƏ

Aldanıb həyatda çıxdım yolumdan,
Əqlim müqəssirdir özüm-özümə.
Eşqimi bilərək atdım qolumdan,
Ürəyim əsirdir özüm-özümə.

Dünyanın gərdişi qələmə sığmır,
Dərdi-divanəsi ələmə sığmır,
Verdiyi bac-xərac sələmə sığmır,
Ömürüm yesirdir özüm-özümə.

İsrailəm, xoş əməllər əlimdə,
Həqiqətlər kəlamımda, dilimdə,
Mənə qoymaq faydasızdır ilimdə,
Günlərim kəsirdir özüm-özümə.
Əqlim müqəssirdir özüm-özümə.

***Bakı şəhəri***
***04.04.2010-cu il.***





# TƏKRARLAMA

Səhvlik etdin, bir də etmə,
Hər işində təkrarlama.
Bəd yollara heç vaxt getmə,
Gedişində təkrarlama.

Gəlib gördün saxta dili,
Doğruluğa yox meyili.
Rişələnən fitnə-feli
Gəlişində təkrarlama.

Öz-özünə qoy bir hörmət,
Abır saxla, gəzdir ismət,
Düz sözünə verdir qiymət,
İrişəndə təkrarlama.



Davranışa fikir eylə,
Həqiqəti doğru söylə,
Yersiz üzü tezcə əylə,
Gülüşündə təkrarlama.

İsrailəm, bütün olun,
Bu həyatda mətin olun,
Haqsızlığa çətin olun,
Yerişində təkrarlama.
Hər işində təkrarlama.

***Sankt-Peterburq***
***07.07.2005-ci il.***



# DİLLƏRDƏ QALDI

Leylisiz Məcnunam, ahım-amanım,
İnilti-fəryadım çöllərdə qaldı.
Varmı bir pənahım, varmı gümanım?
Nalələr, imdadlar ellərdə qaldı.

Zərif çiçək kimi soldu məhəbbət,
Qara bulud olub doldu məhəbbət,
Pünhanı başından yoldu məhəbbət,
Pərişan qismində tellərdə qaldı.

Hicran səadəti qapdı baxmadan,
Nəzərlər sataşdı, düşüb çaxmadan,
Gözümdən qüssələr çıxdı axmadan,
Damlası süzülüb sellərdə qaldı.

Yoruldum taleyin kəskin yolunda,
Keçilməz çığırın tikan-kolunda,
İntizar qıy saldı çarpaz qolunda,
Vücudum büzüşüb əllərdə qaldı.

Tufanlar hey qopdu gənclik çağımda,
Sevinclər yetirən gülşən bağımda,
Çovğuna tuş gəldi İnəkdağım da,
Fərəhi qoparan yellərdə qaldı.

Eşqin dəyanəti uçdu yerindən,
Sarsılan lətafət endi tərindən,
Püskürdü atəşim, qaçdı sərindən,
Təpimiş, səngimiş küllərdə qaldı.

Gözəllik bəstini atdı qırağa,
Haqlar kənar durub getdi uzağa,
Mətanət tənəylə çox qoydu lağa,
Sonası dağılmış göllərdə qaldı.

Kinayə kəlməsi tullandı öndə,
Kəramət kövrəldi inamsız dində,
Yuvarlandı həsrət daralmış tində,
Pozulmuş, silinmiş illərdə qaldı.

Gileydən susqandı udqunan boğaz,
İdrakım hay saldı, işvələrdə naz,
Pıçıltı içində titrəyən avaz,
İsrail dastanı dillərdə qaldı.
İnilti-fəryadım çöllərdə qaldı.

***Bakı şəhəri***
***21.09.2012-ci il.***



# HESABDAN DEYİL

Ömür timsalında gəzən nadanlar,
Yaş vurub çallanmaq hesabdan deyil.
Rüşvətə culanıb, kəslər atanlar,
Ortada yalanmaq hesabdan deyil.

Həyatın mənası dərindir-dərin,
Bilinmir tarixi torpağın, yerin,
Təzadı çox olub qərinələrin,
Qiymətsiz dolanmaq hesabdan deyil.

Eşqi, səadəti sadiq bilginən,
Nazını tam çəkib yaxşı dilginən,
İntizarı atıb təmiz silginən,
Hicranda talanmaq hesabdan deyil.

Məleykələr yazır xeyir-şərini,
Yüz ölçür, bir biçir əməllərini,
Hər işin haqqı var, yoxla tərini,
And içib bulanmaq hesabdan deyil.

Aciz olan bəla verər ayağa,
Özlüyünə, sütununa, dayağa,
İnsafını atma başqa sayağa,
Bilərək allanmaq hesabdan deyil.

Əqidə məqsəddə, prinsipdədir.
Miqyaslı təsvir seç, öndədir - nədir?
Hikmətlər - dəyanət var, yönündədir.
Qaynaqsız calanmaq hesabdan deyil.

Nəsiboğlu dəyərlərə göz qoyur,
Məntiqlərə fikir verir, söz qoyur,
Məhəbbətə odlar yapır, iz qoyur,
Alovsuz qalanmaq hesabdan deyil.
Qiymətsiz dolanmaq hesabdan deyil.

***Daşkənd şəhəri***
***31.07.1990-cı il.***

# NUŞ GƏLİBDİR

Bir gözəli çox yoxladım,
Bəxtimə uduş gəlibdir.
Ətirini hey qoxladım,
Qismətimə nuş gəlibdir.

Maral gözlü baxışı var,
Günəş kimi çıxışı var,
Xoş libası, naxışı var,
Taleyimə tuş gəlibdir.

İsrailəm, bu boğçama,
Sevgimdəki bağ-bağçama,
İmarətdəki taxçama
O, cənnətdən quş gəlibdir.
Bəxtimə uduş gəlibdir.

***Bakı şəhəri***
***14.03.2004-cü il.***





# UCAL MİLLƏT

Çarmıxa düşübdür, açılmır düyün,
Hansı gədaların əllərindəsən?
Öyün, ay nadürüst düşmənim, öyün!
İnləyən sazımın tellərindəsən.

Dağlar sinəsinə dağlar çəkirsən,
Qaranı tez pozub, ağlar çəkirsən,
Paslanan böhtana yağlar çəkirsən,
Siyasət aləmin dillərindəsən.

İyrənc fikirlərin yerinə düşdü,
Qonşu kimsələrin tərinə düşdü,
Teymurləng qırmadı, dirinə düşdü,
Alçaq niyyətlərin yellərindəsən.

İrəvanım getdi, bütün Zəngəzur,
Göyçənin üstündə tülkü kimi dur,
Qarabağ sözündə uydurma uydur,
"Böyük Ermənistan" fellərindəsən.

Cəmləşmir Azərim beş yüz il olar,
İsmayıl oyansa lərzələr salar,
Qırıb başınızdan qalalar qalar,
Nankor xəyanətin küllərindəsən.

Hələ ki, millətim aciz görünür,
Yağan güllələrdən qaçıb bürünür,
Özü öz yurdunda qorxub sürünür,
Petyanın xoş niyyət güllərindəsən.

Həqiqət belədir - düz buyurursan,
Zəifi seçirsən, daldan vurursan,
Özünə heç nədən dövlət qurursan,
Azəri türkümün ellərində sən.

Varımı dağıdıb viran eylədin,
Dünyaya ağlayıb yalan söylədin,
Doğrunu yollarda boğub teylədin,
Bulanıq axının sellərində sən.

Nəsiboğlu barışmayır gedişdən,
Durub baxan, gözün döyən gərdişdən
Ucal, millət! Ayağa qalx bu işdən!
Hərbi-mərcliyin sən illərindəsən.
"Böyük Ermənistan" fellərindəsən.

***Gəncə şəhəri***
***09.12.2003-cü il.***



# ÖTÜB DƏ, KEÇDİ

Dayanıb dururdum yol qırağında,
Qarşımdan bir canan ötüb də, keçdi.
Gözəllik üstündə, var yarağında,
Nəvazişi qanan ötüb də, keçdi.

Əynində şalvarı, dar tutub dalı,
Alnında görünür bir yekə xalı,
Kefi yuxarıda, gülümsər halı,
İşarəmi anan ötüb də, keçdi.

Əndamına belə söz ola bilməz,
Yanaqdakı lalə heç sola bilməz,
Hicran, inanmıram, tək yola bilməz,
Həvəsimi sanan ötüb də, keçdi.

Salamımı xoş məramla anladı,
İstəyimə məna verib yanladı,
Sərt baxışla tutub məni danladı,
Kinayəni danan ötüb də, keçdi.

Köynəyi ağappaq görünür yuxa,
Sinəm kirpiyindən dəyibdir oxa,
Fürsəti çox verə, gözlərim baxa,
Nəzərimdən, inan, ötüb də, keçdi.

Nəsiboğlu,ələ keçməz beləsi,
Ayılanda görəmmədim bir kəsi,
Bu üstümdə tam dolanır əbəsi,
Sevgimdə hey yanan ötüb də, keçdi.
Qarşımdan bir canan ötüb də, keçdi.

***Bakı şəhəri***
***02.06.2008-ci il.***



# YANIMDA YOX

İntizara bürünmüşəm,
Nazlı dilbər yanımda yox.
Hey oturub edirəm qəm,
Keçən gündə, anımda yox.

Cahan məni sıxır dərhal,
Görməyirəm bir yaxşı hal,
Sarsılıbdı bütün iqbal,
İnam, idrak sanımda yox.

Arayıram, yoxdur dözüm,
Yorulubdur didəm, gözüm,
Maraqsızdır eşqdə sözüm,
Sevgi hissi qanımda yox.

İsrailəm, nəyə lazım?
Məcnun kimi yollar azım,
Bilməyirəm, nədən yazım?
Ruhum qaçıb, canımda yox.
Nazlı dilbər yanımda yox.

***Daşkənd şəhəri***
***08.06.2001-ci il.***



# AY GÜLSÜNOY!

Eyləyibsən könlümü bənd,
Yırğalanma, ay Gülsünoy!
Dodaq qönçə, dişlərin qənd,
Gül, utanma, ay Gülsünoy!

Mələklərin tayındasan,
Günün bədir ayındasan,
Gözəllərin sayındasan,
Çox qalanma, ay Gülsünoy!

Yerişinə məftun oldum,
Qəlbimdən çağlayıb-doldum,
Qürrələnib qəmi yoldum,
Eşqi danma, ay Gülsünoy!

Sinən dağların qarıdır,
Bağlarımın nar barıdır.
Görən bu kimin yarıdır?
Tez talanma, ay Gülsünoy!

Yaraşıqsan el-mahala,
Sən salıbsan bədbin hala,
Vurulmuşam üzdə xala,
Gəl, yubanma, ay Gülsünoy!

İstəyini göstər əvvəl,
Bir imkan ver, yarat məhəl,
Qoy belində gəzdirim əl,
Tənha yanma, ay Gülsünoy!

Sevgimizi etmə hayıf,
Örpək örtmə, üzdən ayıf,
Mətləbimi bilib, sayıf
Aralanma, ay Gülsünoy!

Yalvarmaqdan bezdim axır,
Bütün aləm bizə baxır,
Bədnəzərlər qeybət yaxır,
Qaralanma, ay Gülsünoy!

İsraili məyus etmə,
Həndəvərdən qaçıb getmə,
Ürəyimi yarıb itmə,
Lovğalanma, ay Gülsünoy!
Yırğalanma, ay Gülsünoy!

***Daşkənd şəhəri***
***19.08.1994-cü il.***



# QIRAĞA ATMA

Dünya mirasını yığıb önünə,
Dostu-sirdaşını qırağa atma.
Nankorluq libası taxıb yönünə,
Qeyrət nimdaşını qırağa atma.

Ötən günlərini bir an vərəqlə,
Yoxla davranışı, düşün gərəklə,
Binalar ucalır möhkəm dirəklə,
Himdən daş-qaşını qırağa atma.

Allahın verdiyi qismətə bir bax,
Səbəbsiz boş yerə alışmır çıraq,
Arxanda həmişə dayanan dayaq,
Doğma qardaşını qırağa atma.

Cibini çox güdmə, nəfini saxla,
Keçmişə nəzər et, özünü yoxla,
Ötür ömürünü ədəblə, haqla,
Yolda yoldaşını qırağa atma.

Nəsiboğlu gördüyündən alar dərs,
Naşı-naşılıqda hey fırlanar tərs,
Axirətdə peşmanlıqdan etmə fərz,
Yanıb yaddaşını qırağa atma.
Doğma qardaşını qırağa atma.

***Sankt-Peterburq***
***27.06.1998-ci il.***



# ÇÖKƏR MƏNƏ

Küllü aləm dönər birdən,
Sən yox desən, çökər mənə.
Huşum gedər ağıl-sərdən,
Daş-qayalar tökər mənə.

Hicran qəzəblənib coşar,
Hərarətim həddin aşar,
Göz yaşlarım axıb daşar,
Kədərləri çəkər mənə.

Talan olar səadətim,
Yoxa çıxar dəyanətim,
İmdad edər səxavətim,
Üz döndərsən əgər mənə.

Qəmdən sinəm dolar tamam,
Fələk saçı yolar tamam,
Sevgi bağım solar tamam,
İztirablar əkər mənə.

Sızlayar yaz-baharım da,
İnildəyər sim tarımda,
Yoxa çıxar eşq varım da,
Hədyanları sökər mənə.

Tam dağılar həyat yolum,
Çarpazlaşar dərddən qolum,
Buz bağlayar sağım-solum,
Məlhəm qılmaz digər mənə.

İsrailəm, ölləm sənsiz,
Can yaşarmı heç bədənsiz?
Məhəbbətdə şah olduz Siz!
Qoy desinlər nökər mənə.
Məlhəm qılmaz digər mənə.

*Bakı şəhəri*
*19.07.2008-ci il.*

# YADIMA DÜŞÜR

Çaldın o sazını, həyan eylədin,
Göyçənin səfası yadıma düşür.
Zil-bəmə əl atıb dastan söylədin,
Oğuzlar şəfası yadıma düşür.

Keçmişim hallandı ahın-dinində,
Dolandı uşaqlıq gözüm önündə,
Gördüyüm əhvallar ömrün yönündə,
Taleyin cəfası yadıma düşür.

Nəsiboğlu çox gəzibdir cahanı,
Duymaz yurddakı tək böyük dühanı,
Dadı damağından atmaz dəhanı,
Dağların vəfası yadıma düşür.
Göyçənin səfası yadıma düşür.

***Gəncə şəhəri***
***19.07.2000-ci il.***





# TƏKBULAĞIM

Ətrafı təmtəraqsız
Haqlama, Təkbulağım!
İnəkdağı maraqsız
Saxlama, Təkbulağım!

Göyçəm yalqız qaralıb,
Gül-çiçəyi saralıb,
Bumbuz önün daralıb
Dağlama, Təkbulağım!

İntizarda durma çox!
Axarını burma çox!
Matəmdən sədd qurma çox!
Bağlama, Təkbulağım!

Qatil düşmən naşıdır,
Dığaların başıdır,
İniltilər qaşıdır..,
Çağlama, Təkbulağım!

Dadlı tamın özümdə,
Əksin qalıb gözümdə,
İsraillə dözümdə
Ağlama, Təkbulağım!
Dağlama, Təkbulağım!

***Sankt-Peterbutq***
***25.07.2005-ci il.***



# NİYƏ MƏNDƏN İNCİMİSƏN?

Qaşqabağı tökmə belə,
Niyə məndən incimisən?
Könülümü sökmə belə,
Niyə məndən incimisən?

Qohum-qonşu minnət edir,
Hey danlayıb möhnət edir,
Ara vuran töhmət edir,
Niyə məndən incimisən?

Xətirinə dəyənmi var?
İstəyini əyənmi var?
Nahaq yerə döyənmi var?
Niyə məndən incimisən?

Dünya qəsdən daralıbdır,
Sübhüm tezdən qaralıbdır,
Rəngim tamam saralıbdır,
Niyə məndən incimisən?

Məhəbbətə qoyma talan!
Ortalıqda gəzir yalan,
Şər-böhtanlar olub kalan,
Niyə məndən incimisən?

Dərd əlindən gəldim zara,
Baş götürüm, gedim hara?
Olacaqmı eşqə çara?
Niyə məndən incimisən?

Qibtə qılır bizi bilən,
Həqiqəti, düzü bilən,
İsmətində özü bilən,
Niyə məndən incimisən?

Səadəti anaq dərhal,
Bir-birmizə yanaq dərhal,
Qayğıları qanaq dərhal,
Niyə məndən incimisən?

Gözlərindən axıtma yaş!
Yarat imkan, qəlbə əlac,
Ürəyimə asılıb daş,
Niyə məndən incimisən?

Gəl yanıma, qan eyləmə!
Boş-boşuna söz söyləmə,
İsraili çox teyləmə.
Niyə məndən incimisən?
Niyə məndən incimisən?

***Bakı şəhəri***
***30.10.2010-cu il.***





# QIZLARIN

Çıxmışdım sahilə, edirdim nəzər,
Gördüm gəlişini gülən qızların.
Sakitcə çırpınıb baxdıqca Xəzər,
Gəncliyi şən keçir gələn qızların.

Hamısı qəşəngdir, qəh-qəh vururlar,
Eşqə ilham verən işvə qururlar,
Bəxtin macalında həmdəm dururlar,
Tanrıdan səadət, dilən qızların.

Sevinclər oynadı, döndü onlara,
Xoş səhnə yarandı düşən anlara,
Həvəsim düzəldi duran canlara,
Kədəri ötürüb, silən qızların.

Qoşulub gəzirlər mehriban üzlə,
Danışıb deyirlər naz ilə, sözlə,
Süzürlər ətrafı qaş ilə, gözlə,
Zamanın nəbzini bilən qızların.

Geyimdə əlvandır, düzülüb səf-səf,
Qəzəbli görnüşü eyləyirlər dəf,
İsrail, olaydı kaş biri hədəf,
Həsrətdən bağrımı dələn qızların.
Zamanın nəbzini bilən qızların.

***Bakı şəhəri***
***15.07.2003-cü il.***



# YAXIB KEÇİR

Şəhərimin gözəlləri
Ürəyimi yaxıb keçir.
O, ox təki kirpiyini
Bu sinəmə taxıb keçir.

Qara gözü canlar alır,
Könülümü oda salır,
Nəzərləri məndə qalır,
Ceyran kimi baxıb keçir.

Keşməkeşli o amandan,
O dövrandan, bu zamandan,
Yanımdakı asimandan
Şimşək qədər çaxıb keçir.

İsrailəm, xoş sözümdə,
Durna sayaq bir düzümdə,
Yaxınımda, lap özümdə
Damarımdan axıb keçir.
Ürəyimi yaxıb keçir.



***Bakı şəhəri***
***12.08.2003-cü il.***



# BU YAZIQ

Nə yaxşını qanar, nə də yamanı,
Yalnız öz xeyrini bilər bu yazıq.
Elə ki, ilişdin, gördün amanı,
Daldeyi irişib gülər bu yazıq.

Uğrunda çapdığım atı bəyənməz,
Pəkini bəyənməz, zatı bəyənməz,
Yaratdığım hər büsatı bəyənməz,
Qədir-qiymətimi silər bu yazıq.

Pul üçün qardaşı satar düşmənə,
Talayıb mənliyi atar düşmənə,
Alçalıb qeyrəti qatar düşmənə,
Evini yıxmağa gələr bu yazıq.

Günahını yuyub, fırıldaq edər,
Gizlicə iş görər, yüz yerə gedər,
Tanrıdan çəkinmir, bilməyir qədər,
Haqqın gözlərini dələr bu yazıq.

Nəsiboğlu dəhşətlərə bürünüb,
Cavan ikən dallarında sürünüb,
Hay deyəndə, haylarında görünüb,
Hələ nələr edir, nələr bu yazıq.
Evini yıxmağa gələr bu yazıq.

***Sankt-Peterburq***
***21.10.2006-cı il.***



# ODUNA DÜŞDÜ

Tumarlanıb çıxdın bulaq başına,
Qəlbim coşa gəlib oduna düşdü.
Söz atıb, hay etdim qılınc qaşına,
İşarəm güləndə yadına düşdü.

Qamət gözəl, dodaq incə, əl incə,
Yandırdın könlümü səni görüncə,
Arxanca izlədim bayaqdan öncə,
Tərifim təsvirdə dadına düşdü.

İsrail ömründə fəğan eyləyər,
Dərdini hey yığar, sənə söyləyər,
Kövrək ürəyini verib əyləyər,
Həyatım eşqinin badına düşdü.
İşarəm güləndə yadına düşdü.

*Gəncə şəhəri*
*26.04.1995-ci il.*





# SANA DİRƏNDİ

Düz qarşımdan gözəl keçdi,
Ədası cana dirəndi.
Nəzəriylə qəlbi seçdi,
Oxları qana dirəndi.

Bütün aləm dar göründü,
Əhvalım dərdə büründü,
Qüssələr başa küründü,
Cəsarət yana dirəndi.

Qəhqəhəsi çaldı yaman,
Könülümə qoydu aman,
Kaş verəydi inam, güman,
Həmləsi hana dirəndi?

İstədim ki, verim salam,
Qadasını tutub alam,
Qucaqlayıb birgə qalam,
Qəzəbi xana dirəndi.

Ayaq basır asta-asta,
Hədəfi var, düşdüm rasta,
Tələ qurub, mən sərrasta,
Lap dana-dana dirəndi.

Həyəcanı tam önündə,
Nəzakəti hey yönündə,
Kəraməti tən dinində
Səcd etdim, şana dirəndi.

Duruşunda sona qədər,
Mətləbimi edir hədər,
Ürəyimə salıb kədər,
Ömrümdə ana dirəndi.

İsrailə atdı mürvət,
Məhəbbəti qanır əlbət.
Tapılarmı belə sərvət?
Sevdamı sana, dirəndi.
Ədası cana dirəndi.

***Sankt-Peterburq***
***13.05.1999-cu il.***



# YAR, GİZLİ-GİZLİ

Mələklər şahısan, təbim yanılmaz,
İstəsən, sinəmi yar gizli-gizli.
Təravətin gülşənlərdən danılmaz,
Yoxalır fitnəkar, xar gizli-gizli.

Hürülər-pərilər çəkilir dala,
Qiyafə sallanır, yer verir xala,
Gözlərin həlqədən seçilir ala,
Görünür nəzərdə dar gizli-gizli.

Qaşında gərilir zər piyalələr,
Yanağında açılır al lalələr,
Köynək altı alışır ah-nalələr,
Dartınır yumuru nar gizli-gizli.

Boynuna sarılıb tutum hey səni,
Yaratdır ortada dəbli qəmzəni,
Açım düymələrdən dümağ sinəni,
Boyansın naxışa qar gizli-gizli.

Zalım olma, busələrdən pay eylə,
Addım-addım gəlişlərdən say eylə,
Ürəyimə ədavət qıl, vay eylə,
Tökülsün araya ar gizli-gizli.

Dastanları eşqimizə qoşub-yaz,
Bircə kərə qonaq gəlib, yolun az,
Oynat əndamını, törət işvə-naz,
Ötsün görüşünə tar gizli-gizli.

Kənar qaçma, deyilənə et məhəl,
Sağalmaz köksümə gəzdir incə əl,
Tapılsın məlhəmim, tez yanıma gəl,
Qalmasın həsrətdə zar gizli-gizli.

Həqiqəti axarına qoy, getsin,
Qüssə-qəmi əhvalından soy, getsin,
İztirabı bəbəyindən oy, getsin,
Yayılıb aləmə car gizli-gizli.

İsrailəm, belə dolanmaq olmaz,
Gözəlim, gözəllik sənə də qalmaz,
Fani dünya ötər, heç yada salmaz,
Ölməz məhəbbətim var gizli-gizli.
İstəsən, sinəmi yar gizli-gizli.

***Bakı şəhəri***
***20.06.2012-ci il.***



# SEVDASIYAM

Qıvrım telli, ağ bənizli,
Gülər üzün sevdasıyam.
Nəzər salan gizli-gizli
Mavi gözün sevdasıyam.

İstəyində sərt baxışlı,
Köynəyində al naxışlı,
Əndamında şux çıxışlı
Qamət-dizin sevdasıyam.

Təravətdə bal tökülən,
Ürək açıb tez sökülən,
İsmətində hey bükülən
Şirin sözün sevdasıyam.

Nəvazişdə dəyanətli,
Məhəbbətdə səxavətli,
Nəğməsində məlahətli
Həzin-həzin sevdasıyam.

İlməsiylə qəlb oxlayan,
Füsunkarla təb yoxlayan,
Ətir verib gül qoxlayan
Əlvan düzün sevdasıyam.

Alovlanıb tək sönməyən,
İnadından həm dönməyən,
İstisindən heç enməyən
Yanan közün sevdasıyam.

Fırtınada yırğalanan,
Görüşüylə sığallanan,
Sevinciylə düz calanan
Göy dənizin sevdasıyam.

Könülüylə coşa gələn,
Eşqi anıb xoşa gələn,
İsraillə qoşa gələn
Ötkəm izin sevdasıyam.
Gülər üzün sevdasıyam.

***Gəncə şəhəri***
***13.08.2011-ci il.***



# NƏ MƏNASI VAR?

Yarandın dünyada yaşamaq üçün.
Fərsiz dolanmağın nə mənası var?
Yalan deməyəsən, deyəsən düzgün.
Yaman danışmağın nə mənası var?

Elə ki, məclisdə var oldun sən də,
Hər sözün cilovu olsun əlində,
Danış, gül, amma ki, tamam yerində.
Pəki-hədyanlığın nə mənası var?

Oxu kitabını, mütaliə et,
Çalış bəslədiyin diləyinə yet,
Özündən böyüyün sözü ilə get.
Yersiz davranmağın nə mənası var?

Hər deyilən sözü həmişə anla,
Vicdansız kəsləri görəndə danla.
İnsanlar tanınar daim ad-sanla.
Adsız yaşamağın nə mənası var?

Adam ağır olar kəlamda, üzdə,
Hörmətli olasan gərək hər gözdə,
Şərəflə çalışsan, qalmazsan düzdə.
Ədəbsiz olmağın nə mənası var?

Əməkdə görürəm xoş aqibəti,
Az-çox bir qanasan doğru söhbəti,
Üstünə gəlməyə yoldaş möhnəti.
Zəhmətsiz xoş çağın nə mənası var?

İsrail sözünü deyir qanana,
Hər sözdən özünə bir pay alana,
Uymayın həyatda nakəs-nadana.
Xali-küftarlığın nə mənası var?
Yaman danışmağın nə mənası var?

***Göyçə mahalı***
***05.02.1977-ci il***

# AYAĞIMA İLİŞDİ

Fitnələrin, yol gedirdim, yolumda
Yeriyəndə ayağıma ilişdi.
İstədim tez qaçım, qılçamı atıb,
Şalvardakı balağıma ilişdi.

Tikan kimi yapışıbdır özümə,
Arxamdakı silinməyən izimə,
Məhəl qoymur tənqidimə, sözümə,
Əl çəkmədi, lap sağıma ilişdi.

Tullayıram, rədd edirəm qırağa,
Getməyirəm inadına, sorağa,
Fikir vermir qəzəbdəki darağa,
Təkidimdə yarağıma ilişdi.



Möcüzədir, rəm fırladır astaca,
Taptalayıb, hey atıram yamaca,
Yollar tapır sərimdəki bu taca,
Əqlimdəki marağıma ilişdi.

Nəsiboğlu yox edəcək nəhayət,
Dağıdacaq, tam sökəcək nəhayət,
Həyatından, bil, siləcək nəhayət,
Zibil olub yamağıma ilişdi.
Yeriyəndə ayağıma ilişdi.

***Daşkənd şəhəri***
***19.11.2002-ci il.***



# CANA DƏYƏR

Qonşuluqda var bir sona,
Gözəlliyi cana dəyər.
Gündə düşür on bir dona,
Qiyməti çox, sana dəyər.

Gizli-gizli hey boylanır,
Sevgisini üzdən danır,
Tamaşadan gah usanır,
Çətin imtahana dəyər.

Dəhanı ləldir, incidir,
Gülüşü qəlbimi didir,
Yerişiylə vurğun edir,
Şux ahu-ceyrana dəyər.

Ətirindən hallanır hal,
Dəyişir tərzimdə əhval,
Könlüm yanır, eşqinə sal,
Axıtdığı qana dəyər.

Piyalədir mavi gözü,
Şölə saçır parlaq üzü,
Bal kimidir söhbət-sözü,
İstəyi peymana dəyər.

Ürəyimə atdı kədər,
Hissiyyatı alov qədər,
Keçirməyir vaxtı hədər,
Al-əlvan gülşana dəyər.

Dodaqları olub püstə,
Görüşüylə salıb xəstə,
Boy-buxunu bütün bəstə,
Hesabda milyona dəyər.

İsraili heyran qoydu,
Nəzəri dərimi soydu,
Didəmi tədricən oydu,
Sürüyüb yıxana dəyər.
Axıtdığı qana dəyər.

***Sankt-Peterburq***
***30.05.1997-ci il.***



# DÖNÜBDÜR

Qəlbimin aynası tutub əksini,
Görünüş köksümdə qana dönübdür.
Ruhuma qarışıb dinləyir dini,
Cismimdən qopan imana dönübdür.

Nəfəsin boşalır ciyərlərimdə,
Təəssüf fırlanır idrak-sərimdə,
Çırpınır imtiyaz əməllərimdə,
Ayrılmaz taqətdə cana dönübdür.

Gözlərin qıyqacı düz mənə baxır,
Təsvirin nəzərdən axır, hey axır,
Qığılcım odunu üstümə yaxır,
Qırılmayan əhd-peymana dönübdür.

Dodağın lalə tək endən allanır,
Gülüşün sıçrayıb önə yollanır,
Nəvaziş ahəstə başdan sallanır,
Belə əcəb şux imkana dönübdür.

Qaşların həmləsi gərilir qəsdən,
Kirpiyin oxları dartınır bəsdən,
Döyünür, çəkinir titrəyən səsdən,
Təzahür xoş mehribana dönübdür.

Bədirlənmiş üzün nurlardan bəkir,
Sevgi bağçamıza gülləri əkir,
Ürəyim dözməyir, niskillik çəkir,
Bədbinlikdən qəmgin ana dönübdür.

İnsaf eylə, qafiyədən çıx barı,
Göstər məhəbbəti, düz etibarı,
Önümdə heç nədir dünyanın varı,
İstək bezib ah-amana dönübdür.

Xəyalım yanında arayır tamam,
Zülfünə əl çəkib darayır tamam,
Gəl görün, doğrunu tez ayır tamam,
Könül coşub bir ümmana dönübdür.

Nəsiboğlu surətini saxlayır,
Bu gün, sabah əllisini haqlayır,
Sənə görə ürəyini dağlayır,
Ömrüm sanki, zimistana dönübdür.
Görünüş köksümdə qana dönübdür.

***Bakı şəhəri***
***14.09.2009-cu il.***



# AĞYOXUŞ ÇAYIM!

Qıvrılanıb hey axırsan,
Gurlayan Ağyoxuş çayım!
Qəribəm, kədər yaxırsan,
Gurlayan Ağyoxuş çayım!

Bulaqlarım çağlar qalıb,
Bəbəyimiz ağlar qalıb,
Ürəymizdə dağlar qalıb,
Gurlayan Ağyoxuş çayım!

Dərələrdə hayqır qopar,
Kükrə-sellən, basqı apar,
Yaylağımda dığa çapar,
Gurlayan Ağyoxuş çayım!

Xəbər ver İnəkdağıma,
Həyan et gülşən bağıma,
Məhəl yetir fərağıma,
Gurlayan Ağyoxuş çayım!

Daşnaqları süpür tulla!
Qədir bilməz çaqqal-tula!
Yarğanında haqqı bula,
Gurlayan Ağyoxuş çayım!

Seloyları dibindən oy,
İntizarı köndələn soy,
Düşmənlərə hədələr qoy,
Gurlayan Ağyoxuş çayım.

Düzlərimə su səpələ,
Çatammırıq ora hələ,
Qıylayırmı durub lələ?
Gurlayan Ağyoxuş çayım!

Tündləşib şəffaf bənizin,
Darıxıb, korlanıb izin,
Göyçə Göllə qovuş həzin,
Gurlayan Ağyoxuş çayım!

Təpə-yaldan məhləyə en,
Daşıb-dağıt, qəzəblə din,
Qov hayesi, dözməsin ön,
Gurlayan Ağyoxuş çayım!

Mahalımı çağır gəlsin,
Partlayacaq bağır, gəlsin,
Batman deyib, ağır gəlsin,
Gurlayan Ağyoxuş çayım!

Təmtəraqlar yarat dərhal,
Yaraşmayır bu bədbin hal,
Kaş şadlana bizdə iqbal,
Gurlayan Ağyoxuş çayım!



Addımbaşı çözümdəsən,
Xəyal düzən gözümdəsən,
İsrailəm, sözümdəsən,
Gurlayan Ağyoxuş çayım!
Gurlayan Ağyoxuş çayım!

***Sankt-Peterburq***
***27.06.1997-ci il.***



# ETİBARIM YOX DAHA

Taleyim kəm gəlir, desəm əzəldən,
Sızıldayan intizarım yox daha.
Vəfa umma hər nazənin gözəldən,
Gülümsəyən vəfadarım yox daha.

Biganəlik baş qaldırır sərimdə,
Qalıbmı ar, ismət, de, kimdə? Kimdə?
Xoşagəlməz nişanələr ilimdə,
Coşan, daşan iftixarım yox daha.

Kütləşmişəm, lap çoxalıb saxta üz,
Saxta salam, saxta mənlik, saxta söz,
Bir qırpımda ah eyləyir nəzər, göz,
Ucalmayır göyə, zarım yox daha.

Zaman məngənəsi sıxır anbaan,
Qalmayıb simsara tam inam, güman,
Əsəbdən quruyub damarımda qan,
Ürəkdə dartınan tarım yox daha.

Dirənib qismətim kəskin qayaya,
Yoxdur hay tutduğum, çatmır haraya,
Düşürəm zillətə, düşürəm vaya,
İdrakda boylanan karım yox daha.

Dağların başına qar da yağarmış,
Ömür qısaldıqca, yollar da darmış,
Oxuyan bülbül yox saxsağan, sarmış,
Ətirli əlvan gülzarım yox daha.

Nəsiboğlu qəm əlindən üzülür,
Xəyalları göz önündə düzülür,
Həyəcanlar gileylənib süzülür,
Heç bir kəsə etibarım yox daha.
Coşan, daşan iftixarım yox daha.

***Bakı şəhəri***
***03.02.2008-ci il.***

# KİTABIN İÇİNDƏKİLƏR

İstedadın bəxşişi ............................................5
Göyçənin ....................................................11
Səni görəndə ...............................................12
Qəribsəyir ...................................................13
Necə dözüm?................................................14
Şanım kükrəyir ............................................15
Qocalırıq......................................................16
Kəraməti yandırır ........................................17
Çal, İnəkdağı! ..............................................18
Bu həyatın yollarında ...................................21
Boylanır .......................................................22
Qorxur düşmən.............................................23
Atadır ...........................................................25
Yarımı istərəm .............................................26
Nə üçündür? ................................................27
Gözümə dəydi...............................................28
Əziz anam, səndən ötrü ...............................29
Toxundu .......................................................31
Baxmayın .....................................................32
Qardaş .........................................................33
Ondan ötəri .................................................34
Dağlar ..........................................................35
Palan olmasın ...............................................37
Taleyimə.......................................................38
Bu nadan ......................................................39
Çox gözlədim ...............................................40
Bir vəfasız.....................................................41
Allanan gözəl ...............................................42
Tufan qopur .................................................43
A dostlar.......................................................45
Fidan ............................................................46
Mənim həyatım ............................................47
Payız gəlib ...................................................48
Yetişmir .......................................................49
Ah Dərbənddə ..............................................50
Ay hakim ......................................................51

Ay gələn qız! ....................................................52
Cümhuriyyət Məmməd Əmində ....................53
Ovlama ..........................................................57
Ürəyimin düz başında ....................................58
Allah məni niyə belə yaradıb?........................59
İnanma! ..........................................................60
Qonşu qız ........................................................61
Gülür Vətən ....................................................62
Badalaq vurur..................................................63
İntizarda qalan bülbül ....................................64
Atatürk ............................................................65
Qucağında ......................................................66
Gözünə qaşlar..................................................67
Canan dəydi ....................................................69
Mənim babam ................................................70
İstərəm ............................................................71
Çox peşman olma! ..........................................73
Dili tərpət ........................................................74
Karyerist..........................................................75
Bu eşqimə ........................................................76
Qaldı yavaşca ..................................................77
Yaralanmışam ................................................78
Bakılı qız ........................................................79
Salırsan............................................................81
Ay elli qız! ......................................................82
Gedən qızın ....................................................83
Tapdım sevgimi ..............................................84
Ax, yaman oldu ..............................................85
Qadası var ......................................................86
Yalan öldürür ..................................................87
Qonur gözlərinin önündə ..............................88
İntizardır ........................................................89
Elə bağlıdır ....................................................91
Göyərçin..........................................................93
Ay Zülfünaz!....................................................94
Nakam qəlbimdə ............................................95
Anlamaq olmur ..............................................96
Axırına baxarıq ..............................................97

Bənövşə..........................................................99
Külü azdır.......................................................100
Fani dünyadır ..................................................101
Güman qılsın ...................................................102
Keçmir təklifə..................................................103
Aman gündü.....................................................104
Məhəbbət!.........................................................105
Bir kişi kimi ....................................................106
Qaldı səadət ....................................................109
Baxasan asta-asta ............................................110
Bezərəm mən ...................................................111
Balasıyam - balası! ..........................................113
Bu dağlardan o dağlara ....................................114
Dolanır ............................................................115
Gətir görüm ....................................................116
Ay gözəl qız! ...................................................117
Güləbatım........................................................119
Atmaram .........................................................120
İlk məhəbbətim.................................................121
Aman ayrılıq.....................................................123
Düşmə axır ......................................................124
Bu xanım .........................................................125
Özgəsinə ..........................................................126
Paxılın..............................................................127
Desəm düzü ....................................................128
Qərar içində ....................................................129
Gülüb gəlmədi..................................................130
Gileylidir elim hələ ..........................................131
Görmədim........................................................133
Belə, xanım .....................................................134
Oduna düşdü....................................................135
Baş əyərdim ....................................................136
Düzüm ətrafına.................................................137
Özü bəstədir ....................................................139
Öz yarıma .......................................................140
Ay şəhərli qız! .................................................141
Gül xanımı .......................................................142
Günlər ötüşür ...................................................143

Kim biləcək?....................................................144
Sökdün nahaqdan .........................................145
Yanıma nəzərin...............................................147
Qıyqacı baxma ..............................................148
Gəzər bu dünyada..........................................149
Bənzədi sanki ................................................151
Götür məni ....................................................152
Gödək.............................................................153
Əndam ...........................................................154
Amandı...........................................................155
Sevgi sözünü ..................................................156
Lidanın ...........................................................157
Çöküb qoparma ...............................................158
Gəl, sənə sarı ..................................................159
Qalım səndə ...................................................160
Ay gözəl .........................................................161
Ay Sarıtəpə! ...................................................163
Göz oxşayır.....................................................164
Yolda mən .....................................................165
Görmüşəm .....................................................166
Seçdin nahaqdan ...........................................167
Gendən baxırsan.............................................168
Onda yoxla dostunu ......................................169
Sürüyər səni ..................................................171
Türkün diyarı .................................................172
Heç olmaqdadır .............................................173
Yalan oldu .....................................................174
Talandı həyatım ............................................175
Ələsgər ..........................................................177
Günah etmə ..................................................178
Sər tellərinə...................................................179
Görünməyir ..................................................180
Baxıram ........................................................181
Desəm düzünə...............................................182
Töküb ağlama! ..............................................183
Haraya gəlmədi..............................................184
Qanadı ..........................................................185
Yorma dedi....................................................186

Bir bilən yoxdur ....................................187
Bir yaxın gəl ....................................188
Amandı, ay qız ....................................189
Biləydim bir ....................................190
Fəğanıma gəl axır ....................................191
Xoşa gəlir ....................................192
Gəzərəm, Xəzər ....................................193
Guşəsində ....................................195
Bir geri bax! ....................................196
Özü də qanmır ....................................197
İki ulduz qovuşanda ....................................198
Dandın könlümü....................................199
Verərdim....................................200
Utanma, gülüm! ....................................201
Söz oynadırlar....................................202
Sənin otağında ....................................203
Xəyaldır ....................................205
Qəsd eylədi ....................................206
Təzadına mən ....................................207
Bu sirrin, qız! ....................................208
Nədir giley-güzar?....................................209
Gileyliyəm....................................210
Qaçır özümdən ....................................211
Bilər olsa....................................212
Şair odur....................................213
Bir gözəl incidir məni ....................................214
Şirindir-şirin ....................................215
İlin təmasında....................................216
Qaldı yalavac ....................................217
Qoyum yavaş ....................................218
Canlara dəyər ....................................219
Dəyişmədi....................................220
Bil qədərində....................................221
Doymaq olmaz ....................................222
Gedib ölməli ....................................223
Hədər örtməz ....................................224
Durmalıyam mən ....................................225
Soyma dedim ....................................226

Gödəlir ....................................................227
Yaralandım uzaqlarda ..................................228
Dərdlərə tərəf .............................................229
Qiymətin çox ..............................................230
Dovşanla tülkünün dostluğu .........................231
Baxa biləydin ...............................................233
Sən olmadın .................................................234
İzlənir zaman ...............................................235
Yad əlində ...................................................236
Bilə bilmədin ................................................237
Nazlı pərim ..................................................238
Güllü ...........................................................241
Xanım ..........................................................242
Ədasına vuruldum .........................................243
Kəsə dəyişmərəm .........................................244
Zəhər də qatdı ..............................................245
Sən axtarma .................................................246
Şana batıbdır ................................................247
Ömür keçir ...................................................248
Gülmə, amandı .............................................249
Durmaq olmaz ..............................................250
Gəl, gözəlim .................................................251
Mərhəmət qıl ................................................252
Yolumdan məni .............................................253
Tərk eləmir ...................................................254
Vallah ..........................................................255
Nazdı ...........................................................256
Sonda duyursan .............................................257
Zavalı yerbəyerdi ..........................................258
Korlayır ........................................................259
Talandı, deyəsən ...........................................260
Düz buyurublar .............................................261
Yaram indi ....................................................262
Əlləşirəm mən ...............................................263
Görüşündə ....................................................264
Gəl, gözəl baharım ........................................265
Dolanmışam ..................................................266
Sağdan keçəndə ............................................267

Nəzərinlə.....................................................268
Məni soraqlasın ..........................................269
Qara gözlərin ...............................................271
Sənin yollarında ..........................................272
Qızlar ...........................................................273
İzlərin üstə ..................................................275
Elə söykənir ................................................276
Gəlsin iltimas ...............................................277
Möhkəm qoru..............................................278
Baxma belə sən! ..........................................279
Cana dirəndi ................................................280
Gənclik illəri ................................................281
Enib dəbdən .................................................282
Niyə belə olur? ............................................283
Qanmadım ...................................................285
Oyatmadın ...................................................286
İzlərini didəmdə ..........................................287
Yanımdan yavaşca .......................................288
Silmirsən, gözəl? ..........................................289
İstəyimdə qalıbdır.........................................290
Vay, yaman oldu ..........................................293
Gedən xanım ...............................................294
Heç bilinmədən............................................295
Yanmaq olmur .............................................296
Ay Dan ulduzu .............................................297
Çaşma, xanım ..............................................298
Daşa dirənir .................................................299
Paltar asan qız .............................................300
Maraq özünə................................................301
Yada saldım .................................................302
Möhkəm saxla .............................................303
Titrə, ürək.....................................................305
Dursunay .....................................................306
Yollarım bağlanıb..........................................307
Qurban olum ...............................................308
Çox marağa düşməsin..................................309
Sənə baxıb keçəndə......................................311
Gözəl olur .....................................................312

Üstümə ........................................................313
Hey qovaram ...............................................314
Leyli ...........................................................315
İçim-içim ağlayıram!...................................316
Uzaq eldən Vətənə .......................................317
Sorağında qalanmışam ................................318
Özüm-özümə ................................................319
Təkrarlama ..................................................320
Dillərdə qaldı ..............................................321
Hesabdan deyil ............................................323
Nuş gəlibdir ................................................324
Ucal millət ..................................................325
Ötüb də, keçdi..............................................327
Yanımda yox ...............................................328
Ay Gülsünoy! ...............................................329
Qırağa atma ................................................331
Çökər mənə..................................................332
Yadıma düşür ..............................................333
Təkbulağım..................................................334
Niyə məndən incimisən? ...............................335
Qızların........................................................337
Yaxıb keçir ..................................................338
Bu yazıq ......................................................339
Oduna düşdü................................................340
Sana dirəndi ................................................341
Yar, gizli-gizli .............................................343
Sevdasıyam..................................................345
Nə mənası var? ............................................347
Ayağıma ilişdi..............................................348
Cana dəyər ..................................................349
Dönübdür ....................................................351
Ağyoxuş çayım! ...........................................353
Etibarım yox daha .......................................355

**İsrail Nəsiboğlu**

# Bu həyatın yollarında

***(I cild)***

**Bakı - MTR Group - 2013, 364 səh.**

Operator: Aynur Şirinova
Korrektor: Süleyman Süleymanov
Dizayner: Ramiz Əbilov

Yığılmağa verilmşdir: 21.01.2013
Çapa imzalanmışdır: 05.08.2013
Format: 60x84 1/16
Fiziki çap: 22.75
Sifariş: 149
Tiraj: 500

mtr polygraphics group


Varı lap özündən çox istəyənlər,
Bilməyir, dünyamız fani dünyadır?
Vəzifə uğrunda başın əyənlər,
Düşünmür, lüzumsuz ani dünyadır?
اللَّهمّ حآفظ عن سوءِ العينِ وَمانعِ الخيرِ وَ النّاس الخاشعةِ في البرِّ